www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 yanvar 2015-ci il Cümə axşamı № 14 (6042) Qiyməti 40 qəpik

**Xəbər**

**Hacı Qamətdən şok açıqlamalar**

yazısı səh.12-də

**Gündəm**

**İlham Əliyev Almaniyada mühüm mesajlar verdi**



Prezidentlərin görüşündən sonra Angela Merkel səmərəli müzakirələr apardıqlarını bildirib; "Azərbaycan Avropanın, həmçinin Almaniyanın enerji təhlükəsizliyində böyük rol oynayır"

yazısı səh.9-da

**Neftimiz və geostrateji resurslarımız olmasaydı...**

yazısı səh.6-da

**Azərbaycandakı vəziyyət AŞ PA-nın gündəliyinə salındı**

yazısı səh.8-də

**Moskvada 20 milyon dollar nağd pulla yaxalanan 3 Azərbaycan vətəndaşı kimdir...**

yazısı səh.10-da

**20 yanvar qırğınında ABŞ-ın da əlinin olduğu ortaya çıxdı**

yazısı səh.8-də

**Davudoğludan ermənilərə barış mesajı**

yazısı səh.12-də

**Ordumuz dünyanın ən güclü 50 ordusu sırasında**

yazısı səh.11-də

**Nəqliyyat "qoçuları" daha bir sürücünü döydü**

yazısı səh.2-də

**Nardaranda 4 ölkənin bayrağı yandırıldı**

yazısı səh.11-də

**AXCP funksionerlərinin fikirləri Müsavatda qəzəb yaradıb**

yazısı səh.3-də

**Əhalinin banklara 18 milyard manat kredit borcu var**

yazısı səh.15-də

## Oliqarxların "uzaq, yaşıl ada" oyunu

# QUM ADASINI "HAFKA"DAN ALDILAR - ÖZƏL XƏBƏR

Ziya Məmmədovun keçmiş dostu və ortağı Hafiz Məmmədovu tam bitirirlər; bir vaxtlar onun nəzarətində olan Qum adası iş adamından alınaraq AZAL prezidenti Cahangir Əsgərovun nəzarətinə verilir; bankı, futbol klubu əlindən çıxan "Hafka" neft biznesindən kənarlaşdırılır




yazısı səh.5-də

## Hakimiyyət Elşad Abdullayev üçün "düyməyə basdı"

Prokurorluqdan qəfil bəyanat - "tutulsun..."; sabiq rektora qarşı başlanan yeni hücum taktikasının arxasındakı gizlinlər

yazısı səh.5-də



**Abbas Abbasovun "qələmini" Bakıdan qırıblar**

yazısı səh.10-da



**Ayaz Mütəllibovdan ikibaşlı açıqlamalar**

yazısı səh.4-də



**Umayra Tağıyevanın istefasının şok səbəbi - işçilər niyə ağladı?**

yazısı səh.12-də

**22 yanvar 2015**



# Azay Quliyev Türkiyə səfiri ilə görüşdü

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmayıl Alpər Coşqunla görüş keçirilib. Səfir İsmayıl Alpər Coşqun şuranın və ölkəmizin QHT sektorunun fəaliyyətini diqqətlə izlədiklərini bildirib.**

Şura sədri Azay Quliyev rəhbərlik etdiyi qurumun vətəndaş cəmiyyətinin inkişafı istiqamətində 2014-cü ildə həyata keçirdiyi fəaliyyət haqqında səfirə məlumat verərək qarşıdakı dövrdə də Azərbaycan dövlətinin QHT-lərə verdiyi hərtərəfli dəstəyin davam edəcəyini vurğulayıb.

Görüşdə Azərbaycan və Türkiyə QHT-lərinin əməkdaşlıq imkanları müzakirə edilib, vətəndaş cəmiyyəti inistitutlarının milli mövzularda fəaliyyətinin əlaqələndirilməsi mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Yanvarın əvvəlindən Ermənistan ordusunun 8 hərbi qulluqçusu məhv edilib

**“Ermənistandakı son hadisələr göstərir ki, onlar cəbhədə müvəffəqiyyət qazana bilmədiklərindən dezinformasiya xarakterli məlumatlar yaymaqla Azərbaycan tərəfini informasiya mübarizəsinə çəkməyə çalışırlar”. Bu barədə APA-nın sorğusuna cavab olaraq Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib. Nazirlikdən bəyan edilib ki, Ermənistandakı hərc-mərclik, ordudakı döyüş və qeyri-döyüş itkilərinin sayının çoxalması işğalçı dövlətin hərbi-siyasi rəhbərliyinin imicinə sarsıdıcı zərbə vurmaqla yanaşı, onları psixoloji tarazlıqdan çıxarır: “Bu cür vəziyyət Ermənistanın hərbi komandanlığının özünü qeyri-adekvat aparmasına səbəb olur, onların cəbhədəki vəziyyəti xeyirlərinə dəyişmək məqsədilə tələm-tələsik, səhv qərarlar verərək uğursuz kəşfiyyat-təxribat əməliyyatları keçirməyə cəhd göstərməsinə və bununla da mənasız itkilərin sayının artmasına şərait yaradır”.**

Nazirlikdən qeyd olunub ki, erməni tərəfinin rəsmi olaraq təsdiq etdiyi kimi, yanvarın 3-dən 20-dək yalnız cəbhədə onların (Ermənistan Silahlı Qüvvələrinin) 8 hərbi qulluqçusu məhv edilib, 4 nəfəri isə ağır yaralanıb: “Təsdiq edilən itkilər ancaq Ermənistan Silahlı Qüvvələrinə məxsusdur. İşğal edilmiş ərazilərimizdən, Dağlıq Qarabağdan olan və zorla cinayətkar silahlı dəstələrə cəlb olunmuş ermənilər arasında itkilər isə gizlədilir, onların sayı rəsmi açıqlanandan ən az iki-üç dəfə çoxdur. Müdafiə Nazirliyi bir daha bildirir ki, işğalçı qüvvələr torpağımızdan çıxarılanadək bu cür itkilərə daha çox məruz qalacaq və bütün bunlara, eləcə də baş verə biləcək təxribatlara görə birbaşa və qeyd-şərtsiz Ermənistanın kriminal hərbi-siyasi rejimi məsuliyyət daşıyacaq”.

# Yeni seçki bloku yaradılır

**Yanvarın 21-də Demokratiya və İnsan Haqları Mərkəzində əməkdaşlıq edən siyasi partiyaların toplantısı olub. Toplantıda KXCP, Azadlıq, ALDP, VİP, BAP, Azad Demokratlar, Aydınlar və AXP sədrləri iştirak edib. Musavat.com xəbər verir ki, toplantıda siyasi məhbus, “Hüquq Maarifçiliyi” Cəmiyyətinin sədri İntiqam Əliyevin məhkəməsinin başlanması ilə bağlı məsələ müzakirə edilib, məhkəməyə İ. Əliyev barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsi haqqında müraciət ünvanlanıb. Siyasi partiyalar son dövrdə Ədliyyə Nazirliyi Penitensiar Xidmət rəhbərliyinin qanuna və statuslarına zidd olaraq təcridxanalarda saxlanılan və barələrində məhkəmə qərarları olmayan siyasi məhbuslar barəsində təqsirsizlik prezumpsiyasını pozan, psixoloyi təzyiq və işgəncə xarakterli, hüquqdan və insanlıqdan kənar açıqlamalarla çıxış etmələri tendensiyasından narahatlıq ifadə ediblər.**

Toplantıda 2015- ci il parlament seçkiləri ilə bağlı əməkdaşlıq haqqında siyasi partiyalarla aparılan məsləhətləşmələrin nəticələri müzakirə edilib. Qeyd olunub ki, DİHM- də əməkdaşlıq edənlərlə birlikdə bu məsləhətləşmələr (AMİP, ALP, Ədalət, Yaşıllar, İslam, XAP, İDP - də olmaqla) müxalifətdə olduqlarını bəyan edən 18 partiyanı əhatə edib. AXCP -dən görüş haqqında müraciətə cavab verilməyib. Ümumən məsləhətləşmələrin faydalı olduğu və bir sıra partiyalar tərəfindən bu tipli təmasların davam etdirilməsində maraq ifadə etdikləri nəzərə alınıb. Toplantıda həbelə DİHM- in seçki blokuna çevrilməsi bağlı təklif müzakirə edilib. Toplantı iştirakçılarının tərəfdar olduğu mövqe ondan ibarət olub ki, DİHM- də əməkdaşlıq edən partiyaların hamısının və ya bir qisminin seçki blokunda birləşməsi DİHM- in mövcudluğunu istisna etmir və bu iki əməkdaşlıq formatlarının tərkibi fərqli ola bilər. Müzakirələrin davam etdirilməsi məqsədəuyğun sayılıb.

❑ Musavat.com

**Başsağlığı**

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Tovuz rayon təşkilatının fəalı Firudin Süleymanova qardaşı Bəşir kişinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

# ““Khazar İslands” Azərbaycan üçün çox önəmli layihədir”





**Hacı İbrahim Nehrəmlinin prezidenti olduğu “Avesta Concern”in həyata keçirdiyi “Khazar İslands” layihəsinə maraq artmaqdadır. Diplomatların və əcnəbi iş adamlarının layihə ilə yaxından maraqlanması, Azərbaycan haqqında nüfuzlu xarici media quruluşlarında yer alan məlumatlarda “Khazar İslands”ın xüsusi qeyd edilməsi də buna sübutdur. Son üç ayda Yaponiya, Malayziya, Səudiyyə Ərəbistanı, İsrail və Rusiyanın səfirləri, İspaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili “Khazar İslands” layihəsi ilə tanış olmaq üçün layihənin həyata keçirildiyi ərazidə olublar. Yalnız yeni ilin ilk üç həftəsi ərzində İtaliyanın ANSA xəbər agentliyi və Almaniyanın “P.T. Magazine” onlayn biznes jurnalının Azərbaycandan bəhs edən məqalələrində “Khazar İslands” və “Azerbaijan Tower” haqqında məlumatlara da geniş yer verilib.**

Bu dəfə Avstriyanın Azərbaycandakı səfiri Mag. Aksel Vex “Khazar İslands” layihəsi ilə tanış olmaq üçün bura baş çəkib. Hacı İbrahim Nehrəmli ilə görüşən səfir Mag. Aksel Vexa “Khazar İslands” haqqında geniş məlumat verilib. Bundan sonra səfir Mag. Aksel Vex görülən işlərlə tanış olmaq üçün tikinti meydançasını gəzib. Görülən işləri yüksək qiymətləndirən Mag. Aksel Vex “Khazar İslands” layihəsinin Azərbaycan üçün çox önəmli layihə olduğunu söyləyib və belə möhtəşəm layihəni həyata keçirməsi münasibəti ilə Hacı İbrahim Nehrəmlini təbrik edib, onu uzaqgörən iş adamı kimi xarakterizə edib. “Avesta Concern”in prezidenti səfir Mag. Aksel Vexa “Khazar İslands” layihəsinə Avropa və Asiya şirkətlərinin maraq göstərməsi, bir sıra şirkətlərlə əməkdaşlığın əsasının qoyulması haqqında məlumat verib və Avstriya şirkətləri ilə də əməkdaşlığa hazır olduqlarını söyləyib. Hacı İbrahim Nehrəmli Avstriyanın tikinti şirkətlərinin inşaat işlərində daim yenlikçi olduqlarını, buna görə Avstriya şirkətləri ilə əməkdaşlıqda daha maraqlı olduqlarını da qeyd edib. Səfir öz növbəsində Avstriya şirkətlərinin Azərbaycanda həyata keçirilən layihələrdə yer almasının onların da maraqlarında olduğunu, bunun üçün səfir kimi əlindən gələni etməyə hazır olduğunu qeyd edib. “Khazar İslands” layihəsinə daxil olan və artıq fəaliyyət göstərən “Stingray” restoranı ilə tanış olan səfir Mag. Aksel Vexa buarada tətbiq olunan texnologiyanı və göstərilən xidməti yüksək qiymətləndirib. Onu “Khazar İslands”a səfərdə səfirliyin konsulluq xidmətinin rəhbəri xanım Ute Friessner və səfirin köməkçisi Yusif Abdullayev müşayiət ediblər.

# Tofiq Yaqubluya vəkili ilə görüşməyə icazə verilməyib

**Həbsdə olan Müsavat başqanının müavini Tofiq Yaqublu ilə vəkilinin görüşünə icazə verilməyib. Buna səbəb kimi vəkilə görüş üçün verilən icazə sənədinin dəyişdirilməsi əsas gətirilib.**

Bu barədə musavat.com-a başqan müavininin vəkili Nemət Kərimli məlumat verib. Vəkil baş verənlərin qanunazidd olduğunu bildirib: “Cəzaçəkmə müəssisəsinə Tofiq Yaqublu ilə görüşməyə gəlmişdim. Noyabr ayında Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə müddətsiz görüşlə bağlı müraciət etmişdim. Buna baxmayaraq, 13-cü əsgər alayının komandiri görüşümə icazə vermədi. Bununla bağlı Cavanşir adlı komandirin qəbulunda oldum. Məni normal qarşıladı. Dedi ki, görüş sənədləri dəyişdirilməlidir. Bütün bunlar tamamilə qanunaziddir. Vəkil sona qədər məhbusu müdafiə etmək, məhbusla görüşmək hüququna malikdir. Bununla əlaqədar aidiyyəti orqanlara müraciət edəcəm”.

Qeyd edək ki, Tofiq Yaqublu 2013-cü ilin yanvarında İsmayıllıda baş verən məlum hadisələrə görə həbs olunub. O, 5 il müddətinə azadlıqdan məhrum edilib. Hazırda başqan müavini 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.

❑ Cavanşir ABBASLI



# Bu gün vitse-admiralın məhkəməsi başlayır

**Yanvarın 22-də Nəsimi Rayon Məhkəməsində Hərbi Dəniz Qüvvələrinin(HDQ) vitse-admiralı Şahin Sultanovun və digərilərinin işi üzrə məhkəmə hazırlıq iclası keçiriləcək. Müttəhimlər kürsüsünə çıxarılacaq HDQ-nin sabiq komandanı Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında ötən il aprelin 23-də Bakı Hərbi Məhkəməsinin qərarı ilə həbs olunmuşdu.**

Onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilmişdi. Sonradan istintaq müddəti uzadılmışdı. Ötən ilin sonlarında isə onun barəsində seçilmiş həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəzlənib. Ş.Sultanovla bərabər həbs olunan HDQ zabitləri də ev dustaqlığına buraxılıblar. Belə məlumatlar var ki, iş üzrə müəyyən edilən maddi ziyanın ödənilməsi müqabilində Ş.Sultanov və onunla birgə cinayət məsuliyyətinə cəlb olunmuş zabitlər barəsində həbslə əlaqəli olmayan cəza veriləcək.

Ş.Sultanov Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) və 179.3.2-ci (mənimsəmə - külli miqdarda törədildikdə) maddələri ilə təqsirli bilinir.

❑ E.MƏMMƏDƏLİYEV

# Nəqliyyat “qoçuları” daha bir sürücünü döydü



**Nəqliyyat Nazirliyinin müfəttişlərinin sürücülərə qarşı daha bir kobud davranışını nümayiş etdirən görüntülər yayılıb. “Qafqazinfo”nun əldə etdiyi videodan da görünür ki, nəqliyyat müfəttişi taksi sürücüsü ilə əlbəyaxa davaya çıxıb. Sumqayıt şəhərində, avtovağzalın yaxınlığında qeydə alınan insidentin səbəbini öyrənmək mümkün olmasa da, bu, artıq nəqliyyat müfəttişləri ilə taksi sürücüləri arasında yaranan ilk qarşıdurma deyil.**

# Xədicə İsmayıl karserə salınıb

**Həbsdə olan jurnalist Xədicə İsmayıl bir günlük karserə salınıb, onun kamerasında isə yoxlama aparılıb. Bu haqda AzadlıqRadiosuna vəkil Yalçın İmanov məlumat verib. Vəkilin sözlərinə görə, həbsxana əməkdaşları jurnalistin cəzalandırılmasını onun məqaləsinin mətbuatda yayılması ilə izah edirlər.**

Yalçın İmanov hadisənin ötən həftənin sonunda baş verdiyini deyir.

“Sadəcə, o vaxtdan görüşə bilməmişik deyə, indi xəbər tutmuşuq. Mətbuatda yayılan məqaləsinə görə bir günlük cəzalandırılıb. Xədicə deyir ki, karser elə də dəhşətli yer deyil. Orada olduğu müddətdə bir kitabı oxuyub bitirib. Deyir ki, kameradan fərqli olaraq, karserdəki pəncərənin qarşısında ağac var. Bu təbiət mənzərəsini görməkdə yardımçı olduqlarına görə təcridxana rəhbərliyinə təşəkkür edir. Karserdən buraxılandan bir gün sonra isə kamerasında axtarış aparılıb. Bütün qeydlərini götürüblər”.

Yalçın İmanov deyir ki, hazırda da jurnalistin vəkilləri ilə görüşü ciddi nəzarət altında həyata keçirilir.

Xədicə İsmayıl ötən il dekabrın 5-də həbs olunub. O, jurnalist Tural Mustafayevin «özünü öldürmə həddinə çatdırma» ittihamı ilə saxlanıb.

# Rusiyadan kəlbəcərli girovla bağlı vəd

## Sergey Lavrov: “Dilqəm Əsgərovun məsələsi erməni tərəfi ilə müzakirə olunacaq...”

**“Dilqəm Əsgərovu erməni tərəfi tutub və bu məsələ erməni tərəfi ilə müzakirə olunacaq”. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov dünən keçirdiyi brifinqdə Rusiya vətəndaşı Dilqəm Əsgərovun Kəlbəcərdə ermənilər tərəfindən girov götürülməsi ilə bağlı sualı cavablandırarkən deyib (APA).**

“Rusiyanın müxtəlif ölkələrdə tutulmuş xeyli vətəndaşı var. Biz daim onların taleyi, bu şəxslərə qarşı irəli sürülən ittihamların ağırlığı, saxlanma şəraiti, saxlanıldıqları ölkənin onlarla bağlı planları ilə maraqlanırıq və bunun əsasında müvafiq qərarlar qəbul edirik. Qərarlar Rusiyanın müvafiq ölkələrlə ikitərəfli münasibətlərində mövcud olan kanallarla qəbul olunur”, - deyə Rusiya XİN başçısı bildirib.

Qeyd edək ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər. Digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

Separatçı rejimin “məhkəməsi” ötən il dekabrın 19-da Dilqəm Əsgərovun ömürlük, Şahbaz Quliyevin isə 22 il müddətinə azadlıq məhrum edilməsi barədə “hökm” çıxarıb.

# Gültəkin Hacıbəyli jurnalistləri məhkəməyə verdi

**Sabiq deputat Gültəkin Hacıbəyli 9 jurnalisti məhkəməyə verib. Virtualaz.org xəbər verir ki, onların arasında “Yurd TV”nin, “Palitra” və “Kaspi” qəzetlərinin, teleqraf.com, sia.az saytlarının əməkdaşları var.**

G.Hacıbəyli jurnalistlərin xüsusi ittiham qaydasında cəzalandırılmasını tələb edir. Jurnalistlərə qarşı iddia üzrə məhkəmənin hazırlıq iclası yanvarın 23-də Yasamal Rayon Məhkəməsində hakim Aqşin Əfəndiyevin sədrliyi ilə keçiriləcək.

Qeyd edək ki, həmin jurnalistlər G.Hacıbəylinin qəzəbinə qəribə bir səbəbdən gəliblər. Belə ki, onlar sabiq deputatın keçmiş həyat yoldaşı Mahmud Mehdiyevin ötən il keçirdiyi mətbuat konfransını işıqlandırdıqları üçün (?-red.) cəzalandırılmalı imişlər. Bu isə özlüyündə nonsensdir. Çünki mətbuat konfranslarında iştirak edərək orada səslənən fikirləri ictimaiyyətə çatdırmaq jurnalistin vəzifələrindən biri sayılır.

Onu da xatırladaq ki, G.Hacıbəyli 2013-cü ilin mayında keçirdiyi mətbuat konfransında ona qarşı təhqiramiz ifadələr işlətməkdə günahlandırıb və M.Mehdiyevin Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb olunmasını istəyib. Yasamal Rayon Məhkəməsi isə iddianı təmin etməyib.

“Elm” tədris mərkəzi

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Xədicə İsmayılı doğru tutublar

(Bu yazını redaksiyaya Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib)

**Bir qabaqcıl siyasi məhbus zəhmətkeşi kimi bəzi etiraflar etmək istəyirəm. Müxalifətçilərdən birini həbs edən kimi, heç işdən hali olmamış, o saat başlayırıq ki, bu siyasi həbsdir, ittiham qondarmadır, həbs olunan müxalifətçi aydan arı, sudan durudur və s. Amma bəzən belə olmur, diqqətlə baxanda görürsən ki, ittiham da ədalətlidir, həbs də haqlıdır. Məsələni dəqiq izah etmək üçün xırda bir misal göstərim, sonra da keçək mətləbə.**

Mətləb demişkən, tutaq ki, Mətləb adlı birisi Həsəni bərk döyübmüş, ancaq onu Hüseyni döyməkdə ittiham edərək həbs edirlər. Bu yerdə Hüseynin "mənim günahım yoxdur, həbsim siyasi sifarişdir, Hüseyni heç tanımıram" və s. deməyə nə haqqı var, nə də buna ehtiyac. Ay canım gözüm Mətləb, axı sən bu əməli törədibsən, cəzanı da almalısan, qoy, getsin Həsənlə Hüseyn bir-birini qırıb aydınlaşdırsınlar ki, əsl zərərçəkən kimdir, sənin nə borcuna.

Biz və bütün dünya haray salmışıq ki, Xədicə İsmayılı nahaqdan tutublar, o, Tural Mustafayev adında bir zatı ölüm həddinə çatdırmayıbmış. Xədicə İsmayıl bu hərəkəti törədib və öz mənfur əməlinə görə ciddi cəzalanmalıdır. Burada sadəcə olaraq cüzi yanlışlıq var ki, onun da işin mahiyyətinə heç bir təsiri ola bilməz. Həmin yanlışlıq Həsənlə Hüseynin məsələsində olan yanlışlıqdan başqa bir şey deyil. Xədicə İsmayıl uzun müddətdir ki, apardığı araşdırmalar, yazdığı məqalələr və hazırladığı hesabatlarla bu iqtidarı ölüm həddinə çatdırmışdı. Onu vaxtında tutmasaydılar bir gün eşidəcəkdik ki, həşəmətli iqtidarımız bir xışma siçan ağısı içib, sonra da metronun "Koroğlu" stansiyasının yanındakı intiharlar üçün nəzərdə tutulmuş körpüyə dırmaşıb, özünü kəllə-mayallaq aşağı atıb, sonrasını da özünüz təsəvvür edin də. Odur ki, Xədicə İsmayıl və onu müdafiə edənlər, qurtarın bu çığır-bağırı, bütün faktlar ortadadır. Hələ sağ olsun ki, bizim iqtidar bu qədər dözüb. Məsələn, Xədicə İsmayıl bizim iqtidar haqqında yazdıqlarının on mində birini İsveç iqtidarı haqqında yazmış olsaydı, o, özünü diri-diri yandırardı. Amma bizim iqtidar neçə illərdir ki, buna səbir və mətanətlə dözdü. Azərbaycan xalqı dözümlü xalqdır. İndi məlum olur ki, onun iqtidarı da dözümlüymüş.

Oxucular birdən elə fikirləşərlər ki, mən iqtidarın əl-üzünü yuyuram, onun ideal olduğunu göstərməyə çalışıram, heç vaxt ədalətli həbslər etmədiyini savunuram. Yox, yox, belə fikrim yoxdur! Əlbəttə ki, eyibsiz gözəl olmur. Ona görə də bizim iqtidar da aradabir haqsız həbslər edir, incəvara səhvini də tez düzəldir. Məsələn, aydan arı, sudan duru Gülər Əhmədovanı heç nəyin üstündə səhvən həbs etmişdilər, amma məsələni dəqiq araşdırıb tezcə buraxdılar. Naxçıvanda biri İlqar Nəsibovu guya ki, döymüşdü. Sonra şanlı istintaqçılarımız araşdırıb gördülər ki, İlqar Nəsibova barmağının ucu ilə də toxunan olmayıbmış, o, sadəcə olaraq üz-gözünə boya rəng çəkərək, özünü amansızcasına döyülmüş kimi göstəribmiş. Və yaxud da dəniz qüvvələrimizin komandanı Şahin Sultanovun həbsini götürək. Ədalət uğrunda hər an canlarından keçməyə hazır müstəntiqlərimiz sübut etdilər ki, vitse-admiral nəinki xalqın bir qəpiyinə əl uzatmayıb, əksinə, qayınanasının pensiyasını da ölkəmizin hərbi qüdrətinin artırılmasına xərcləyirmiş. Dediklərimə əminəm, mən bunu bir qabaqcıl, stajlı siyasi məhbus zəhmətkeşi kimi deyirəm. Yeri gəlsə bunları Xədicə İsmayılın üzünə də deyərəm. Qadın seçicilərin barmağına görünməyən mürəkkəb vurulmasını onlara qarşı təhqir sayan iqtidarımız xanım jurnalisti şərləyib tutarmı heç?! Xanım jurnalist bilməlidir ki, ofşor zonada 48 milyard dollardan, Çovdar qızıl yatağından, Sumqayıt kimya şəhərciyindən və s. bu tipli şeylərdən yazanda hansısa günahsızı ölüm həddinə çatdırır. Birdən də...

# AXCP funksionerlərinin fikirləri Müsavatda qəzəb yaradıb

**Müsavat Partiyasının başqanı Arif Hacılının seçki ilində əməkdaşlıq üçün AXCP sədri ilə görüşməsinə ikincinin funksionerlərinin "Əli Kərimli siyasi mədəniyyət xatirinə Arif Hacılının görüş üçün müraciətini dəyərləndirdi, Müsavat hansı üzlə əməkdaşlıq təklifi verir" kimi rəyləri münasibətləri gərginləşdirib.**



**Nüşabə Sadıqlı:** "Hansı partiyanın necə yanaşıb, necə qəbul edəcəyi onların öz işidir"



**Tural Abbaslı:** "AXCP rəhbərliyi xalqa, öz partiya üzvlərinə bunun hesabını verməli olacaq"



**Mustafa Hacıbəyli:** "Əgər onlar özünü təcrid siyasəti yürüdürsə..."

**Müsavat Məclisinin sədri Nüşabə Sadıqlı** bildirib ki, bu görüş müxalifət partiyaları arasında qarşıdurmanın qarşısının alınması üçün atılan addım idi. Hansı partiyanın necə yanaşıb, necə qəbul edəcəyi onların öz işidir. Müsavat çox istəyir ki, müxalifətdə olub bir-birini ittiham edən partiyaların münasibətləri başqa müstəviyə - iqtidar-müxalifət mübarizəsi müstəvisinə keçsin. AXCP bunu istəmirsə, bu onların seçimidir.

**Müsavat başqanlığına sabiq namizəd Tural Abbaslı** isə bildirdi ki, əvvəllər Müsavatla AXCP-nin seçkilərdə birliyi sosial sifarişdən doğub. Hər iki partiya da bu sosial sifarişə uyğun addım atıblar. Bu gün də Müsavat Partiyasının əməkdaşlığa cəhd etməsi müsbət haldır: "Müsavat ölkədəki real durumu nəzərə alıb bütün müxalifət partiyalarının əməkdaşlığının vacibliyini önə çəkib və AXCP ilə də əməkdaşlıq üçün addım atıb. Bu addımın formasını müzakirə etmək olar. Amma ideya olaraq doğru addım idi. Bu təklif verilməli idi. Müsavat da başqanı vasitəsilə mövqeyini çatdırdı. Cəmiyyət də gördü ki, Müsavat pərakəndəliyin yox, seçki ilində əməkdaşlığın tərəfdarıdır. Müsavatın təklifinin bugünkü qiymətləndirilməsi isə ondan ibarətdir ki, AXCP ölkədə müxalifətin əməkdaşlığını istəmir, əməkdaşlıq mühitinin yaranmasını istəmir, əksinə, bir sıra AXCP funksionerləri əməkdaşlıq ehtimalını sıfıra endirmək üçün addımlar atırlar. Məsuliyyət artıq AXCP-nin üzərinə düşür. Sabah seçkidə ümumi müxalifətin uğursuzluğu olanda və bu uğursuzluq müxalifət partiyalarının pərakəndə fəaliyyəti ilə əlaqələndiriləndə AXCP rəhbərliyi xalqa, öz partiya üzvlərinə bunun hesabını verməli olacaq. Müsavat başqanı addımı atdı. Bundan sonra Müsavatın atacağı hər hansı addım qalmır. Çünki siyasi prosedurlar onu diktə edir ki, bir təklifi bir dəfə verərlər və buna da konkret cavab alarlar. Burdan AXCP rəhbərliyinə məsləhət bilərdim ki, şəxsi eqolarıı kənara qoymaq zamanıdır. Ümumi maraqlar nəyi tələb edirsə, onu etmək lazımdır. Kimlərsə ümumi maraqlar naminə şəxsi eqosunu kənara qoymaq cəsarətində deyilsə, gələcəkdə xalqa hesab verməli olacaqlar".

**T.Abbaslı Müsavat başqanı ilə AXCP sədrinin görüşündən sonra bəzi Cəbhə funksionerlərinin işlətdiyi fikirləri siyasi etikadan kənar hesab edir:** "Onların həmin fikirləri çox bəsit, xalqın, demokratiyanın indiki ağır durumunda korporativ maraqları güdən fikirlərdir. Yaranmış situasiyada guya kiçik üstünlüyünü nümayiş etdirmək cəhdidir. Bu, kənardan çirkin görünür. Adama deyərlər, harda üstünsən, nədə üstünsən? Bizim məqsədimiz hakimiyyətə qalib gəlməkdir, məqsədimiz müxalifətə qalib gəlmək deyil. "Bizim lider əlçatmazdır, hamıdan üstündür" kimi fikirlərdən əl çəkmək lazımdır. Təəssüf edirəm ki, AXCP kimi təşkilatın funksionerləri siyasi etikaya, siyasi mədəniyyətə yaraşmayan bəyanatlar verirlər. Bu, nə onların özünə, nə də partiyalarına üstünlük gətirməyəcək. Bu, həm də gələcəkdə ola biləcək əməkdaşlıqları da kölgə altına alır".

**Müsavat Məclisinin üzvü Mustafa Hacıbəyli hesab edir ki, siyasi partiya özünü təcrid xətti seçməməlidir. Bu baxımdan Müsavat başqanının bütün müxalif partiyalarla əməkdaşlıq istiqamətində təşəbbüsləri yüksək qiymətləndirilməlidir. Hər bir siyasi partiya xüsusən seçki ilində əməkdaşlığın müxtəlif formalarını nəzərdən keçirməlidir:** "Çünki biz antidemokratik bir şəraitdə seçkiyə gedirik və siyasi partiyaların ölkədəki vəziyyəti köklü şəkildə dəyişməsinə bu gün üçün gücü çatmır. Ona görə də partiyaların bir sıra məsələlərdə əməkdaşlıq eləməyini çox zəruri sayıram. Müsavat rəhbərliyi də bu zərurətdən irəli gələn addımlar atıb və atır. Müsavat bütün müxalif təşkilatlarla funksional əməkdaşlıq etməyin tərəfdarı olduğunu əvvəldən elan edib. Əgər AXCP özünütəcrid siyasəti yürüdürsə, bu yanlış görsənir. Amma bu, onların öz seçimidir. Digər tərəfdən, "etika xatirinə görüşdü" kimi ifadələrin özü bir az etik səslənmir. Əgər etika xatirinə görüş olubsa, bunu bu formada təqdim eləmək özü qeyri-etik səslənir. Hesab edirəm ki, siyasi partiyaların əməkdaşlığı zərurəti daha ciddi şəkildə büruzə verəcək. Seçki dövründə demokratik mühitin yaradılması istiqamətində əməkdaşlıq olmalıdır, müxalifət birgə aksiyalar keçirməlidir, seçki komissiyalarında müşahidə işini birgə qurmalıdır. Ola bilər ki, Müsavat öz namizədləri ilə, Milli Şura öz namizədləri ilə, başqa partiyalar öz namizədləri seçkilərdə iştirak etsinlər. Mən şəxsən bunun tərəfdarıyam ki, Müsavat seçkilərdə öz namizədləri ilə iştirak etsin. Amma bu, o demək deyil ki, Müsavatın müşahidə missiyası digər partiyaların müşahidəçiləri ilə əməkdaşlıq eləməməlidir. Bu əməkdaşlıq olmalıdır və bunun formaları məhz indi müzakirələr sayəsində ortaya çıxmalıdır.

Mən arzu edərdim ki, AXCP təkbaşına yüz minlərin iştirakı ilə mitinqlər keçirsin, Azadlıq meydanını tutsun, təkbaşına hakimiyyətə gəlsin. Amma təəssüf ki, biz bu arzuların reallaşmasını görmürük. AXCP-nin bu arzuları reallaşdırmağa yetərli gücü olduğu görünmür. Ona görə də AXCP-nin funksionerləri Müsavat başqanı ilə Əli Kərimlinin görüşü məsələsində fikirləri ilk növbədə AXCP-yə xeyir gətirmir. Azərbaycanda aparıcı müxalifət partiyası daim Müsavat olub və bu gün də belədir. Amma ölkədəki şərait elədir ki, Müsavat bütün partiyalarla əməkdaşlıq çərçivəsində real nəticələrə nail olmağı mümkün sayır. Bu zərurəti yəqin ki, cəbhəçilər müəyyən dövrdən sonra qəbul edəcəklər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015



# Almaniyada Azərbaycan rəhbərinə hansı mesajlar verildi?

**Azər RƏŞİDOĞLU**

**Dövlət başçısı İlham Əliyev yanvarın 20-də Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlib. Prezident Bundestaqın deputatları, Almaniya-Azərbaycan Forumunun üzvləri ilə görüşüb, iki ölkə arasındakı siyasi, iqtisadi və digər sahələrdəki hazırkı münasibətlər, eyni zamanda gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.**

Görüşdə həmçinin Dağlıq Qarabağ münaqişəsi barədə fikir mübadiləsi aparılıb. Yanvarın 21-də prezident İlham Əliyev Almaniyanın federal kansleri Angela Merkellə görüşüb. Görüşlər zamanı Azərbaycan və regiondakı vəziyyətin ciddi müzakirə olunduğu bildirilir. Məlumata görə, Azərbaycanda insan haqları sahəsində vəziyyətin pisləşməsi ətrafında müzakirələr də aparılıb.

Vurğulayaq ki, "Human Rights Watch" təşkilatının yaydığı bəyanatda bildirilir ki, Almaniyanın kansleri Angela Merkel Azərbaycan prezidenti İlham Əliyevi çağırmalıdır ki, aparıcı insan haqları müdafiəçiləri, jurnalistləri, hökumətin digər tənqidçilərini azadlığa buraxsın.

Təşkilat bildirir ki, təkcə 2014-cü ildə Azərbaycan hakimiyyəti 30-dan çox hökumət tənqidçisini həbsə atıb. Müstəqil təşkilatların işini məhdudlaşdıran qanunvericilik dəyişiklikləri qəbul olunub. "Human Rights Watch"un Avropa və Orta Asiya üzrə direktoru Hyuc Villiamson deyir: "Kansler bu fürsəti qaçırmamalı, açıq və qapalı görüşlərdə Azərbaycan prezidentini insan haqlarına hücumu dayandırmağa çağırmalıdır. Fəallara qarşı bu ittihamlar siyasi motivlidir. Merkel onların azadlığının təminatına kömək edə bilər".

Dövlət başçısının Almaniyaya səfəri maraqlı dövrə təsadüf etdi. Belə ki, son günlərdə diqqəti cəlb edən hadisələrdən biri də bu oldu ki, Almaniya NATO-ya yeni üzvlərin qəbulu ilə bağlı yeni təkliflərlə çıxış elədi.

Beləliklə, həm MDB-də, həm də onun bir hissəsi olan Cənubi Qafqazda yeni geosiyasi atmosfer hiss olunmaqdadır. Bu tendensiya Azərbaycan diplomatiyasının digər istiqamətlərində necə təzahür edəcək? Son hadisələr də göstərdi ki, Cənubi Qafqazın lider dövlətinin - Azərbaycanın həm təhlükəsizliklə, həm də gələcək inkişaf istiqaməti ilə bağlı çox ciddi problemləri var. Gürcüstan öz problemlərini görür və Rusiyadan uzaqlaşmaq xəttini tutur. Azərbaycan isə hələ də şimal qonşusuna etibar imitasiyası yaradır və onunla yaxşı münasibətlər saxlamağa cəhd göstərir. Digər tərəfdən, Ukrayna və Gürcüstanla ən çox ittifaqda olan da Azərbaycandır. Elə bu səbəbdən, analitiklər daha çox Azərbaycanın hərəkətlərini proqnozlaşdırmağa cəhd edirlər.

Belə bir vəziyyətdə ortaya suallar çıxır: Azərbaycan üçün Almaniya, digər Qərb ölkələri ilə münasibətlər daha önəmlidir, yoxsa Rusiya ilə? Bəlkə enerji dəhlizi üçün daha etibarlı təminatlar axtarmaq vaxtıdır? Fikrimizcə, Azərbaycan da Gürcüstanla birlikdə NATO-ya üzv qəbul olunmağa cəhd etsə, bu təminatlar daha da arta bilərdi. Çünki yalnız NATO bölgədə həqiqi təhlükəsizliyi və sabitliyi təmin etmək iqtidarındadır. Rusiya ilə ittifaq faydalı olsa idi, Baltikyanı ölkələr də buna can atardılar. Şərqi Avropa ölkəsi olan Polşa öz ərazisində Rusiyanın deyil, ABŞ-ın raket hücumundan müdafiə sistemlərini yerləşdirir. Dünyadakı güc balansını və ən effektiv təhlükəsizlik sistemini real qiymətləndirə bilən ölkələr Rusiyaya arxa çevirirlər. MDB çoxdan özünü tükədib. Əməkdaşlıq üçün Qərb daha cəlbedicidir. İstisna deyil ki, Almaniya səfəri ilə dövlət başçısı bunun fərqində olduğunu nümayiş etdirir.

Demokratik inkişaf yolu seçmiş ölkələr artıq Rusiya ilə bir ittifaqda deyillər və ondan uzaqlaşmaq yolunu tutublar. Ən böyük miflərdən biri də budur ki, Rusiya ilə münasibətlər Azərbaycana Qarabağ problemində yardımçı olur. Həqiqətdə belədirmi? BMT-də səsvermə zamanı Rusiya heç bir zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməyib, baxmayaraq ki, sözdə həmişə bunun əksini iddia edib. Üstəlik, Ukraynadakı hadisələr bir daha göstərdi ki, Rusiya MDB ərazisindəki separatçıları müdafiə edir. Nə qədər ki, Rusiyanın bölgədəki təsiri dominant olacaq, ərazisində münaqişə zonaları olan ölkələrin öz ərazi bütövlüyünü təmin etmək, lazım gələrsə, bunun üçün hərbi gücdən istifadə etmək niyyətləri bir arzu olaraq qalacaq.

Bir məsələni də nəzərə almaq lazımdır ki, indi seçim etmək iqtidarında olmayan ölkə seçimin labüd olacağı zaman hansı qərarı verməklərindən asılı olmayaraq gecikə bilər.

Hazırda Qərb bölgədəki vəziyyəti həssaslıqla izləyir. Bu, Rusiyanı birbaşa hərbi güclə hədələməyin bir xəbərçisi hesab edilə bilər. Rusiya bütövlükdə Cənubi Qafqaz və Mərkəzi Asiya üçün, habelə Avropa üçün təhlükədir. İstisna deyil ki, Almaniyada dövlət başçısı ilə bu problemi müzakirə ediblər...

---

**Beynəlxalq İnsan Haqları Təşkilatı olan "Amnesty İnternational" 2010-cu ilin yanvar ayından bu günə qədər 111 ölkədə qeydə alınan insan haqları ilə bağlı hesabat dərc edib. Təşkilat ABŞ, Almaniya, Rusiya, Çin və Avropa ölkələrində qeydə alınan insan haqlarını sərt tənqid edib.**

# Hakimiyyəti tənqid edən beynəlxalq QHT-ni Fəzail Ağamalı niyə dəstəklədi?

## "Amnesty İnternational"ın Obamanı və ABŞ-ı pisləməsinə iqtidar və müxalifətdən fərqli mövqelər

Təşkilat öz hesabatında ABŞ prezidenti Barak Obamanı da tənqid atəşinə tutub. Adıçəkilən təşkilat Barak Obamanın Quantanamo əsir düşərgəsini bağlamasının heç nəyi dəyişmədiyini, sadəcə, görüntü xarakteri daşıdığını qeyd edib. "Amnesty İnternational" təşkilatı Obamanın Quantanamonu bağlayaraq Illonis əyalətində yeni bir Quantanamo yaratdığını vurğulayaraq "məhkumlar üçün dəyişikliyin yalnız məktub kodları olduğunu" bildirib. Qeyd edək ki, hesabatda Çin və Rusiyada hələ də insan haqları müdafiəçilərinə və ölkədə yaşayan azlıqlara qarşı cinayətlərin davam etdiyi öz əksini tapıb.

ABŞ prezidentinin təşkilat tərəfindən hədəfə alınması heç də birmənalı qarşılanmayıb. Çoxları hesab edir ki, məlum hesabat ABŞ-a qarşı olan ölkələr tərəfindən təşkil olunub. Bununla belə, hesabata qarşı çıxanlar olduğu kimi, dəstəkləyənlər də az deyil.

**Müsavat başqanının müavini Elman Fəttah yayılan məlumatın köhnə olduğunu söylədi:** ""Amnesty İnternational" təşkilatı Quantanamo ilə bağlı mütəmadi tənqidi hesabatlar yayıb. Görünür, hökumətə yaxın mətbuat orqanları köhnə hesabatlardan yeni xəbər düzəltməklə Azərbaycan hakimiyyətinin anti-Qərb kampaniyasına dəstək verməyə çalışır. "Qərbdə insan haqları pozulur" mövzusu Putin hakimiyyətinin və bizim iqtidarın "sevimli" məşğuliyyətidir. Ara-sıra Eynulla Fətullayev vasitəsilə "Qərbdə insan haqları pozulur" təbliğatı ilə "sanballı" hesabatlar yayırlar. Bu, "öz gözündə tiri görməyib, başqasının gözündə çöp axtarmaq" misalına bənzəyir. Belə dezinformasiyalarla hakimiyyətin məqsədi özünün anti-Qərb təbliğatına "töhfə" verməkdir".



Fəzail Ağamalı



Xəzər Teyyublu

**İqtidaryönlü deputat Fəzail Ağamalı təşkilatın Barak Obama ilə bağlı hesabatının reallığı əks etdirdiyini bildirdi:** ""Amnesty İnternational" təşkilatının ABŞ və Barak Obama haqqında insan haqlarının qorunması ilə bağlı söylədikləri həqiqəti əks etdirir. ABŞ-da baş verənlər onu göstərdi ki, bu ölkədə insan haqlarının qorunmasına böyük ehtiyac var. İnsan hüquqları ilə bağlı ABŞ-ın verdiyi bəyanatlar nağıla bənzəyir. Orada qaradərili insanlara qarşı törədilmiş vəhşiliklər, onların güllələnməsi bir daha onu göstərir ki, ABŞ-da insan haqları ilə bağlı ciddi problemlər var. ABŞ insan hüquqlarından öz dövlət maraqlarının dünyada qorunması üçün istifadə edir. Bundan istifadə etməkdə davam edir. Başqa dövlətlərin təbii sərvətlərini ələ keçirmək üçün bu metoddan daha çox istifadə edir. İraqa bir bəhanə ilə daxil oldular. Ərəb ölkələrinə diktatorların devrilməsi adı altında müdaxilə etdilər. Hazırda bu ölkələrdə günahsız insanların qanı axıdılmaqda davam edir. Məqsəd həmin ölkələri öz əsarətləri altına almaq, təbii sərvətlərini ələ keçirməkdir. Barak Obamanın vaxtında ABŞ və dünyada insan haqları daha çox tapdalanmağa başladı. Axıdılan günahsız qanlar, mübarizələr, insanların normal yaşaya bilməməsi insan haqlarının pozulması deməkdir. Bütün bunlar Barak Obamanın xarici siyasətidir. Ölkəmizə qarşı da Obama öz qərəzli siyasətini aparmaqdadır. Xüsusilə bu, onun ikinci prezidentliyi dövründə özünü daha açıq şəkildə büruzə verməyə başladı. Con Kerrinin dövlət katibi təyin olunması sübut idi. B.Obamanın ikinci prezidentliyi dövründə dünyada insan haqları görünməmiş dərəcədə pozulub. Bu hər birimizdə böyük təəssüf doğurur".

**KXCP sədrinin müavini Xəzər Teyyublu təşkilatın hesabatının qısqanclıqdan ola biləcəyi ehtimallarının yüksək olduğunu qeyd etdi:** "Hazırda dünya dəyişir. Bunun nəticəsində yeni ideyalar meydana gəlir. ABŞ-ın siyasətinə qısqanc yanaşılmağa başlanılıb. Dünyada baş verən bir sıra hadisələrin Amerika tərəfindən törədildiyi iddia olunur. Ortada olan belə fikirlər bu cür hesabatların meydana çıxmasına səbəb olur. ABŞ üçün lazım olduğu anda demokratiya dəstəklənir, inqilablar müdafiə olunur. B.Obamanın demokratik şəkildə prezident seçildiyi hər kəsə məlumdur. Hesabatdakı fikirlər onların öz şəxsi mülahizələridir. Bununla böyük bir dövlətin rəhbərinə çatdırmaq istəyirlər ki, dünyada insan haqlarından danışırsınız, amma özünüzdə bu cür problemlər var. Böyük dövlətlərin marağından irəli gələ bilər. Bu məsələyə ötəri yanaşıram".

❑ **Cavanşir ABBASLI**

---

# Ayaz Mütəllibovdan ikibaşlı açıqlamalar

## Eks-prezidentin açıqlamalarına sərt münasibət: "Qul doğulanlar qul kimi də ölür..."

**Azərbaycanın eks-prezidenti Ayaz Mütəllibov növbəti dəfə 25 il əvvəl 1990-cı ildə baş verən qanlı yanvar hadisələrindən danışıb. 24.az-a müsahibəsində Mütəllibov mübahisələrə yol açan fikirlər işlədib. O deyib ki, 20 yanvar gecəsi həlak olanlar ölkəmizin layiqli vətəndaşları idilər, amma bəzi məsuliyyətsiz insanların çağırışlarına inanaraq, öz canlarını vətən yolunda əsirgəmədilər:**

"Təəssüf edirəm ki, respublikanın özündə müəyyən qüvvələr vardı ki, Moskva ilə mənasız qarşıdurmada insanların həyatı üçün real təhlükəni nəzərə almadılar. Vətəndaşları piketlərdən uzaqlaşdırmadılar. İş onda idi ki, Dağlıq Qarabağda baş verən hadisələrin azərbaycanlılara psixoloji təsiri o qədər böyük idi ki, güclü təbliğat nəticəsində onları istənilən provokasiyaya çəkə bilərdilər. Bunun səbəblərindən biri erməni separatçılarının Dağlıq Qarabağda etdikləri özbaşınalıqlar və həmin dövrdə ölkə rəhbərliyinin öz nüfuzunu itirməsi idi. Hüquq-mühafizə orqanları demək olar ki, kənara çəkilmişdilər, çoxları, bəzi dövlət məmurları kimi, açıq şəkildə "demokratik" qüvvələrlə əməkdaşlıq edirdilər. Azərbaycanın çoxminli kommunist partiyası da vəziyyəti şəhər və rayonlarda, o cümlədən Bakıda nəzarətdə saxlayan radikal meylli müxalifətin qarşısını ala bilmədilər. 80-ci ilin axırında və 90-cı ilin əvvəllərində baş verən hadisələri Qarabağ faktoru ilə əlaqələndirmək lazımdır. Mərkəzi hökumətin vəzifəli şəxsləri konflikti beşiyində həll etmək əvəzinə susurdular. Azərbaycanda vəziyyətin gərginləşməsində marağı olan qüvvələr bu faktordan istifadə edirdilər və beləliklə, konflikti dəstəklədilər".



Ayaz Mütəllibov

Eks-prezident onu da deyib ki, 1990-cı ilin yanvarında Bakıda AXC və Kreml arasında qan töküldü. O, sonda bildirib ki, 20 Yanvar M.Qorbaçovun apardığı dağıdıcı siyasətin nəticəsi idi və burada heç bir Azərbaycan rəhbərinin günahı yoxdur.

**Ayaz Mütəllibovun bu açıqlamalarına AXC-nin fəallarından olmuş Azadlıq Partiyasının sədri Əhməd Oruc sərt münasibət bildirib. Əhməd Oruc qeyd etdi ki, Ayaz Mütəllibov hələ də Kreml xofundan, Kremlə itaətkarlıqdan xilas ola bilməyib. Ona görə də belə açıqlamalar verib:** "Öz xalqının üzərinə qoşun çağırmış bu adam hadisədən 25 il sonra da nə danışdığını özü də bilmir. Bir tərəfdən layiqli vətəndaş ifadəsi işlədir, o biri tərəfdən şəhid olanların məsuliyyətsiz insanların çağırışı ilə meydana çıxdıqlarını deyir. Bu adamın fikirləri azadlıq uğrunda şəhid olmuş insanların mübarizəsinə kölgə salmaqdır. Mütəllibovun dediyindən belə çıxır ki, işğalçı ordunun qarşısına çıxmaq lazım deyilmiş, çıxanlar isə öz iradələri ilə yox, məsuliyyətsiz adamların iradəsi ilə çıxıbmışlar. Azadlıq uğrunda, vətəninin müstəqilliyi uğrunda, imperiya köləliyindən xilas olmaq uğrunda mübarizə aparan insanlara belə münasibət bəsləyən insana adamın yazığı gəlir ki, doğrudan da qul doğulanlar qul kimi də ölür!"

Əhməd Oruc Ayaz Mütəllibovun "1990-cı ilin yanvarında Bakıda AXC və Kreml arasında qan töküldü" fikrinin isə birbaşa Azərbaycan xalqının, azadlıq uğrunda mübarizəyə qalxmış milyonlarla insanın mübarizəsinin üstündən xətt çəkmək olduğunu, ümumxalq mübarizəsini bir təşkilatla Kremlin arasında mübarizə səviyyəsinə endirmək olduğunu vurğuladı.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015

# Oliqarxların "uzaq, yaşıl ada" oyunu

# Qum adasını "Hafka"dan aldılar - özəl xəbər

## Ziya Məmmədovun keçmiş dostu və ortağı Hafiz Məmmədovu tam bitirirlər; bir vaxtlar onun nəzarətində olan Qum adası iş adamından alınaraq AZAL prezidenti Cahangir Əsgərovun nəzarətinə verilir; bankı, futbol klubu əlindən çıxan "Hafka" neft biznesindən də kənarlaşdırılır

**Azərbaycanda mülkiyyətin yenidən bölüşdürülməsi prosesi davam edir. Söhbət hansısa hüquqi prosedurdan getmir. Sadəcə, vurulan, çıxdaş edilən məmurun, iş adamının vaxtilə malik olduğu mal varlığı digər oliqarxa transfer etdirilir. Bu yazıda növbəti belə bir proses haqda söhbət açacağıq.**

***




Xəzər sahilindəki torpaq sahələri kimi dənizin içindəki adalar da məmur-oliqarxlar arasında bölünüb. Qum adası illərdir ki, nəqliyyat naziri Ziya Məmmədovun şəriki, adı az qala tanınmış müğənni qədər populyar olan iş adamı, "Baglan Group"un sahibi, "Hafka" ləqəbli Hafiz Məmmədovun nəzarətində idi. Redaksiyaya etibarlılığı şübhə doğurmayan mənbənin verdiyi məlumata görə, indi Hafiz Məmmədov "vurulmuş"lar sırasına qoşulduğu üçün onun varidatı da bölüşdürülməyə başlayıb. Aldığımız məlumatda deyilir ki, bir vaxtlar "Hafka"nın istifadəsinə verilmiş Qum adası AZAL prezidenti Cahangir Əsgərovun nəzarətinə keçib. C.Əsgərov adada hökumətin xüsusi iqtisadi zonaların yaradılması planlarını gerçəkləşdirmək öhdəliyi götürüb. Bu proyektin gerçəkləşməsi üçün niyə məhz C.Əsgərovun seçilməsi də onun biznes aparmaq maneralarına bağlı məsələdir.

***

Ötən ilin ortalarından Hafiz Məmmədov biznes və siyasət olimpində mövqelərini itirməyə başlayıb. "Bank of Azərbaijan"ın əlindən alınması ilə başlanan proses bu gün də davam edir. Belə məlumat da var ki, iş adamı neft biznesindəki payından da məhrum olmaq üzrədir. Xatırladaq ki, bir neçə ay əvvəl elə Qum adasında yerləşən və H.Məmmədova məxsus olan "Bahar Enerji Əməliyyat Şirkəti"nin əməkdaşları əməkhaqlarının yubadılması və kütləvi ixtisarlar səbəbindən etiraz aksiyası keçirmişdilər. Həmin vaxt "Yeni Müsavat"ın reportyoru aksiya keçirilən ərazidən reportaj hazırlamışdı. İşçilər onda əməkdaşımıza bildirmişdilər ki, əməkhaqları neçə aydır verilmir, üstəlik də xəbərdarlıq edilmədən ixtisarlar aparılır. Bunun ardınca mediada "Hafka" ilə bağlı bədbin məlumatlar ard-arda yayılmağa başladı. Onun sahibi olduğu Fransanın "Lans" futbol klubu ətrafında da ciddi qalmaqallar başladı. Hətta bir müddət Fransa mətbuatında Hafiz Məmmədov manşetlərdən düşmürdü. "Lans"la bağlı qalmaqal bu futbol klubunun Ziya Məmmədovun oğlu Anar Məmmədov tərəfindən alınması ilə özünün pik nöqtəsinə çatdı. A.Məmmədov "Hafka"dan xəbərsiz onun sahib olduğu əcnəbi futbol komandasını ələ keçirdi. Bundan sonra Məmmədovların keçmiş ortağının adından kifayət qədər sərt tonda bəyanat yayıldı. Hafiz Məmmədov Ziya və Anar Məmmədovları həmin bəyanatda hədələyərək "onlar bu hərəkətlərinə görə cavab verəcəklər" cümləsi işlətdi. Hadisələrin sonrakı inkişafı haqda oxucuların məlumatı olduğundan bu mövzunun üzərində çox dayanmağı lazım bilmirik. Təkcə onu xatırladaq ki, 2015-ci ilin ilk günlərində "Hafka" haqda yayılan xəbər bu oldu ki, o, biznesini Türkiyəyə köçürüb, iş adamı qardaş ölkədə yeni şirkət qurub.

Beləliklə, barəsində əfsanələr dolaşan Hafiz Məmmədov hazırda karyerasının qürub dövrünü yaşayır. Futbol klubu, bankı əlindən çıxdıqdan sonra indi də neft biznesini onun əlindən tamamən alırlar. Mənbəmiz bildirib ki, "Hafka" neftlə əlaqəli kontraktlarını da Cahangir Əsgərova satmalı olub. Artıq Qum adasından "Hafka"ya məxsus neft hasilatında istifadə olunan ağır texnikalar da çıxarılıb. Bu, H.Məmmədovun Azərbaycandan tamamilə qovulması anlamına gəlirmi? Məlumatlı mənbə bu suala "bəli" cavabını verdi.

Onun əmlaklarını, biznes payını alan Cahangir Əsgərov təkcə Azərbaycanın hava məkanına ağalıq etmir. Bakı Hava Limanının yerləşdiyi Binə və bu qəsəbəyə bitişik Şüvəlan zonası da çoxdandır AZAL prezidentinin tam nəzarətindədir. O, vaxtilə Bakı milyonçularından olan Hacınskinin bağ evini də alıb. Sahəsi cəmi 20 sot olan bu bağın ərazisi hazırda genişləndirilib və 2 hektar yarımdır. Cahangir Əsgərovun həmin ərazidə atçılıq stadionu, administrativ bina, şəxsi vertolyot meydançası, həyat yoldaşının parfümeriya istehsalı müəssisəsi, hazır mal anbarı və s. yerləşir. Burada tennis kortunun, üzən yay və qış hovuzlarının, futbol meydançasının, yüz nəfərlik qonaq evinin olduğu da bildirilir. Cahangir Əsgərov havadan yerə enəndə bu ərazini elektromobillə gəzir, bunun üçün bir neçə elektromobilə də sahibdir. Yəni AZAL prezidentinin keçmiş milyonçuların mülklərini alıb özünə şəxsi xüsusi iqtisadi zona yaratması praktikası var. Ona "Hafka"nın əmlaklarının verilməsi də bu baxımdan başa düşüləndir.

❑ E.HÜSEYNOV

# Ölkənin neftdən asılılığı fəlakət həddində...

## Neft Fondunun büdcəsindəki kəsir nə vəd edir; ekspertlər bildirirlər ki, büdcə real və gerçək deyil, həmçinin hökumət gələcək nəsillərin payını da "yeyir"...

**Dövlət Neft Fondunun 2015-ci il büdcəsinin gəlirləri 10 246 611,9 min manat, xərcləri isə 11 813 909,2 min manat məbləğində təsdiq edilib. Ekspertlərin təsdiqlənmiş büdcə ilə bağlı rəyləri müxtəlifdir. İqtisadçı alim Qubad İbadoğlu məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Neft Fondunun büdcəsində neftin qiymətinin bir barel üçün 90 dollardan hesablanması həddindən çox optimist yanaşmadır:**

"Neft Fondunun əməkdaşlıq etdiyi təşkilatların, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun ekspertlərinin proqnozlarına görə, 2015-ci il üçün brend neftin orta qiyməti ən yaxşı halda 55 dollar ətrafında olacaq. Amma Neft Fondunun bu rəqəmləri 90 dollardan götürməsi onu göstərir ki, təsdiq olunmuş büdcəyə il ərzində bir neçə dəfə yenidən baxıla bilər. Neft Fondunun büdcə xərcləmələrində ən böyük paya malik olan məsələlərdən biri dövlət büdcəsinə olan transferdir ki, bununla da fondun büdcəsində bu il kəskin kəsir yarana bilər. Mən arzulayardım ki, daha real büdcə olsun. Büdcə real olanda, xərcləri də real proqnozlaşdırmaq olur. Amma məsələ ondan ibarətdir ki, Neft Fondundan dövlət büdcəsinə transferləri tətbiq edəndə dünya bazarında neftin qiyməti bu qədər ucuz deyildi. Bu, bir daha onu göstərir ki, Azərbaycanda uzunmüddətli dövrdə proqnozlaşdırma yoxdur. Yəni ortamüddətli dövr üçün proqnozlaşdırma işləmir. Əvvəldən xərcləri proqnozlaşdıranda gəlirlər barəsində də araşdırma aparılmalı idi. İndiki halda büdcənin tezliklə dəyişəcəyini proqnozlaşdırıram. Bu büdcə real büdcə deyil, gerçək, sabit büdcə deyil. Hesab edirəm ki, həddindən çox optimist yanaşmadır. Əgər dəyişməsə, çox ciddi, böyük məbləğlərlə, milyardlarla ifadə olunan kəsrə gətirib çıxaracaq".

Ekspert Natiq Cəfərli isə Neft Fondunun büdcəsinin təsdiqlənməsi fonunda iki məsələyə diqqət çəkib: "Neft Fondunun büdcəsi neftin qiymətinin hər barel üçün 90 dollardan hesablanmasına baxmayaraq, 1 milyard 567 milyon manat kəsrlə təsdiqləndi. Yəni fondun xərcləri gəlirlərindən artıq olacaq. Həmçinin 2015-ci ildə Neft Fondunun xam neft satışından əldə etdiyi vəsait *(hər barel 90 dollara hesablanıb)* 9,741 milyard manat olacaq. Fondun 2015-ci ildə tək dövlət büdcəsinə transferi isə 10,388 milyard manat olacaq. Yəni büdcəyə transfert satdığımız neftin dəyərindən 647 milyon manat çox olacaq. Bu iki önəmli fakt hayqıraraq deyir: Hökumət gələcək nəsillərin payını da "yeyir", ölkəmizin neftdən asılılığı fəlakət səviyyəsindədir. Bu hayqırtını hökumət duymaq, eşitmək istəmir, hələ ki tək ümidləri yaxın aylarda neftin qiymətinin qalxmasınadır".

**Ekspert Rövşən Ağayev isə məsələ ətrafında təhlil apararaq qeyd edib ki, hökumət fondun büdcəsinin gəlirlərini hesablayarkən xam neftin qiymətini 90 dollardan götürüb. Gəlirlərin 9 milyard 741,1 milyon manatıNı neft-qaz müqavilələrdən Azərbaycan hökumətinə düşən mənfəət təşkil etməlidir.** "Lakin qiymətləndirmələr göstərir ki, neft-qaz hasilatının indiki səviyyəsi qaldığı tədqirdə, neftin orta illik qiyməti 50-55 dollar intervalında dəyişsə, fondun gəlirləri 5,5-6 milyard manat, 70 dollar ərafında olsa 7,5- 8 milyard manat ətrafında olacaq. Belə görünür ki, hökumət qiymətin aşağı olması riskini nəzərə almayıb. Ola bilsin, neftin bahalaşacağına ümidlər qalır. Ya da ilin 2-ci yarısında bu məsələyə baxmağı planlaşdırırlar. O da ola bilər ki, hökumət cari gəlirlər nə qədər az olursa-olsun, daxil olmayan məbləğin hamısını ehtiyatlardan da olsa götürüb, 2015-ci ilin büdcəsini istənilən halda tam icra etməyi düşünür",- deyə ekspert yazdığı məqaləsində vurğulayıb.



**O, həmçinin bildirib ki, fondun büdcəsi 1 milyard 567,3 milyon manat kəsirlə təsdiqlənib, lakin büdcənin təsdiqi haqda fərmanda nə bu məbləğ kəsir kimi göstərilir, nə də onun hansı mənbə və maliyyə aləti vasitəsilə qapadılacağı göstərilmir.** "Bundan əlavə, qüvvədə olan qanunvericilikdə də fondun büdcəsində kəsirin yaranmasının mümkünlüyü, kəsirin tənzimlənməsi mexanizmləri ümumiyyətlə yoxdur. Məsələn, Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydalarının 5.1.6-cı maddəsində qeyd edilir ki, fondun büdcəsinin icrası zamanı proqnozdan artıq gəlir əldə edildikdə, yaxud xərclərin ixtisarı ilə bağlı gəlir artıqlığı yarandıqda əlavə büdcədə yaranan profisit ehtiyat aktivlərə (investisiya portfelinə) yönəldilir. Amma nə fondun əsasnaməsi, nə də bu qaydalar xərclərin gəlirləri üstələdiyi vəziyyətə hüquqi aydınlıq gətirmir. Ümumiyyətlə, yarandığı dövrdən indiyədək fondun büdcəsində heç vaxt kəsir olmayıb",- deyə R.Ağayev qeyd edib.

Onun fikrincə, fondun 2015-ci il büdcəsindən dövlət büdcəsinə ayrılacaq 10 milyard 388 milyon manat nəzərə alınmazsa, yerdə qalan ən böyük xərc maddələri aşağıdakılardır: Cənub Qaz Dəhlizi layihələrində Azərbaycanın iştirak payının maliyyələşdirilməsinə 997 milyon manat ayrılacaq. Məlumat üçün deyim ki, bu layihələrə 2015-ci il dövlət büdcəsindən də 650 milyon manat ayrılıb. Yəni Cənub Qaz layihələrinə 2015-c ildə icmal büdcədən 1 milyard 643 milyon manat xərclənəcək. İkincisi, Bakı-Tbilisi-Qars dəmir yoluna 111,5 milyon manat ayrılacaq. 2007-2014-cü illərdə 499,4 milyon manat artıq xərclənib. Üçüncüsü, qaçqın və məcburi köçkünlərin məskunlaşdırılması ilə bağlı xərclərə 150 milyon manat ayrılacaq. 2002-2014-cü illərdə həmin məqsədə 1 milyard 756,8 milyon manat ayrılıb. Son 4 ildə ilk dəfədir ki, bu xərclər iki dəfəyədək azaldılır. Dördüncüsü, Samur-Abşeron kanalının yenidən qurulmasına 90 milyon manat sərf olunacaq. 2006-2014-cü illərdə bu layihəyə 1 milyard 150 milyon manat artıq xərclənib. Beşinci məqam isə odur ki, xaricdə təhsilə 44,1 milyon manat ayrılır. 2008-2014-cü illərdə bu layihəyə 121,4 milyon manat artıq xərclənib.

"Ən maraqlı olan budur ki, Dövlət Neft Fondu hökumətin əsas maliyyə fondu olan büdcədən daha böyükdür. 2015-ci ilin dövlət büdcəsinə fondun transfertlər nəzərə alınmasa, gəlirlər baxımından dövlət büdcəsi Dövlət Neft Fondundan 1,1 milyard manat (11 faiz) azdır. 2014-cü ildə hökumət ölkəni ayrı-ayrılıqda hər birinin məbləği 10 milyard manat olan və paralel istifadə elədiyi 2 maliyyə fondu vasitəsilə rahatlıqla idarə elədi. Görək 2015-ci ildə bu fondları belə rahatlıqla xərcləmək mümkün olacaqmı?",- deyə ekspert vurğulayıb.

❑ RÖYA



# "Böyük tarix" fiaskosu...

**Hüseynbala SƏLİMOV**

**Bu bir neçə günün xəbər tünlüyündən bir xəbər də sezildi: Ermənistanda rus əsgərinin bir ailəni qətlə yetirməsi bir neçə gün diqqətdə oldu... Təbii ki, ermənilərdən fərqli olaraq belə xəbərlərdən nəşə duyacaq qədər də səviyyəsiz deyilik.**

Sadəcə, bu xəbər ətrafında baş verən olaylar bizim üçün maraq kəsb etdi. Sözsüz ki, ən birinci məsələ əsgəri buna təhrik səbəblər oldu. Doğrusu, bu, çox qaranlıq məsələdir, bununla bağlı konkret fikir söyləmək çətindir. Burada hər şey ola bilər: rus ordusundakı ağır psixoloji durum, vətəndən kənarda xidmət etməyin məşəqqətləri və hansısa başqa motivlər...

Təbii ki, bunlara məhkəmənin gedişində aydınlıq gətiriləcək. Amma daha çox diqqət çəkən rusiyalı politoloqların və jurnalistlərin məsələyə münasibəti oldu...

İki rəy mənim diqqətimi daha çox çəkdi. İki rus politoloqu, necə deyərlər, erməniləri yıxıb-sürüdülər...

Bundan da həzz almaq halında deyilik. Amma rusların ermənilərə "Quyruq kimi ardımızca sürünürsünüz", "Qaz ala bilmirsinizsə, dəvə peyinini yandırıb qızının!" deməsi müəyyən mənada özündə siyasi isterika əlamətləri təzahür etdirsə də, həm də acı həqiqət idi - mədəni ruslar Ermənistana forpost deyirsə, qeyriləri, fikirlərini ört-basdır etmək istəməyənlər onları "it quyruğu" adlandırır...

Amma məsələ bunda da deyil, adamın kim olduğunu onun özündən yaxşı bilən yoxdur. Bizə isə bu bəyanatlarda tarixi aspektlər daha maraqlı göründü...

Biz azərbaycanlılar illərdir ki, tarixi açıq deyirik və bizə elə gəlir ki, heç kim bizə inanmır. Amma məsələ belədirmi?

Dünya tarix elmi, o cümlədən də rus tarixçiləri ermənilərin yerini çox gözəl bilirlər. Mən tarixçi deyiləm, tarixi polemikalara qoşulmaq, tarixçilərə dərs demək fikrim də yoxdur. Amma düşünürəm ki, akademik tarix elmi aslində ermənilərin cızma-qarasını heç vaxt diqqətə almayıb...

Ermənilərin bizim tanınmış tarixçilərə münasibəti, onlara qarşı açdıqları savaş hamıya yaxşı bəllidir. Amma mənə başqa bir detal da maraqlı görünür. Belə bir sovet tarixçisi olub- İ.Dyakonov. Kifayət qədər tanınmış və sanballı alim...

Hər halda, onun haqqında oxuduqlarım belə deməyə əsas verir, təbii ki, daha doğrusunu və dürüstünü tarixçi alimlər bilir...

Amma maraqlısı odur ki, ermənilər bu adamı da sevmirlərmiş, hətta ona qarşı öz cızmaqaralarında müharibə də açırlarmış...

Bir daha deyim ki, bu detalın əsl təfərrüatları mənə bəlli deyil. Sadəcə, oxuduğumu deyirəm. İ.Dyakonov haqqında onu deyim ki, bəziləri onu hətta L.Qumilyov kimi maraqlı və sanballı mütəxəssis hesab edirlər...

Nə isə. Mən, bir daha deyirəm ki, tarixçi deyiləm və ona görə də səhvə varmaqdan ehtiyat edirəm. Amma mənə elə gəlir ki, bizə narahat olmağa da dəyməz - əsl akademik tarix heç vaxt erməni cızmaqaralarının fərqində olmayıb, onlara əhəmiyyət verməyib...

Yetər ki, biz bunu daim xatırlayaq və bir az sakitləşək. Əsas odur ki, biz özümüz heç vaxt soyuq məntiqi itirməyək... O dəfə də yazmışdım ki, bunlar, yəni ermənilər Qafqaza yad etnosdurlar. Mən bilmirəm, bunlar cəhənnəmin hansı deşiyindən çıxıblar, onu bilirəm ki, buralara yüz-iki yüz il bundan əvvəl köçürülüblər, təbii ki, Rusiyanın əlilə...

Ruslar onların əsl tarixini hamıdan yaxşı bilir və yeri gələndə, ermənilər özlərini unudanda bunu dəyənək kimi onların başına vururlar və zərbələri də çox dəqiq alınır, çünki öz məhsullarıdır...

Bəli, ermənilər bir-iki gün atılıb-düşdülər. Amma sakitləşəcəklər. Bəzi rus dərgiləri də çox nahaq yerə narahat olur ki, hadisə Ermənistanda rusofobiyanı artıra bilər. Artmayacaq, çünki Rusiya Ermənistanın sonuncu sığınacağıdır...

Bəlkə də digər ölkələrin də ermənilərə bir az qahmar çıxmasında "tarixi dəlillər" heç də əhəmiyyətli rol oynamır. Burada başqa motivlər var. Mən indi bunları bir daha sadalamaq niyyətində deyiləm...

Bəzən dini amilləri önə çəkirlər. Təbii ki, tək bu məsələdə deyil, digərlərində də bu amil var. Amma o, həlledici deyil. Əsas səbəb odur ki, bu ermənilər bir çox ölkələrdə ciddi mövqelər tutublar. Bir-iki ay bundan əvvəl bir rus müəllifi bu haqda yazmışdı- onun fikrincə, ermənilər onlarla ölkədə hökumətlərə nəzarət edirlər...

Mən bilmirəm, bu, nə dərəcədə ciddi faktdır. Amma onu bilirəm ki, məsələn, ABŞ siyasətçiləri üçün ermənilər seçkilərdə səs deməkdir...

Biz tarixən öz torpağımıza bağlı olmuşuq. Xaricə bir o qədər də meyl etməmişik. Amma indi hər yerdə Azərbaycan diasporları yaranır. Yetər ki, biz bir qədər səbrli olaq, ən əsası isə iş görə bilək...




# Neftimiz və geostrateji resurslarımız olmasaydı...

## ... Azərbaycanı çoxdan küncə sıxıb çox şeydən məhrum eləmişdilər; Vaşinqton, Paris və Moskva lap əvvəldən Qarabağ məsələsində qərəzsiz mövqe tutmaqda maraqlı olmayıb və hər şeydən göründüyü kimi, indi də maraqlı deyillər

**Bu gün Qarabağ probleminin ədalətli həlli və işğal altındakı ərazilərimizin geri qayıtması şansları daha azdır, nəinki dünən. Taleyin bütün ironiyası ondadır ki, məhz ABŞ, Rusiya və Fransaya sülh işində və ya guya münaqişənin ədalətli həllində baş kuratorluğun həlledici rolu etibar edilib. Halbuki bu ölkələrlə bağlı cəmi bir neçə rəqəmi və faktı yada salmaq kifayətdir ki, anlayasan: belə bir üçlük nə erməni-Azərbaycan, nə də erməni-türk münaqişəsində arbitr rolunda çıxış edə bilməz.**

*(əvvəli ötən sayda)*

### Rusiya

Rusiyanın özündə hardasa 1,2 milyon, yaxud əhalinin ümumi sayının 0,86%-i qədər erməni yaşayır. Onların təqribən yarısı Rusiya Federasiyasının üç obyektində - Krasnodar, Stavropol diyarlarında və Rostov vilayətində məskunlaşıb. 100 mindən çox erməni Moskvada yaşayır. Onların arasında heç də az olmayan sayda Rusiya dövlətinin mühüm siyasi, iqtisadi, informasiya strukturlarına yerləşmiş və bu ölkədəki hadisələrin inkişafına təsir gücündə olan şəxslər var.

Rusiya imperiyası həm çar, həm sovet, həm də postsovet dönəmində özünün bu və ya digər xarici siyasət hədəflərinə çatmaq üçün "erməni kartı"ndan fəal şəkildə istifadə edib. Faktiki surətdə xeyli dərəcədə məhz Moskvanın məqsədyönlü səyləri hesabına Qafqaz regionunda İran və Türkiyədən köçürülmüş ermənilərin çoxsaylı yaşayış məskənləri salınıb.

Qarabağ ermənilərlə bu cür məskunlaşdırılıb. Məhz Rusiyanın səyləri və Avropanın dəstəyi ilə şimali Azərbaycan ərazisində süni erməni respublikası yaradılıb. Və məhz Moskvanın əli ilə genişmiqyaslı müharibəyə, çoxsaylı qurbanlara, qaçqınlar ordusuna və Azərbaycanın torpaqlarının 20%-nin işğalına gətirən Dağlıq Qarabağ problemi oyanılıb. Və məhz Moskva əsrin 1\4-dən çoxdur ki, bu konfliktlə məharətlə manipulyasiya edir.

Bu gün bəziləri sadəlövhcəsinə illüziyalara qapılırlar ki, Kreml işğal olunmuş ərazilərimizin geri qaytarılması və Qarabağ probleminin Azərbaycanın xeyrinə həllində bizə kömək edəcək. Sual yaranır: bunun üçünmü Rusiya əsrlərlə erməniləri bu regionda cəm edib və özünün forpostu qismində erməni dövləti yaradıb?

**"20 Yanvar Moskva tərəfdən daha dəhşətli nonsensdir, nəinki ABŞ-ın rüsvayçı 907-ci düzəlişi və ya Fransanın "soyqırımı" imtinanın kriminallaşdırılması haqda absurd qanunu..."**

Bundan ötrümü Qarabağı ermənilərlə məskunlaşdırıb və vaxtaşırı Ermənistanın özünü köklü azərbaycanlı əhalidən təmizlənməsi üçün köməkliklər göstərib? Bunun üçünmü Kreml not-not "separatçı Qarabağ kartı" oyununu ifa edib və rayonlarımızın işğalına yardımçı olub? Və ya bundan ötrümü Rusiya bütün bu illər ərzində fəal şəkildə Ermənistanı maliyyələşdirib, silahlandırıb, ona hər cür siyasi, diplomatik və informasiya dəstəyi verib? Buna görəmi Moskva Ermənistanı daima qoruyub, himayə edib və faktiki Rusiya quberniyasına çevirib ki, indi onu satsın və hər şeyi yenidən oynasın? Niyə, nə səbəbə?

İki gün öncə Azərbaycan qanlı 20 Yanvar hadisələrinin 25-ci ildönümünü qeyd elədi. Əslində bu, Moskva tərəfdən daha dəhşətli bir nonsensdir, nəinki ABŞ-ın rüsvayçı 907-ci düzəlişi və ya Fransanın "soyqırımı" imtinanı kriminallaşdırılması haqda absurd qanunu. Axı eyni sovet ölkəsi çərçivəsində Kremlə açıq şəkildə erməniləri müdafiə eləmək üçün dinc Bakı üzərinə böyük ordu hissələri tökmüş, yüzlərlə müdafiəsiz vətəndaşımızın qanını axıtmışdı. O vaxtdan Moskvanın siyasətində nə dəyişib ki?

**"Necə ki, Qərb "yəhudi məsələsi"ndən daim müsəlman dünyasına güclü təzyiq etmək və ərəb ölkələrində öz maraqlarını reallaşdırmaq üçün faydalanıb, təxminən eləcə də "erməni məsələsi" və Ermənistan türk dünyasına təzyiq göstərmək üçün əlverişli rıçaqa çevrilib..."**

*****

ABŞ, Rusiya, Fransa - nizamlama prosesini kurasiya etməyə və Qarabağ probleminin dinc, ədalətli həllinə yardımçı olmağa görəvləndirilib. Ancaq məhz bu dövlətlər zaman-zaman dünyanın siyasi gündəmində "erməni faktoru"nu təşviq eləmək üçün maksimum səylər göstərib və həmişə "erməni kartı"ndan, üzdəniraq "genosid" mövzusundan özlərinin geosiyasi oyunlarında fəal şəkildə istifadə ediblər.

Hətta analogiya aparıb belə də demək mümkündür: necə ki, ABŞ, Qərb "yəhudi məsələsi"ndən daim müsəlman dünyasına güclü təzyiq etmək və ərəb ölkələrində öz maraqlarını reallaşdırmaq üçün faydalanıb, təxminən eləcə də "erməni məsələsi" və Ermənistan türk dünyasına təzyiq göstərmək üçün əlverişli rıçaqa çevrilib.

Ayrı nə ilə izah edəsən ki, təcavüzkar, onun qurbanı, işğal faktı və nizamlamanın hüquqi mexanizmləri bunca aydın şəkildə ortada ola-ola Qarabağ konflikti 25 ildir ölü nöqtədən tərpənməyib?! Hələ üstəlik, işğalçı həmişə şirnikləndirilir, işğalın qurbanı isə cəzalandırılır *(20 Yanvar, 907-ci düzəliş, "soyqırım" haqda qanun)*. Qarabağ probleminin həllinə ədalətli və tərəfsiz yanaşmada belə bir şey mümkünmü?

İndi bir anlığa hadisələrin tam ayrı bir gedişini təsəvvür edək: Ermənistanın bir neçə rayonunda azərbaycanlılar separatçı mübarizəyə qalxır və Bakıya müraciətlə tələb edirlər ki, onları öz tərkibinə götürsün və kömək eləsin. Və dərhal Azərbaycan ordusu Ermənistana girir, erməniləri sıxışdırır, azərbaycanlıların kompakt yaşadığı ərazinin ətrafında bir çox rayonları işğal edir, İrəvan da təlaş içində dünya birliyinə səslənir və tezliklə situasiyanı normallaşdırmaqdan ötrü analoji üçlü həmsədrlər formatı *(ABŞ, Rusiya, Fransa)* təsis edilir. Necə düşünürsünüz, Vaşinqton, Moskva və Paris bu halda kimi işğalçı, kimi isə işğalın qurbanı saymaqda və ya kimi şirnikləndirmək, kimi isə cəzalandırmaqda tərəddüd keçirərdilərmi? Və bu durumda danışıqlar prosesi əsrin 1/4-i qədər sürərdimi?

Bizcə, cavab aydındır - Azərbaycan dərhal birbaşa siyasi, hətta hərbi hücuma məruz qalardı. Bir məntiqli sual da var: madam ki, hamı ermənilərin tərəfindədir, bəs niyə indiyədək problem rəsmən Ermənistanın xeyrinə çözülməyib?

Əvvəla, hüquqi əsasların yoxluğu və pis presedent yaratmamaq istəyi ucbatından bunu etmək olduqca çətindir. Başqa yandan, problemin asılı vəziyyətdə qalması dövlətlərə situasiyadan məharətlə istifadə eləmək və "erməni kartı"ndan effektli formada yararlanmaq imkanı yaradır. Nəhayət, bir də həmişə bizi məhv edən bir şey - neft və geosiyasət həmişə də bizi xilas edir.

Axı faktdır ki, belə bir "erməniпərəst" arbitraj durumunda ölkəmiz hər halda Qarabağı qəti olaraq itirməyib, situasiyanı müəyyən qədər dəyişməyi və danışıqlar prosesində balans yaratmağı bacarıb. Bu da xeyli dərəcədə geosiyasi faktorun təsiri və Azərbaycanın energetik önəmi hesabına, həmçinin rəsmi Bakının həmsədr ölkələrdə qarşılıqlı praqmatik maraqların motivasiyasına yönəlik fəal xarici siyasət səylərinin nəticəsində olub. Neftimiz və geostrateji resurslarımız olmasaydı, bizi çoxdan küncə sıxıb çox şeydən məhrum eləmişdilər.

Fəqət, bu geostrateji və praqmatik resurs yekun etibarilə Qarabağ probleminin ədalətli həllinə nail olmaq üçün yetərlidirmi? Bugünkü situasiyaya baxsaq, görərik ki - hələ yox. İş ondadır ki, nə Vaşinqton və Paris, nə də Moskva lap əvvəldən məsələdə qərəzsiz mövqe tutmaqda maraqlı olmayıblar və hər şeydən göründüyü kimi, indi də maraqlı deyillər ki, bu üzücü münaqişənin dinc və ya hərbi yolla çözümündə Azərbaycana kömək eləsinlər. Başqa varianta - hər şeyə və hamıya qarşı gedib də problemi öz gücü ilə yoluna qoymağa isə ölkəmiz belə, görünür, hələlik qadir və hazır deyil. Bəs onda necə olsun?

❑ **Analitik xidmət**

# Prokurorluqdan qəfil bəyanat - "tutulsun..."

**Baş Prokurorluq Elşad Abdullayevin cinayət işi ilə bağlı məlumat yayıb. Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumatda bildirilir ki, fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayev və həmin universitetin vəzifəli şəxsləri tərəfindən yol verilmiş qanunsuzluqlarla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.**



# Hakimiyyət Elşad Abdullayev üçün "düyməyə basdı"

## "Onun tutulması istiqamətində beynəlxalq axtarış tədbirləri həyata keçirilir"; sabiq rektora qarşı başlanan yeni hücum taktikasının arxasındakı gizlinlər

İstintaq zamanı E.Abdullayevin qulluq mövqeyindən sui-istifadə edərək qabaqcadan əlbir olduğu bir qrup şəxslə qanunsuz hərəkətlərə görə ayrı-ayrı şəxslərdən 370 586 manat məbləğində pulu rüşvət almaqla fiziki şəxslərin hüquqlarına və qanuni mənafelərinə, habelə dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasında, həmçinin təkrarən külli miqdarda rüşvət verməyə cəhd etməsində və külli miqdarda vergiləri ödəməkdən yayınmasında şübhələr üçün əsaslar olduğundan, 25 iyun 2014-cü il tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1 (rüşvət alma), 311.3.2, 311.3.3 və 29,312.2 (rüşvət vermə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar qəbul edilib.

Hazırda cinayət işi üzrə universitetin ayrı-ayrı fakültələrinə qanunsuz olaraq tələbələrin köçürülməsi, təhsil aldıqları müddətdə sessiya və yekun dövlət buraxılış imtahanlarından müvəffəqiyyət qiymətlərinin yazılması və onlara ali təhsil haqqında diplomların verilməsində həmin universitetin vəzifəli şəxsləri tərəfindən törədilmiş korrupsiya faktlarının araşdırılması ilə bağlı müvafiq istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan başqa, E.Abdullayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək universitetin nəzdində fəaliyyət göstərmiş Tibb Mərkəzinin vəzifəli şəxslərinə həmin tibb müəssisəsinə insan orqan və ya toxumalarının transplantasiyası ilə bağlı cərrahiyyə əməliyyatlarının keçirilməsinə dair xüsusi razılıq (lisenziya) olmadığı halda, qanunsuz göstəriş verməklə İsrail vətəndaşları ilə əlbir olub cinayət əlaqəsinə girərək "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini kobud surətdə pozaraq, donorlardan qanunsuz olaraq böyrəklərinin götürülüb əcnəbi vətəndaşlar olan resipiyentlərə köçürülməsi ilə bağlı cərrahiyyə əməliyyatlarının keçirilməsinə şərait yaradılmaqla hər bir əməliyyata görə heç bir sənədləşdirmə aparılmadan nağd qaydada külli miqdarda pulun alınıb dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan zərər vurulması faktları ilə bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Cinayət Məcəlləsinin 308.2-ci *(vəzifə səlahiyyətlərdən sui-istifadə)* maddəsi ilə başlanmış cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İş üzrə universitetin və Tibb Mərkəzinin əməkdaşları, cərrahiyyə əməliyyatlarında iştirak etmiş tibb personalı şahid qismində dindirilib, həkim fəaliyyəti ilə bağlı məhkəmə-tibbi, məhkəmə-xətşünaslıq, sənədlərin texniki-kriminalistik ekspertizaları təyin olunaraq rəylər alınıb, E.Abdullayevlə cinayət əlaqəsinə girmiş İsrail və Ukrayna vətəndaşları barəsində eyni cinayət əməllərinə dair Ukraynada həyata keçirilən cinayət təqibi üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əldə olunaraq iş üzrə toplanmış digər sübutlarla birgə qiymətləndirilməklə ittiham üçün əsas verən kifayət qədər sübutlar toplanıldığından, 20 avqust 2013-cü il tarixdə E.Abdullayevin Cinayət Məcəlləsinin 137.3 (insan orqanların və ya toxumalarının qanunsuz alqı-satqısı) və 308.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar qəbul edilib.

E.Abdullayev istintaqdan qaçıb xarici dövlətdə gizləndiyi üçün barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilərək axtarış elan olunmaqla tutulması istiqamətində beynəlxalq axtarış tədbirləri həyata keçirilir.

"Yeni Müsavat" bu bəyanatla bağlı hazırda Fransada yaşayan E.Abdullayevlə əlaqə yaratmağa cəhd etsə də, buna nail ola bilməyib. Sabiq rektorun telefonu bağlı olub, internet vasitəsilə yönləndirilən suallara isə cavab verməyib.

E.Abdullayevin vəkili Adil İsmayılov isə bu işlə bağlı onda hər hansı məlumat olmadığını dedi.

"Yeni Müsavat" isə xatırladır ki, hakimiyyət üçün E. Abdullayev mövzusunun yenidən aktuallıq qazanması təsadüfi deyil. Belə ki, sabiq rektor son günlər yenə də sosial şəbəkədə, habelə media orqanlarına yolladığı müraciətlərdə hakimiyyəti hədəfə alan sərt fikirlər açıqlayır. Azərbaycan iqtidarı isə son dövrlər ona qarşı çıxış edən hər kəslə haqq-hesabı bağlamaq istəyir. Xüsusən 2014-cü ildə bir-birinin ardınca siyasi həbslərdən sonra təxmin etmək olur ki, E.Abdullayev də növbədədir.

**Amma sabiq rektor məlum cinayət işi açılan zaman qəzetimizə açıqlamasında bildirmişdi ki, bu işi saxta, "fabrikovat" olunmuş iş hesab edir:** "ABU müəllimlərinə və tələbələrinə qarşı Avropa Konvensiyasının və AR Konstitusiyasının tələbləri pozulubdur. Hesab edirəm ki, onların bir çoxu öz hüquqlarını qoruma üçün İnsan Haqlarını Mühafizə edən Avropa Məhkəməsinə müraciət edəcəkdir. Yaxşı deyirlər, elnən gələn dərd də selnən çıxar. Başqa bir tərəfdən, mən Bakıdan 5 ildir ki, çıxmışam. Əgər mənə qarşı belə cinayətlər var idisə, elə orada olanda iddia qaldıra bilərdiniz də. Buna qədər də mənim adım heç bir cinayət işində hallanmamışdır. Məlumdur ki, Avropa Məhkəməsinə kim müraciət edirsə, Azərbaycan hakimiyyəti problemi həll etmək əvəzinə, zərərçəkmişləri susdurmaq yolu götürübdür. Hesab edirəm ki, belə cinayət xarakterli saxta "fabrikovat" olunmuş yalan məlumatlar daxili auditoriya üçün hesablanıbdır. Bu isə yanlış addımdır, öz vətəndaşlarını - Xədicə İsmayılova, İntiqam Əliyev, Leyla Yunus, İlqar Əliyev, qardaşım oğlu Mübariz Adullayevi, məni müdafiə edən vəkilim Adil İsmayılovu və siyasi məhbusları saxta yollarla cəzalandırmaq əvəzinə Azərbaycan düşmüş olduğu böhranlı vəziyyətdən yalnız demokratik islahatlar yolu ilə çıxa bilər".

**Mövzu davam etdiriləcək.**

❑ **Sevinc TELMANQIZI**

# Gözübağlı Femidanın körpəsi



**Samir SARI**

**Deyirlər, ölünün dalınca danışmazlar. Düz deyirlər. Çünki ölü özünü müdafiə etmək, barəsində deyilən fikirləri təsdiq, ya da təkzib etmək iqtidarında deyil.**

Ancaq elə rəhmətliklər var ki, sağlıqlarında dirilərin həyatını cəhənnəmə döndəriblər, ona görə də ölümlərindən çox-çox sonralar da adları anılır, təkrarlanır, hallanır.

Sezardan Napoleona, Nerondan Hitlerə, Çingiz xandan Stalinə qədər adları hər gün min dəfələrlə hallandırılan tarixi şəxsiyyətlər var.

Məsələn, bugünlərdə öz ölkəmizdə artıq adının çəkilməsini istəmədiyimiz tarixi şəxsiyyəti xeyli müzakirə etdik, yorulduq.

Hərçənd elə şəxslər də var ki, heç bir tarixi missiyaları olmayıb, on il əvvəl dünyalarını dəyişiblər, ancaq hələ də adları çəkilir.

Elə adamlardan biri də Şəmkir rayonunun sabiq başçısı Aslan Aslanovun mərhum oğlu Ruslandır.

Bu nakam gəncin taleyini bilənlər bilir, bilməyənlər də bilsin ki, onu 2003-cü ildə qız üstə öldürüblər.

Hadisə belə olub: gənclər tanış olublar, bir-birini seviblər və nikahdan əvvəl yaxınlaşıblar, sonra araları dəyib. Qız başqası ilə nişanlanıb. Oğlan isə ondan əl çəkməyib, qızın da, nişanlısının da həyatını qaraldıb, nəticədə məsələ bıçaqla həll edilib.

O vaxt media bu hadisədən çox yazdı. Qətldə iştirak edən Lamiyə adlı qızı qınayanlar və müdafiə edənlər vardı. Qınayanlar deyirdilər, o, vaxtilə sevdiyi gənc oğlanın həyatını puç edib. Müdafiə edənlər də deyirdi, arada namus məsələsi var, yaxşı oğlan almadığı qızın başqasına ərə getməsinə mane olmazdı.

Xalqın maraqlı kəsimi bu məsələni müzakirə etməkdəykən Azərbaycan Femidası qətlin iştirakçılarına ağır cəza kəsdi. Qıza 10 il, onun nişanlısına isə ömürlük cəza verdilər. Halbuki bir adam öldürənə belə cəza vermirlər, üstəlik, ortada namus söhbəti, sataşma, təqibetmə və sair hallar varsa, maksimum cəza 12-13 il olur.

Amma qətl qurbanının qəzəbli atasının, İH başçısının təzyiqi ilə qatillərə ağır cəza kəsdilər. Hələ iş bununla da bitmədi. Hiddətli Aslan Aslanov qətl iştirakçılarının nəslindən yeddi-səkkiz adamı, gənc, qoca, qarı, hamilə qadın deməndən tutdurub içəri saldırdı. Günahsız adamların məruz qaldığı işgəncə, təhqir, zülmün səsi Avropa Şurasına qədər gedib çıxdı, axırda Azərbaycanda insan haqları üzrə həmsədr Andreas Qross məsum insanları buraxdıra bildi. Yoxsa onlar hələ də türmədəydilər.

Budur, Lamiyə cəzasını çəkib qurtarıb, amma hələ də məhbəsdədir. Çünki cəza qurtardıqca yenidən nəsə bir şey təşkil edir, qadına yeni cəzalar verirlər. O da ona görə ki, gənc oğlu öldürülmüş vəzifəli ata and içib ki, onları türmədən salamat çıxmağa qoymayacaq. Adam öz sözünün üstündə bərk dayanıb və bu iş üstə tutulanların türmədə gününün qara olmasının qayğısına layiqincə qalıb. Hərdən onların vəziyyətinin pisləşməsinə dair xəbərlər mediaya da gəlib çıxır.

Bu xüsusda son xəbər bundan ibarətdir ki, 11 ildən artıqdır məhbəsdə olan Lamiyə ana olub. Nişanlısı da qapalı tipli məhbəsdə olduğundan hazırda uşağın atasının kim olduğu barədə geniş müzakirə gedir.

Biri deyir, həmin cəzaçəkmə müəssisəsində kişi nəzarətçilər yoxdur, yalnız rəis və onun müavinləri kişidir *(guya ki, onlar Vatikan rahibi-zaddır və məhbus qadına pis gözlə baxa bilməzlər).* Bir xeyli adam da məhbəsdə doğulan uşağın atasını Lamiyənin öz qohumları, tanışları, yanına gəlib-gedənlər arasında axtarır.

Bir sözlə, araşdırma gedir. Penitensiar Xidmətin rəhbərliyi həyəcanlı şəkildə açıqlamalar yayır, məsələyə Ombudsman Aparatı da, hüquq müdafiəçiləri qarışıb. Hamı uşağın atasını axtarır.

Ancaq bundan ötrü dağa-daşa düşməyə, Şerlok Holms dəvət etməyə ehtiyac yoxdur, Lamiyənin özündən soruşsunlar, əl-əlbət, övladının atasının adını deyəcək.

Əsas məsələ doğulan körpənin atasının kimliyi deyil, ortada qadının köməksiz vəziyyətindən istifadə edərək, zorlama və ya cinsi əlaqəyə vadar etmə vaqiəsinin olub-olmamasıdır.

Bundan daha vacibi isə cəzasını çəkmiş bir qadının vəzifəli şəxsin hikkəsi ilə hələ də məhbəsdə saxlanılması, bunu təmin etmək üçün bəhanələr uydurulmasıdır.

Uzun sözün qısası, bu işə yenidən və hərtərəfli baxılmalıdır. Məhkəmə sistemini, Penitensiar Xidməti bir hikkəli, hiddətli vəzifəli şəxsin oyuncağına çevirmək olmaz.

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015



# Qırmızı vərəqə

Zamin HACI
zaminhaci@gmail.com

**Tanınmış ictimai-siyasi xadim Hikmət Hacızadə mənə bir məktub yazıb. Məktubda İngiltərədə 1998-ci ildə olan qəribə, bir az da məzəli hadisədən bəhs olunurdu. Həmin vaxt orda bir futbol yarışı keçirilirmiş, hakim Melvin Silvestr qəfildən oyunçulardan birini yumruqlamağa başlayıb. Davamlı, güclü zərbələrdən sonra futbolçu yerə uzanıb. Silvestr isə özünə qırmızı vərəqə göstərərək stadionu tərk edib. Sonra hadisənin səbəblərini belə izah edib ki, həmin oyunçu məni bezdirmişdi, dəfələrlə məni itələmişdi, əsəblərim dözmədi. Amma futbol federasiyası təbii ki, Silvestrin öz-özünü cəzalandırmağını yetərli saymayıb, ona pul cəriməsi və uzun müddət hakimlikdən kənarlaşma cəzası verib.**

Mən, əlbəttə, Hikmət bəyin bu faktı niyə mənə göndərdiyini, üstəlik, bundan yazı yazmağımın vacibliyini (məktubda bu da istənilirdi) anlamadım, cavab yazdım ki, futbolla maraqlanmıram. Cavab gəldi: "Axı bu tək futbol məsələsi deyil. Burda ilahi ədalət var, adam özünü cəzalandırıb!". Mən yazdım: "Hikmət bəy, bu fakt bizə qəribə gələ bilər, ancaq özünüz məndən yaxşı bilirsiniz ki, İngiltərədə, o cümlədən inkişaf eləmiş Qərb ölkələrində belə vicdanlı insanlar minlərlə, milyonlarladır". Bundan sonra Hikmət bəyin cavabı həm qoltuğuma yekə bir qarpız verdi, həm də məcbur oldum faktı yazım. Cavab belə idi: "Sən yazandan sonra bizdə də olacaq".

Bəh-bəh... İndi təsəvvür edirəm ingiltərəli hakimin vicdanlı hərəkəti haqda bu yazımı oxuyan minlərlə azərbaycanlı necə özü-özünə qırmızı vərəqə göstərir... Bunların içində yalançı jurnalistlər, saxtakar müəllimlər, cibgir həkimlər, oğru polislər, quldur icra başçıları, harın nazirlər və sairə və ilaxır dəstə-dəstədir... Onlar kütləvi şəkildə ölkənin baş meydanına - altı simvolik şəkildə boşalıb qaraja çevrilən Azadlıq meydanına axışırlar, orda da qərar tutmayıb özlərini dənizə atırlar. Axı günahlar çox böyükdür, vərəqə ilə iş düzəlmir! Daha sonra isə məni gəlib tuturlar: əhalini intihara sövq etmə maddəsi ilə. Bu sizə lazımdırmı, Hikmət bəy? Mənə lazım deyil. İmkan verin, necə deyərlər, kasıbçılığımızı eləyək. Başımızı aşağı salıb dolanaq. Gör nə qədər gözəl deyilib: başını aşağı sal!

Qərb sivilizasiyası bizi anlaya bilməz, necə ki, biz onları anlamırıq. Hərənin öz inkişaf yolu vardır. İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Ərəb sivilizasiyası Firəng sivilizasiyasından daha doğmadır bizə. "Dövlətdə dəvə, övladda nəvə" ata sözü də belənçik yaranmışdır. Ümumiyyətlə, özümüzü niyə yoruruq? Bax, mən qonorar almaq üçün bunu yazıb özümü yoruram, bəs sizin xeyriniz nədir, əziz oxucu? Oxumaq, xüsusən də qəzet oxumaq sizə nə verir? Hərdən bu haqda düşünün. Ölməz Üzeyir bəyin felyetonundakı azərbaycanlı ilə firəngin *(o vaxt camaatımız bütün avropalılara firəng - yəni fransız deyirdi, "frank" sözünün əyiş-üyüşündən qayırmışdılar, bu da maraqlı simvoldur - Z.H.)* söhbəti yadınıza gəlirmi? Orda firəng azərbaycanlının qəzetinin tirajının az olmasına sataşırdı, azərbaycanlı da cavabında deyirdi: "Nə olsun, siz də qurbağa yeyirsiniz!"

Yeri gəlmişkən, Fransada qurbağa yemək hazırda o qədər də ucuz ləzzət sayılmır. Hər kəs yeyə bilmir. Bəlkə Üzeyir bəyin zamanında ucuz imiş? Bəlkə ona yanlış məlumat veriblər?

Yazını isə oxucumuz Elnur Allahverdiyevin çoxdan poçtumda yatan məktubu ilə bitirmək istəyirəm. Kim bilir, bəlkə bunu dərc edən kimi Hikmət bəyin dediyi tərəqqi baş tutacaq: "Sizə bir sualım var. Sizcə, bizim xalq Allahdan çox qorxur, yoxsa YAP hakimiyyətindən? Buna aid yazı yazsanız maraqlı olar. Bu sualı düşünməyimin səbəbi var. Ateistlər tanrını tənqid edirlər, amma hakimiyyətlə işləri yoxdur. Məndə belə fikir formalaşır ki, Allahın təcridxanası olsaydı onun haqqında tənqidi yazılar yazanlar çox az olardı. Yeri gəlmişkən, mən də dinlərə inanmıram".

Məncə, bizim xalq heç kimdən qorxmur, çünki iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

# 20 Yanvar qırğınında ABŞ-ın da əlinin olduğu ortaya çıxdı

## "Bakıya qoşun yeridilməsində ABŞ senatorlarının müraciəti müəyyən ilhamverici rol oynayıb və Qorbaçovu belə bir qanlı addım atmağa ruhlandırıb"

**20 Yanvar qırğının törədilməsində ABŞ-ın da müəyyən qədər təsirinin olduğunu təsdiqləyən sənəd ortaya çıxıb. Hazırkı dövlət katibi Con Kerri də daxil olmaqla, bir qrup senatorun 20 yanvar 1990-cı il ərəfəsində Mixail Qorbaçova ünvanladığı ermənipərəst müraciətin mətni yayılıb. Məlum olub ki, 1990-cı il yanvarın 18-də ABŞ Konqresinin bir qrup üzvü SSRİ rəhbəri Mixail Qorbaçova müraciət edib.**



Con Kerri

APA-nın "Karabakhrecords.info" saytına istinadən verdiyi məlumata görə, amerikalı senatorların müraciətində deyilir ki, son 6 gün ərzində azərbaycanlılardan ibarət qruplar tərəfindən Azərbaycanda erməni əhalinin qətlə yetirilməsi, Bakının erməni əhalisinin əmlakının qarət edilməsindən ciddi narahatlıq ifadə olunur. Bildirilir ki, öldürülən 60 nəfər və yaralanan 156 nəfərin əksəriyyəti ermənidir. Habelə son hadisələr nəticəsində 4000-dək erməni qaçqın vəziyyətinə düşüb.

**Müraciətdə deyilir ki, Azərbaycana göndərilən sovet zabitləri vəziyyəti vətəndaş müharibəsi kimi təsvir ediblər:** "Biz erməni azlıqların qətlinin, o cümlədən bu regionda digər zorakılıq hallarının qarşısının alınması üçün Sizdən bütün zəruri tədbirlərin görülməsini xahiş edirik".

**Politoloq Qabil Hüseynlinin fikrincə, SSRİ rəhbərliyinin Bakıya qoşun yeridilməsi üçün qəbul etdiyi qərarın icrasına ABŞ-dan göndərilmiş həmin müraciətin təsir göstərdiyi şübhəsizdir:** "Düzdür, qərar SSRİ-nin Siyasi Bürosu səviyyəsində qəbul edilmişdi. Amma həmin qərarın icrasında Mixail Qorbaçovda tərəddüdlər var idi. Amerikanın senator və konqresmenlərinin həmin müraciəti bu qərarın icrasını xeyli sürətləndirdi. Həmin dövrdə SSRİ-nin təbliğatı Azərbaycanda guya müsəlman fundamentalizminin baş qaldırdığını, qısa müddətdə Azərbaycanda teokratik müsəlman rejiminin qurula biləcəyini təbliğ edirdi. Bütün bu təbliğatların əsaslı olub-olmadığını ABŞ kəşfiyyatı dəqiqləşdirmədən Vaşinqton bu təbliğata inanmağa başlamışdı. Üstəlik də erməni lobbisi ABŞ-da Azərbaycana qarşı təbliğat aparırdı ki, guya Bakıda, Qarabağda müsəlmanlar erməni əhalini qırırlar. Təəssüf ki, ABŞ o zaman bu təbliğatın da təsiri altına düşmüşdü. Adıçəkilən senatorların Mixail Qorbaçova müraciətində bu təbliğatın öz sözünü dediyi açıq görünür. Müraciətdə Azərbaycanın Ermənistanı da blokadaya aldığı qeyd olunur ki, bu da tamamilə əsassız fikirlərdir. Müraciətdə açıq şəkildə bildirilir ki, SSRİ rəhbərliyi Bakıda, Qarabağda guya ermənilərə qarşı həyata keçirilən təzyiqləri, qətlləri durdurmaq üçün ciddi tədbirlər görməlidir. Mixail Qorbaçov ABŞ-dan edilən bu müraciətdən sonra arxayınlaşdı, tərəddüdləri aradan qalxdı və Bakıya qoşun yeritmək göstərişini verdi. Beləliklə, aydınlaşır ki, 20 yanvarda Bakıya qoşun yeridilməsində ABŞ senatorlarının müraciəti müəyyən ilhamverici rol oynayıb və Qorbaçovu belə bir qanlı addım atmağa ruhlandırıb".



**Q.Hüseynli onu da bildirdi ki, 20 Yanvarla bağlı aparılmış istintaq da sonradan sübut etdi ki, Azərbaycanda heç bir müsəlman fundamentalizmi, əlində silah mübarizə aparan yoxdur. Mübarizə dinc xalqın milli azadlıq mübarizəsidir:** "ABŞ-ın heç bir əsas olmadan SSRİ və erməni təbliğatına inandığı da sübuta yetdi. Xəlil Rza kimi xalq şairini həbs etdilər. Sonra gördülər ki, onun şeirlərindən başqa silahı yoxdur. Etibar Məmmədov, Nemət Pənahlı da həbs edildilər. İstintaq zamanı sübut edildi ki, onlar da sırf dinc siyasi mübarizə aparan milli adamlardır, onların İslam fundamentalizmi ilə heç bir əlaqəsi yox idi. Amerika senatorlarının da həmin müraciətinin həm ABŞ üçün, həm Con Kerri və digər məktub müəllifləri üçün başucalığı gətirən addım olmadığı sübuta yetib. Dünyanın bir nömrəli dövlətinin həmin dövrdə nə dərəcədə səriştəsizlik etdiyi bəlli oldu".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycandakı vəziyyət AŞ PA-nın gündəliyinə salındı

## Avropada mətbuat azadlığı haqqında qətnamə layihəsində Xədicə İsmayılın adı da var; sənədin hazırlanmasında ermənilər niyə iştirak edib?

**Yanvarın 26-da Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası başlayacaq. AŞ PA-nın mətbuat xidmətindən verilən xəbərə görə, sessiyanın açılışında Avropa Komissiyasının prezidenti Jan Klod Yunker və İrlandiya prezidenti Mikael Higensin sessiya iştirakçılarına müraciət edəcəklər. Daha sonra Ukraynada humanitar vəziyyət, Avropada media azadlığının qorunması əsas müzakirə mövzusu olacaq. Eləcə də sessiyada Avropada qeyri-tolerantlıq və diskriminasiya mövzularına toxunulacaq, bərabərlik və böhran kollektiv sövdələşmə və tətil hüququ barəsində fikir mübadilələri aparılacaq.**

Yanvarın 30-dək davam edəcək sessiyada Avropa Şurasının baş katibi Torbyörn Yaqland, hazırda Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edən Belçikanın xarici işlər naziri Didie Reyndersin çıxışları nəzərdə tutulub.



Qış sessiyasında Azərbaycanda da maraqla gözlənilən Avropada mətbuat azadlığı haqqında qətnamə layihəsi müzakirəyə çıxarılacaq. Sənədin layihəsi artıq AŞ PA-nın saytında dərc edilib. "Turan"ın məlumatına görə, sənəddə deyilir ki, bəzi Avropa ölkələrində söz və KİV azadlığının boğulması ilə bağlı ciddi hallar baş verir. Qətlə yetirilən mətbuat işçiləri arasında azərbaycanlı jurnalistlər Elmar Hüseynov və Rafiq Tağının, həmçinin Anna Politkovskaya, Pavel Xlebnikov, Georgi Qonqadze və Qrant Dinkin də adları sadalanır. Həmçinin Azərbaycanda həbs olunmuş Azadlıq-Radiosunun əməkdaşı Xədicə İsmayılın da işindən danışılır. Qətnamədə rəsmi Bakı həbsdə olan jurnalistlərin dərhal azad edilməsinə, onlara qarşı təqiblərə son qoyulmasına çağırılır. Maraqlıdır ki, layihə AŞ PA üzvlərindən ibarət qrup tərəfindən hazırlanıb ki, bura erməni nümayəndə heyətinin (?-red.) üzvləri də daxildir. Azərbaycandakı vəziyyətin müzakirəsi təqdir edilsə də, sənədin hazırlanmasında Azərbaycana düşmən olan bir ölkənin təmsilçilərinin iştirakı haqlı suallar doğurur və AŞ PA-nın obyektivliyinə şübhələrə yol açır...

Sessiyada Azərbaycanı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, təşkilatda daimi nümayəndə heyətimizin rəhbəri Səməd Seyidovun başçılıq etdiyi deputat qrupu təmsil edəcək. Nümayəndə heyətinin tərkibinə deputatlardan Əli Hüseynli, Elxan Süleymanov, Rafael Hüseynov, Qənirə Paşayeva, Sabir Hacıyev, Rövşən Rzayev, Aydın Abbasov, Sevinc Fətəliyeva, Sahibə Qafarova və Fazil Mustafa daxildir.

Öz növbəsində Azərbaycan tərəfi "Kəlbəcər girovları"- Dilqəm Əsgərov və Şahbaz Quliyevin işini AŞ PA-nın müzakirəsinə çıxarmaq niyyətindədir. Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bununla bağlı Avropa Şurasına etiraz məktubunun göndərildiyini deyib. S.Seyidov bir neçə gün əvvəl verdiyi açıqlamada qeyd edib ki, ümumiyyətlə, Dağlıq Qarabağ məsələsi ilə bağlı sessiya çərçivəsində komitələrin iclası zamanı qaldırılacaq müzakirə zamanı azərbaycanlı girovlara çıxarılan "hökm" də müzakirə olunacaq. Onun sözlərinə görə, separatçı rejimin beynəlxalq ictimaiyyətin gözü qarşısında oynadığı bu "məhkəmə" şousuna və onun çıxardığı "hökm"ə üzv ölkələrin iradlarının bildirilməsi, buna buna ciddi reaksiya verilməsi tələb olunacaq: **"Biz həmişə olduğu kimi, tam ciddiyyətlə bu məsələ ilə də bağlı konkret faktlar əsasında tələbimizi ortaya qoyacağıq. Amma əsas odur ki, əməkdaşlıq etdiyimiz bu beynəlxalq təşkilat buna ikili standartla yox, həqiqi gözlə baxsın".**

❑ **Xəbər xidməti**

# İlham Əliyev Almaniyada mühüm mesajlar verdi

## Prezidentlərin görüşündən sonra Angela Merkel səmərəli müzakirələr apardıqlarını bildirib; "Azərbaycan Avropanın, həmçinin Almaniyanın enerji təhlükəsizliyində böyük rol oynayır"

**Prezident İlham Əliyev yanvarın 20-də Almaniyaya işgüzar səfərə yollanıb. Rəsmi Bakının təbliğatında Avropa təsisatlarının tənqidlərinə kəskin reaksiyalar ifadə olunduğu bir zamanda Azərbaycan prezidentinin Almaniyaya səfər etməsi diqqət çəkir və müxtəlif prizmadan qiymətləndirilir.**

Yayılan rəsmi məlumatlarda dövlət başçısının Almaniya XİN-in rəhbəri Frank-Valter Ştaynmayerlə görüşdüyü bildirilir. Məlumata görə, söhbət zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin hazırkı durumu və perspektivləri, həmçinin Qarabağ münaqişəsi müzakirə olunub. Prezident Almaniyaya işgüzar səfəri çərçivəsində Bundestaqın deputatları və Almaniya-Azərbaycan Forumunun üzvləri ilə də görüşüb. Görüşdə Azərbaycanla Almaniya arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulanıb. Bu forumla Azərbaycanla Almaniya arasında uzun illər səmərəli əməkdaşlığın olduğu, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün fikir mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd edilib.

Məlumata görə, Almaniya səfərində Azərbaycanda insan hüquqları məsələsi diqqət mərkəzində də olub. Bu arada "Hüquqlar üçün İdman" beynəlxalq QHT koalisiyası Azərbaycan prezidenti İlham Əliyevlə görüşəcək Almaniya kansleri Angela Merkele müraciət edib. "Turan"ın məlumatına görə, sənəddə A.Merkelin insan hüquqlarını Azərbaycan prezidenti İlham Əliyevlə görüşünün əsas mövzularından biri etməsi tövsiyə olunur. "Son illərdə Azərbaycanda siyasi fəaliyyət, vətəndaş cəmiyyəti və jurnalistika üçün məkan tədricən məhdudlaşdırılıb. Xüsusən son altı ayda biz sərt və misli görünməmiş repressiyanın, onlarla vətəndaş cəmiyyəti fəalı və jurnalistin cəza çəkməsinin və ya barələrində hökm çıxarılmasının şahidi olmuşuq. Ölkənin ən tanınmış araşdırmaçı jurnalisti və bir çox aparıcı hüquq müdafiəçisi hökumət siyasətini tənqid etdikləri üçün cəzalandırılaraq həbs olunublar. Fundamental hüquq və azadlıqların kriminallaşdırılmasını əsaslandırmaq üçün "vergidən yayınma" kimi saxta ittihamlardan istifadə olunur" deyə, müraciətdə qeyd edilir.

Almaniyada işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev bu ölkənin federal kansleri Angela Merkellə görüşüb. APA-nın prezidentin səfərini izləyən müxbirinin verdiyi məlumata görə, görüşdən sonra keçirilən mətbuat konfransında **Angela Merkel** səmərəli müzakirələr apardıqlarını bildirib. O deyib ki, Azərbaycan Avropanın, həmçinin Almaniyanın enerji təhlükəsizliyində böyük rol oynayır: "Biz bunu yüksək qiymətləndiririk. Biz Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyirik".

**Merkel bildirib ki, Azərbaycan prezidenti ilə bir çox məsələlər ətrafında fikir mübadiləsi aparıblar, geosiyasi vəziyyəti müzakirə ediblər:** "Biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışdıq. Avropa Şurasının, Avropa İttifaqının bu məsələdə töhfə verə biləcəyini müzakirə etdik. Dağlıq Qarabağ münaqişəsi yalnız sülh yolu ilə həll oluna bilər".

Almaniya kansleri görüşdə Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığını davam etdirməsi, Şərq Tərəfdaşlığı çərçivəsində münasibətlərin genişləndirilməsi barədə də müzakirələr apardıqlarını qeyd edib.

**"Biz bütün ölkələrin, o cümlədən Ukraynanın ərazi bütövlüyünü tanıyırıq". Bunu isə prezident İlham Əliyev Almaniyanın federal kansleri Angela Merkellə görüşdən sonra keçirilən birgə brifinqdə deyib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan BMT Baş Assambleyasında keçirilən səsvermədə də Ukraynanın ərazi bütövlüyünü açıq şəkildə dəstəkləyib:** "Biz hesab edirik ki, bu, beynəlxalq hüququn əsas prinsipidir. Ölkələrin ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Əgər pozulubsa, əlbəttə ki, bərpa olunmalıdır".

"Mənim reytinqimdə heç bir problem yoxdur. Azərbaycanda keçirilən sorğulara görə, reytinqim 90 faizə yaxındır. Bu da son illər ərzində Azərbaycanda aparılan islahatlarla bağlıdır"- deyə, prezident bildirib.

**Prezident deyib ki, Azərbaycan son 11 ildə iqtisadi cəhətdən dünyanın ən sürətlə inkişaf edən ölkəsi olub:** "İqtisadiyyat 3 dəfə-



### Fəzail Ağamalı: "Müraciətin Merkel-Əliyev münasibətlərində hər hansı bir soyuqluq yaradacağını qətiyyən güman etmirəm"

dən çox artıb, işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görüb. Belə nəticələrlə, əlbəttə ki, hər bir rəhbərin reytinqi yüksək olmalıdır".

**O qeyd edib ki, Azərbaycanda bütün azadlıqlar, o cümlədən söz və sərbəst toplaşma azadlıqları təmin edilib:** "Azərbaycanda yüzlərlə mətbu orqan var, senzura yoxdur, internetə çıxış sərbəstdir. İnternet istifadəçilərinin sayı 72 faizə yaxındır. Eyni mənzərə sərbəst toplaşma azadlığına da şamil edilə bilər. Müxtəlif siyasi partiyalar mütəmadi olaraq aksiyalar keçirirlər. Bütövlükdə Azərbaycanda son illər demokratiyanın inkişafı istiqamətində böyük addımlar atılıb. Çünki biz inanırıq ki, siyasi islahatlar iqtisadi islahatlarla paralel aparılmalıdır. Yalnız o halda bu islahatların dayanıqlılığı təmin oluna bilər".

**Prezident deyib ki, Azərbaycanda dini zəmində də heç bir qarşıdurma yoxdur:** "Biz ümumbəşəri dəyərlərə sadiqik və onları qoruyuruq".

**Politoloq Ərəstun Oruclu Merkelə ünvanlanan müraciətlə bağlı müzakirələri istisna etmir:** "Təbii ki, istər-istəməz o məsələlər qaldırılacaq. Yəni onun üstündən keçmək mümkün olmayacaq". **Politoloq ABŞ-la gərgin münasibətlərin fonunda aparıcı Avropa dövlətinə səfər barədə danışarkən qeyd etdi ki, indiki vəziyyətdə Qərbə vahid siyasi məkan kimi baxmaq lazımdır:** "Rusiya məsələsinə münasibətdə də gördük ki, Qərbdə fikir ayrılığı yoxdur. Fikir ayrılığı olsa belə, son qərarlarda vahid mövqe nümayiş olunub. Düşünürəm ki, Azərbaycana münasibətdə də eyni mövqe var".

**AVP sədri, deputat Fəzail Ağamalı isə səfərlə bağlı yüksək fikirdədir:** "Prezidentin Almaniya səfəri bir daha sübut etdi ki, Azərbaycanın Avropa İttifaqı ilə hər hansı problemi yoxdur. Nəzərə alsaq ki, Almaniya Avropa İttifaqında önəmli ölkədir, bu mənada Azərbaycan prezidentinin bu ölkəyə səfəri, əlbəttə, təkcə Almaniya səfəri kimi deyil, həm də Avropa İttifaqına səfəri, ona olan münasibətin ifadəsi kimi qiymətləndirilməlidir. Avropa bu gün Azərbaycanın enerjidaşıyıcıları, xüsusilə qazla təminatında, onun enerji təhlükəsizliyində oynadığı rolun fərqindədir". **Deputata görə, bu baxımdan Azərbaycanın yeri və rolu yüksək qiymətləndirilir:** "Azərbaycanın bir partnyor olaraq Avropa ölkələri ilə əməkdaşlığında üzərinə götürmüş olduğu vəzifələri qeyd-şərtsiz yerinə yetirməsi heç şübhəsiz ki, onu dünyada, eyni zamanda Avropa ölkələri arasında öhdəliklərinə sadiq olan ölkə imicini qazandırıb. Bu gün Ağ Ev Administrasiyasının ermənipərəst dairələrindən fərqli olaraq Avropa ilə Azərbaycan arasında münasibətlərdə hər hansı problem yoxdur. Bunu ölkə prezidentinin həm Avropa ölkələrinə səfəri, həm Avropa ölkələri rəhbərlərinin Azərbaycana ardıcıl səfərləri Avropa İttifaqının yüksək çinli rəhbərləri ilə yüksək səviyyəli işgüzar münasibətləri də sübut edir".

**F.Ağamalı Avropadakı bir sıra QHT-lərin Merkelə ünvanladığı müraciət haqda da rəyini bildirdi:** "Həmin QHT-lər Leyla Yunusla bağlı təşkilatlardır. Əsasən anti-Azərbaycan mövqeyi tutan bu təşkilatların sıx alyansı mövcuddur və bu şəkildə fəaliyyət göstərirlər, vahid mərkəzdən idarə olunurlar, eyni mənbədən qidalanır, maliyyələşirlər. Bunlar bizə bəllidir. Ona görə də həmin təşkilatların Merkelə müraciətinin Merkel-Əliyev münasibətlərində hər hansı bir soyuqluq yaradacağını qətiyyən güman etmirəm. Ola bilsin ki, Merkel həmin müraciətlərə hansısa bir səviyyədə münasibətini ifadə edə bilər və bu məsələ cənab prezidentin diqqətinə çatdırıla bilər. Ancaq epizodik bir müzakirədən o tərəfə keçə bilməz. Çünki dövlətlərarası münasibətlər önəmlidir, nəinki QHT-lərin həqiqəti əks etdirməyən dosyeləri və ya şikayətləri".

❑ **E.PAŞASOY**

# Erməni məsələsi Türkiyə hakimiyyətini "bölüb"



## Davudoğlunun müraciəti hara, Ərdoğanın vədləri hara...

**Türkiyə hökuməti "erməni məsələsi" ilə bağlı növbəti addımı atıb. Baş nazir Əhməd Davudoğlu İstanbulda erməni dilində nəşr olunan "Agos" qəzetinin baş redaktoru Qrant Dinkin öldürülməsinin 8-ci ildönümü ilə əlaqədar açıqlama verib. Ə.Davudoğlu erməni dili də daxil olmaqla, 8 dildə yayılan müraciətində erməniləri düşmənçilikdən imtina etməyə çağırıb.**

Baş nazir Q. Dinki "türklər və ermənilərin ortaq gələcəklərini inşa etməyin yollarını arayan dəyərli bir Anadolu ziyalısı" adlandırıb. Ə. Davudoğlu türk-erməni dostluğuna inanan hər kəsi yeni bir başlanğıca dəvət edib və bütün ermənilərə səslənərək düşmənçiliyi aradan qaldırmağa çağırıb. Eyni zamanda baş nazir erməniləri problemi "öz aralarında müzakirə edə biləcəklərini" və həll yollarını da yalnız birlikdə axtarmağa çağırıb. "Bu anlayışla erməni dostlarımızı Türkiyəni daha çox ziyarət edərək qarşılıqlı etimadsızlığı aradan qaldırmağa dəvət edirik" deyə, baş nazir bildirib.

Bu açıqlamada diqqətçəkən məqam ötən həftə baş verənlər, daha dəqiqi, prezident Ərdoğanın mövqeyi ilə müəyyən mənada ziddiyyət təşkil etməsidir. Məsələ burasındadır ki, ötən həftə Azərbaycan prezidentinin Türkiyəyə rəsmi səfəri zamanı erməni məsələsi ilə bağlı açıqlamalardan belə məlum olurdu ki, hər iki ölkə erməni məsələsində ortaq mövqedən çıxış edir.

İndi belə təəssürat yaranır ki, Türkiyə baş naziri ilə prezident arasında erməni məsələsində fərqli mövqe var. Türkiyənin baş nazirinin təklif etdiyi "barışığa" Azərbaycanın münasibəti necə olacaq? Ümumiyyətlə, belə bir barışıq olarsa Azərbaycan bu prosesin hansı hissəsində olacaq? Qarabağ münaqişəsinin taleyi necə olacaq?

**Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Rusiya üzrə eksperti, Ankara Universitetinin doktorantı Orxan Qafarlı deyir ki, Türkiyənin xarici siyasətində erməni məsələsində ciddi fikir ayrılığı var. Ekspertin sözlərinə görə, baş nazirin dedikləri Ərdoğanın İlham Əliyevlə birgə açıqladığı 24 aprel siyasəti ilə uyğun gəlmir:** "Maraqlıdır ki, İlham Əliyevlə Ərdoğan arasında əldə edilən razılaşmadan bir həftə öncə Türkiyənin XİN-də səfirliklərlə keçirdiyi görüşdə Davudoğlu "Adil yaddaş" layihəsi çərçivəsində "Ani diplomatiyası" planını açıqlayıb. Bu proqrama görə, Türkiyənin Ermənistan sərhədlərinə yaxın olan Ani şəhəri bərpa olunacaq və xalq diplomatiyası keçiriləcək. Layihə çərçivəsində ermənilər üçün böyük əhəmiyyət daşıyan Ani antik şəhəri başda olmaq üzrə, mədəni varlıqlar və müqəddəs məkanlar bərpa ediləcək. Mədəniyyət və Turizm Nazirliyinin koordinasiyasında reallaşdırılacaq layihə diplomatlar, alimlər, tarixçilər, mədəniyyət insanları və siyasi xadimlərin ibarət bir katiblik tərəfindən həyata keçiriləcək. Qısa, orta və uzun müddətli proseslərdən ibarət "Ani Diplomatiyası" layihəsində, milli və beynəlxalq QHT-lərdən da dəstək alınacaq. Proqrama qatılacaq türk və erməni gənclərə 1915 hadisələri ilə bağlı tarixi həqiqətlər sənədlərə əsaslanaraq təqdim olunacaq. Türk və erməni gənclərinin atacağı addımlar və mədəniyyətlərarası dialoqla yumşaldılacaq.

İndi təsəvvür edin, Davudoğlunun bütün bu planları alt-üst oldu. 24 apreldə Çanaqqalada qələbə günü qeyd edildikdən sonra Ermənistan rəhbərliyi heç bir halda Türkiyənin "xalq diplomatiyası" layihəsinə imkan verməyəcək. Ermənistan hökuməti Davudoğlunun bu layihələrini bir imitasiya olaraq görəcək".

**O.Qafarlı deyir ki, Davudoğlunun diplomatik cəhdinin əsas məqsədi "iki xalqın tarixi reallıqla üzləşməsini" təmin etmək və iki xalq arasında dialoqu üçüncü tərəfin iştirakı olmadan birbaşa həyata keçirməkdir. Ekspert deyir ki, belə bir təcrübə kürdlərlə olub və uğurla nəticələnib. Bu səbəbdən də O.Qafarlıya görə, indi Ankara birbaşa ermənilərlə danışıqları başlatmağa çalışır:** "Türkiyənin erməni diasporu və Ermənistan dövləti ilə başlamaq istədiyi diplomatik cəhdlərin birbaşa olmasa da, dolayı yolla Azərbaycanla bağlılığı vardır. Belə ki, Azərbaycan Türkiyənin Ermənistan dövləti ilə başladacağı hər hansı müsbət diplomatik cəhdlərin dolayı yolla onun Ermənistan strategiyasına təsir edəcəyini düşünür. Rəsmi Bakı Türkiyənin erməni məsələsinə yanaşmasını bölüşmədiyini 2009-ci ildən açıq ifadə edir. Azərbaycan xarici siyasəti strategiyası ermənilərin Dağlıq Qarabağ və ətrafından yeddi rayonla bağlı hər hansı güzəştə getmədən yaxınlaşmasına qarşı çıxır".

**O.Qafarlı deyir ki, rəsmi Bakı Türkiyə ilə Ermənistan arasında yaşana biləcək mülayimləşmənin zərərli olduğunu düşünür. Bu səbəbdən də Ankara növbəti dəfə soyuqluq yaranmaması üçün Azərbaycanın onun maraqlarını nəzərə alaraq siyasətini tarazlamağa çalışır:** "Ankara sərhədləri Azərbaycanın Dağlıq Qarabağ ətrafında olan yeddi rayonunu boşaltmayacağı təqdirdə açmayacağını açıq şəkildə ifadə edir. Lakin bunun heç də erməni cəmiyyəti ilə hər hansı yaxınlaşmanın olmayacağı anlamına gəlmədiyini də görürük. Türkiyə Ermənistanla uzunmüddətli dialoqun yaradılması üçün və 24 aprel 2015-ci ilə, erməni diasporunun dünyada başlada biləcəyi təzyiqi yüngülləşdirmək üçün fərqli diplomatik cəhd edir. Bunun üçün erməni cəmiyyəti ilə birbaşa dialoqun təmin edilməsi üçün 2015-ci ildə sərhədlərin açılmaması şərtilə diplomatik əlaqələrin formalaşması mümkündür. Türkiyə hökumətinin Ermənistanla danışıqlara üçüncü tərəf olmadan başlaması əhəmiyyətli diplomatik cəhd olacaq. Eyni zamanda Ermənistanın regional layihələrdən kənarda qalmaması üçün addımlar atacağı gözlənilir. Bakı-Tiflis-Qars dəmiryolu layihəsinin Türkiyə hissəsinin tamamlanması Ermənistan tərəfinə əhəmiyyətli siyasi mesajdır".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015

## Moskvada 20 milyon dollar nağd pulla yaxalanan 3 Azərbaycan vətəndaşı kimdir...



**Türkiyə parlamentində müxalifətdə olan Cümhuriyyət Xalq Partiyasından (CHP) millət vəkili Əli Özgündüz rüşvət və korrupsiya ittihamı ilə barəsində təhqiqat aparılan 4 keçmiş nazirin işinə dair müzakirələrdə Moskva aeroportunda on milyonlarla dollar nağd pulla saxlanılmış azərbaycanlılar haqda sual verib.**

Virtualaz.org saytı Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, millət vəkili 2013-cü ilin 17 dekabrında keçirilən və Türkiyədə ciddi siyasi gərginliyə, o vaxtkı baş nazir Rəcəb Tayyib Ərdoğanla Fətullah Gülən camaatı arasında qarşıdurmanın açıq müstəviyə keçməsinə səbəb olan həbslər zamanı korrupsiya ittihamları ilə üzləşmiş nazirlərin işinə dair dosyedən çıxış edərək bu sualı verib.

Ə.Özgündüz həmin rüşvət və korrupsiya həbslərinin "paralel dövlət"in AKP hakimiyyətini devirmək üçün qurduğu planın bir hissəsi olması barədə hakimiyyət nümayəndələrinin arqumentlərini tənqid edərək deyib: "İstanbuldan Moskvaya gedən təyyarədə 3-ü Azərbaycan, 1-i İran vətəndaşı olmaqla 4 şəxsin əl çantalarından və çuvallarından 14,5 milyon dollar, 4 milyon avro nağd pul ələ keçirilib. Rusiya hüquq-mühafizə orqanları bununla bağlı araşdırma başladır, İnterpol vasitəsilə Türkiyə tərəfini xəbərdar edir, bizim polisi xəbərdar edir. O zaman sual yaranır: Rusiya polisi "paralelçi"dir, Putin "paralelçidir" və sizi devirmək istəyir?"

CHP millət vəkilinin çıxışından məlum olur ki, həmin şəxslər 14,5 milyon dollar və 4 milyon avro (cəmi 20 milyon dollara yaxın) nağd pulla Moskva aeroportunda 2010-cu ildə saxlanılıblar.

Digər təfərrüatlar məlum olmasa da ehtimal edilir ki, söhbət İran əsilli azərbaycanlı iş adamı Rza Zərrabın nağd pullar daşıyan kuryerlərindən gedir. Həmin rüşvət və korrupsiya həbslərində ortaya çıxmışdı ki, Rza Zərrab beynəlxalq maliyyə sanksiyalarından yayınmaq üçün İrana aid milyardlarla dollar pulu Türkiyə üzərindən transfer edib, bu qeyri-leqal dövriyyədə on tonlarla təmiz külçə qızıl da daşınıb.

Rza Zərrab İrana aid pulların transferini həyata keçirərkən Azərbaycan və Türkiyədə qeydiyyatdan keçmiş, fəaliyyəti kağız üzərində olan şirkətlərin adından istifadə edib. Bu əməliyyatı həyata keçirmək üçün iş adamı Türkiyə hökumətinin bir neçə naziri ilə əlbir olub.

Lakin Türkiyə parlamentində yaradılmış araşdırma komissiyası həmin dörd naziri - keçmiş daxili işlər naziri Muammar Güleri, Avropa işləri naziri Egemen Baxışı, iqtisadiyyat naziri Zəfər Çağlayanı və şəhərsalma naziri Ərdoğan Bayraktarı təmizə çıxarıb və barələrində həbs təqdimatı verməyib.

## Rusiyada oğurlanan azərbaycanlı "ət kralı" qətlə yetirilib



**Rusiyanın Surqut şəhərində biznes fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşı, 49 yaşlı Barat Əkbərov öldürülüb. Bu barədə məlumatı Surqut Şəhər Polis İdarəsi yayıb. APA TV xatırladır ki, Barat Əkbərov bu il yanvarın 16-da evinin qarşısından oğurlanıb. Rusiya Daxili İşlər Nazirliyinin Xantı-Mansiysk Muxtar Vilayəti üzrə Polis İdarəsinin yaydığı məlumata əsasən, ət istehsalı ilə məşğul olan biznesmen evinin yaxınlığında "Moskviç-2141" markalı maşınla naməlum istiqamətə qaçırılıb. Hadisə yerindən onun qanlı papağı tapılıb. Biznesmenin itkin düşməsi ilə bağlı məlumatı polisə onun oğlu verib. Oğlu bildirib ki, atası saat 22 radələrində telefon əlaqəsi saxlayaraq, evə gəldiyini deyib. Az sonra sahibkarın "Toyota Land Cruiser" markalı avtomobili yaşadığı binanın qarşısında aşkarlansa da, özü maşında olmayıb.**

İstintaq sirri olduğundan hadisənin detalları açıqlanmır. Faktla bağlı Rusiya Federasiyası Cinayət Məcəlləsinin 95-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Ehtimala görə, əslən Masallı rayonundan olan sahibkar məşğul olduğu biznes sahəsi ilə əlaqədar qaçırılıb, sonra isə qətlə yetirilib.

Xatırladaq ki, həmin şəxsin qaçırılmasında Azərbaycan vətəndaşı təqsirləndirilir.

# Abbas Abbasovun "qələmini" Bakıdan qırıblar

## Rusiyadakı səfirliyimiz Söyün Sadıqova dəstək verməklə sabiq vitse-primyerin bağışlanmadığı mesajını verib; Kreml hansı "AzerRos"un legitimliyini tanıyacaq?

**Azərbaycanın baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos"un Ağsaqqallar Şurasının sədrliyindən uzaqlaşdırılması mediada diqqətlə izlənir. Xatırladaq ki, yanvarın 17-də "AzerRos"un fəxri sədri Söyün Sadıqovun rəhbərliyi ilə keçirilən növbədənkənar qurultayda A.Abbasovun dəstəyi ilə sədr olmuş Asif Məhərrəmov rəhbərlikdən uzaqlaşdırılıb, Ağsaqqallar Şurası sədri postu isə ümumiyyətlə ləğv edilib.**

Bundan sonra qurumun rəsmi saytı olan azerros.ru-da "AzerRos"un Federal Şurasının sədri Mehriban Sadıqovanın bəyanatı yayılıb. M.Sadıqovanın bəyanatında bildirilir ki, yanvarın 17-də qurultay adında keçirilən tədbirin heç bir hüquqi qüvvəsi yoxdur. M.Sadıqova tədbir iştirakçılarını "reyder" adlandıraraq onları "AzerRos"da hakimiyyəti ələ keçirməkdə ittiham edib. "AzerRos"un Federal Şurasının sədri bəyan edib ki, yanvarın 15-də "AzerRos"un ofisində qurultaya hazırlıq müzakirə edilərək 7 nəfərdən ibarət təşkilat komitəsi yaradılıb və ali tədbir martda keçiriləcək.

Yeri gəlmişkən, M.Sadıqova 2013-cü il iyunun 28-də "AzerRos" Federal Şurasının birinci iclasında sədr seçilib. Hələ o zaman onun bu vəzifəyə sədr kimi namizədliyi qurumda ciddi etirazla qarşılanmışdı. M.Sadıqovanın namizədliyini bir neçə nəfərdən başqa heç kim dəstəkləməmişdi. "AzerRos"da bir çoxları M.Sadıqovanın yüksəlişini həzm edə bilmirdilər. Amma məhz Abbas Abbasovun müdaxiləsindən sonra narazılarla aparıla danışıqlar nəticə verdi və M.Sadıqovanın qurumun Federasiya Şurasına sədrliyi rəsmiləşdi.

Baş verənlər artıq "AzerRos"un iki yerə bölündüyünü təsdiq edir və çox güman ki, martda Abbas Abbasov tərəfdarları da öz qurultayını keçirərək M.Sadıqovanı yeni sədr seçəcəklər.

**A.Abbasov hələ ki susqunluğunu qoruyur. Onun deputat oğlu Aydın Abbasov "Yeni Müsavat"a müsahibəsində Ağsaqqallar Şurasının ləğv olunması ilə bağlı xəbərlərə qısa münasibət bildirib:** ""AzerRos"un rəsmi saytı var, girin ora, baxın, ləğv olunub-olunmadığını ordan öyrənin. Yaxud zəng edin "AzerRos"un özünə, onlardan məlumat alın". O, S.Sadıqova üstüörtülü "intriqant" deyib və bu məsələ ilə bağlı əlavə heç nə danışmaq istəməyib.

"Yeni Müsavat" öz mənbələrindən öyrənib ki, "AzerRos"un əsas strukturları A.Abbasovu dəstəkləyir və qurumun ofisi də, rəsmi saytı da onun nəzarətindədir. "Kreml də məhz Abbas Abbasovun rəhbərliyində olduğu qurumun legitimliyini rəsmi tanıyacaq. Abbas Abbasovun Kreml administrasiyasında dayaqları kifayət qədər güclüdür. İkinci bir tərəfdən, Abbas Abbasov Bakı ilə özünü Kremlin oyunlarına görə düşmən edib. Moskvadakılar da bunu yaxşı bilir və unutmurlar" deyə, məlumatlı mənbəmiz bildirib.

**Publika.az Moskvadakı mənbələri vasitəsilə maraqlı bilgilər əldə edib.** "Hər şey iki il öncəki qurultayda başladı. "AzerRos"da son seçkilərdə Abbasovun dəstəyi ilə Asif Məhərrəmov yeni prezident seçildi. Bununla da Söyün Sadıqovla qurum arasında ciddi konflikt yarandı. Xüsusilə qurumdakı sadıqovçular yeni rəhbərliyə tabe olmaq istəmirdilər. Lakin sonradan Abbas Abbasovun müdaxiləsi ilə "atəşkəs" elan olundu. Həmin konfliktdə Sadıqovun imici xeyli zəiflədi və Rusiya hökumətindəki əlaqələri də zərər gördü.

Daha sonra Rusiya prezidenti yanında Millətlərarası Münasibətlər Şurasının yeni tərkibi açıqlandı. Yeni tərkibdə Söyün Sadıqovun adı yox idi. Onun yerinə isə Asif Məhərrəmov təyin edildi. Bu artıq bütün körpülərin yandırılması idi. Çünki Sadıqov Kremlin ona qarşı soyuq münasibətinə görə Abbasovu ittiham edirdi. Həmin dövrdən sonra Sadıqov sanki "qeybə" çəkildi. O, özünü çox sakit apardı və məqam gözlədi. Kremllə münasibətlərini yenidən yoluna qoymaq istiqamətində çalışdı, hətta bir neçə "iş" də ala bildi. Sonuncu dəfə Ukrayna münaqişəsindən sonra Krım tatarlarının parçalanması, Mustafa Cəmilovun dayaqlarının sıradan çıxarılması işini ona tapşırdılar. Sadıqov bu işi pis həyata keçirmədi və hazırda məsələ üzərindəki fəaliyyətini davam etdirir. Hələ o vaxt məlum idi ki, Sadıqov dirçələn kimi Abbasova qarşı revanşa başlayacaq. Qurumun içində o vaxtdan marginallığı ilə seçilən adamlar var. Bu qrupa Sadıqov rəhbərlik edir. Söyün uzun müddət idi ki, "AzerRos"a yaxın buraxılmırdı. Təsir imkanları azalmışdı. Lakin görünür o, uzaqda olanda da işi dayandırmayıb və qurumu içindən dağıtmaq planlarını hazırlayıb. Bu işdə ona Nizami Bəşirov, Qalib Ağayev, Tahir Hacıyev, Yusif Xıdırov kömək edir. Bu qruplaşma əvvəldən də qurumu Abbasov - Məhərrəmov kurasiyasından almaq istəyirdi. Son proseslər də bunu göstərdi. Ümumi hədəf isə Abbasovu ictimai-siyasi proseslərdən uzaqlaşdırmaq, onun nüfuzunu zədələməkdir".



**Mənbə: "Abbas Abbasov Bakı ilə özünü Kremlin oyunlarına görə düşmən edib, moskvadakılar da bunu yaxşı bilir və unutmurlar"**

İndi əsas maraqlı məsələ bu proseslərdə rəsmi Bakının rolunun olub-olmamasıdır. Çünki 2013-cü il prezident seçkiləri ərəfəsi "Milyarderlər ittifaqı"na rəhbərlik edən A.Abbasovla Azərbaycan iqtidarının münasibətləri son dərəcə pisləşmişdi. Seçkidən sonra da A.Abbasov hakimiyyətin qınağında olub və həm Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, həm hakimiyyətin ayrı-ayrı təmsilçiləri öz açıqlamalarında A.Abbasovu "doğru yola" dəvət ediblər.

**Maraqlıdır ki, A.Abbasovun "AzerRos" rəhbərliyindən uzaqlaşdırıldığı tədbirdə Azərbaycanın Rusiyadakı səfirinin müavini Qüdsi Osmanov da iştirak və çıxış edib. Q.Osmanov qurultay iştirakçılarını təbrik edərək, onlara uğurlar arzulayıb. Q.Osmanov Azərbaycan dövlətinin hər bir ölkədə güclü, monolit diasporu olmasında maraqlı olduğunu deyib:** "Qurultayı təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq". Bu iştirak artıq rəsmi Bakının mövqeyidir və A.Abbasovun hakimiyyətlə münasibətlərinin düzəlmədiyi barədə informasiyaların təsdiqidir. Amma bu dəstəkdə daha bir maraqlı məqam da var. Azərbaycan hakimiyyətinin S.Sadiqova da münasibəti, yumşaq desək, yaxşı sayılmaz. Xüsusilə YAP rəhbərliyi onu dəfələrlə xəyanətdə suçlayıb. Görünür, Azərbaycan iqtidarı özü üçün müəyyən etdiyi "iki pisin içərisində" seçim edərkən S.Sadıqovun tərəfini tutmalı olub.

**Bəs A.Abbasovun bundan sonrakı addımı nə ola bilər? Publika.az.saytı yazır ki, sabiq məmur revanşa hazırlaşır:** "Ehtimallara görə, onun qisası daha ağır olacaq. Hətta Abbasovun Kremldəki müəyyən dairələrlə əlaqəyə keçdiyi və mart ayında keçiriləcək qurultaya qarşı sərt tədbirlər görəcəyinə dair məlumatlar da dolaşır".

❑ **Xəbər xidməti**

**Xəbər verdiyimiz kimi, musavat.com saytında gənc yazar, əsgərlikdən yeni qayıtmış Ayxan Ayvazın “Anar mənə qalib gəldi, bir gənci sındırdı” başlıqlı müsahibəsi dərc edilib. Həmin müsahibədə A.Ayvaz bildirib ki, ailəsinə Azərbaycan Yazıçılar Birliyi (AYB) tərəfindən verilməli olan ev payını almaq üçün ona psixoloji təzyiq vasitəsilə üzrxahlıq ərizəsi yazdırılıb. Gənc yazarın sözlərinə görə, Anar onu bu yolla sındırıb.**

# “Gətirsin 25 min manatı qaytarsın Yazıçılar Birliyinə”

## Rəşad Məcid: “Əslində Yazıçılar Birliyi ona həmin pulu verməli deyildi, aparıb arağa xərcləyəcək”



*Dünən “Yeni Müsavat” Anarla əlaqə saxlayıb, bu ittihamlara aydınlıq gətirmək istəsə də, AYB sədri bu barədə danışmaq istəmədiyini, qurumun mətbuat xidməti tərəfindən ittihamlara cavab veriləcəyini bildirdi. Bizsə mövzuya daha yaxından bələd olan və müsahibədə adı hallandırılan AYB-nin gənclərlə iş üzrə komitəsinin rəhbəri Rəşad Məcidlə söhbətləşdik. Müsahibimiz öncə baş verənlərin tarixçəsini anlatdı.*

- Birinci onu deyim ki, Ayxan Ayvaz cavan uşaq idi. Atası da xahiş edirdi ki, gəncdir, onu Yazıçılar Birliyinə üzv edin. Əslinə qalanda biz də xeyirxahlıq edirik. Bunun bir kitabı çıxmışdı, qəbul etdik birliyin üzvlüyünə. Ailələrinin də maddi vəziyyəti çətin idi. Ona təqaüd də verdik. Düşündük ki, yenə ailəyə köməkdir. Atasına da hər zaman deyirdim ki, oğlunu qoyma müəyyən adamlarla otursun. Çünki görürdüm ki, zəif, çəlimsiz uşaqdır. Aparır Şərif Ağayar, o biriləri, içirdirlər, Anarın əleyhinə yönləndirirlər. Sonradan onların ailəsində böyük faciə baş verdi. Atası dünyasını dəyişdi, onun yeddisində isə anası özünü asdı. Mənim özüm neçə gün özümə gələ bilmədim. Çünki çox sarsıntılı hadisə idi. Yazıçılar Birliyi də buna hansısa formada kömək etmək üçün əlindən gələni etdi. Bu ailəni, onun başçısını daha çox tanıyan, onların halına yanan mərhum Arif Əmrahoğlu xahiş elədi ki, Ayxan Ayvaza yenidən prezident təqaüdü verək. Yazıçılar Birliyinin tarixində bircə dəfə olub ki, bir adama ikinci dəfə prezident təqaüdü verilsin. Çünki bu, faciə yaşayan ailəyə kömək idi. Ayxanın bir bacısı, bir qardaşı var. Bacısı keçən il Rəssamlıq Akademiyasına girdi. Bildiyimə görə, atasının yasına 6 min manat pul xərcləyiblərmiş. Onu da Ayxan Ayvaz gizlicə banka ərizə yazıb ki, pulu itirmişəm. O 6 min manatı da aparıb xərcləyib. İndi burda da keçən il məsələ qalxdı ki, Ayxan Ayvaza ev vermək lazımdır. Amma o, Yazıçılar Birliyinin üzvü olmadığı üçün problem yarandı. Atası artıq rəhmətə getmişdi. Ayxan da uşaqdır, təsir altına düşüb Şərif Ağayarın Yazıçılar Birliyindən çıxmasına etiraz əlaməti olaraq birlikdən çıxmışdı. Sual da ona görə yarandı ki, bəs bu adam birliyin üzvü deyilsə, evi ona necə verək? Orda da məsələ belədir ki, bir evi satırlar, onun pulunu da 4 yerə bölüb, 4 yazar arasında paylayırlar. Hərəsinə 25 min manat. Təfsilatını bilmirəm.

***- Ayxan da iddia edir ki, bu ev onun atasına görə verilməliydi, özünə görə yox. Çünki atası sağlığında ev növbəsində olub. Bu halda onun Yazıçılar Birliyinin üzvü olması şərtdirmi?***

- Atasına görə necə verirlər? Atası rəhmətə gedib. İndi Yazıçılar Birliyi onun ailəsinə humanistlik göstərir ki, yataqxanada birotaqlı bir yerdə yaşayırlar, ev alsınlar.

***- Yəni rəhmətə getmiş şair-yazıçının ailəsinə ev verilməsi təcrübəsi yoxdur sizdə?***

- Olmur. Ona görə də bu evin pulunu oğluna verməyi qərarlaşdırdıq. Bu adam o vaxt Şərif Ağayarın hayına çıxdı birlikdən. Dediyim kimi, rəhmətlik Arif Əmrahoğlu ilə bu barədə danışıldı. Hamı istəyirdi ki, bu ailəyə ev verilsin. Amma bilmirəm, bu ərizə söhbəti necə oldu, kim yazdı, kim dedi...

***- Ayxan Ayvazın dediyinə görə, təşəbbüs qurumun mətbuat katibi Rauf bəyə məxsusdur. Danışıqlarda o, iştirak edib.***

- Özləri belə ərizə yazıblar ki, mən səhv etmişəm. Heç mən o ərizəni görməmişəm xəbərim yoxdur.

***- Deyir, bu ərizə ilə məni sındırdılar...***

- Ayxan kimdir ki, sına? Onu niyə sındırmaq istəsinlər ki? Ayxan 9 yerə parçalanmış zəif, çəlimsiz uşaqdır. Onun dedikləri niyə bu boyda mətbuatda yer alır? İndi o 25 min manatı bir həftə bundan qabaq səhv edib ona veriblər. Bu da 25 mini alandan sonra gedib xoruzlanır orda, ağzına gələni danışır. O 25 mini ona vermək düzgün deyildi. Çünki o yas yerində qalmış 6 min manatı dağıdıb, arağa verdiyi kimi, bu 25 mini dağıdıb xərcləyəcək. Aparıb o pulu Şəriflə arağa verəcək də. Bu, görünür. İndi səhv ediblər ki, tələsib veriblər. Ona yox, bacısına verməliydilər. İndi ictimaiyyət bu çəlimsiz adama dəstək olmaqdansa aparıb bunu içirdir. Bu da deyir ki, Anar məni sındırdı. Heç Anarın ondan xəbəri yoxdu. Görsə də tanımaz ki, Ayxan Ayvaz kimdir.

***- Ayxan Ayvaz konkret adlar çəkir. Anarın katibəsi Arzu xanımın, Rauf müəllimin adını çəkir...***

- Arzu bunların qonşusudur. Arzu bunlara can yandırıb ki, bu pulu alsınlar da. İnsandır, ürəyi yanıb, maraqlanıb bu işlə...

***- Gənc isə deyir ki, onların ailəsinə “əgər Ayxan ərizəni yazmasa, növbədə xeyli adam var, ev onlara veriləcək” deyilib...***

- Başa düşün, o adam “məni Yazıçılar Birliyinə yenidən üzv edin” deyə ərizə yazmasaydı, birliyin üzvü kimi ev ala bilməyəcəkdi, növbədəki digər adamlara veriləcəkdi. Bu, prosedur qaydadır.

***- Yazıçılar Birliyinə üzv olsun da yenidən. Niyə ondan üzrxahlıq ərizəsi alınır?***

- Heç mənim ərizədən xəbərim yoxdur. Özü də burda məqsəd ərizə deyil ki. Ərizə yazanda nə olur ki? Burda nə var axı?

***- Deyir, mən bunu yazmaq istəmirdim, məcburiyyət qarşısında qalıb yazdım.***

### “Pulu alandan sonra gedib xoruzlanır orda, ağzına gələni danışır”

- İstəmir? Gətirsin 25 mini qaytarsın da...

***- 25 mini istəyir, sadəcə, sındırılmasını həzm eləmir.***

- Əşi, nə sındırılmaq? Kimdi onu sındıran? Gətirsin 25 mini versin Yazıçılar Birliyinə, sonradan nə istəyir eləsin. Bunun yolu budur. Yazıçılar Birliyindən 25 mini alan kimi gedib xoruzlanırsan, belə olmaz axı. Aparıb o 25 mini də arağa verib xərcləyəcək. Əslində Yazıçılar Birliyi ona 25 min verməli deyildi. Ona ikinci dəfə təqaüd veriləndən sonra nankorluq edib, Yazıçılar Birliyinin üzvlüyündən istefa verdi. Bu adam yetişməyib, formalaşmayıb. Günah o gəncə araq içirdən, böyür-başındakı Anar əleyhdarlarıdır. Onu içirdib, qıylayırlar. Günahkar onlardır, mediadır. O yetişməmiş, formalaşmamış, düşüncəsi yerində olmayan, ailə faciəsi yaşamış adamdan belə şou düzəltmək lazım deyil.

***- Bu arada Ayxan Ayvaz sizin barənizdə də bəzi tənqidi fikirlər söyləyib...***

- O vaxt bir neçə gənc Şərif Ağayara görə Yazıçılar Birliyindən çıxanda mən demişdim ki, onların çoxu istedadsızdır. Gəlirlər, yetişdiririk, sonra uçub gedirlər. Ayxan Ayvaz kimi on minlərlə yazan var. O adama sadəcə atasına, ailəsinə görə güzəşt olunub. Qeyri-adi istedadı da yoxdur, sıradan bir yazandır da.

***- Sizi istedadsızlıqda ittiham edib...***

- Hə də, desin. Desin ki, istedadsızam, yazı yaza bilmirəm, göydən gətiriblər məni, 25 ildir qəzet çıxarıram... Bunu da başqa adamlar edir mənim əvəzimə.

***- Bəs plagiat məsələsi? A.Ayvaz “Onun ”10 sentyabr" hekayəsi Markesin “Baltasarın həyatında unudulmaz gün” əsərindən plagiatdır" deyib müsahibəsində...***

- “10 sentyabr” hekayəsi 20 dildə çap olunub, heç mən onun dediyi hekayəni oxumamışam. Mənim hekayəm barədə adam qalmayıb ki, yazmasın. Nə plagiat? Oxumadığım hekayəni plagiat eləmişəm? Deyir də, uşaqdır. Araq içirlər, yanında danışırlar, o da bunu təkrarlayır.

***- Bəs məlum müsahibəsindən sonra Yazıçılar Birliyi Ayxan Ayvazla bağlı məsələni yenidən gündəmə gətirəcəkmi?***

- Burda ən rahat yol budur ki, gətirib pulu qaytarsın.

***- Pulu geri tələb edəcəksizmi?***

- Əlbəttə. Bu hərəkətdən sonra mütləq məhkəməyə verib, pulu geri almaq lazımdır.

***- Qərar verilib artıq?***

- Yox, bu, mənim öz fikrimdir.

❑ **Sevinc TELMANQIZI**

# Nardaranda 4 ölkənin bayrağı yandırıldı

## Onlara qarşı etiraz şüarları səsləndirildi










**Yanvarın 21-də Bakının Nardaran qəsəbəsindəki “İmam Hüseyn” meydanında Fransada terror aktından sonra dünyanın bir sıra nüfuzlu nəşrləri tərəfindən İslam Peyğəmbərinin karikaturalarının dərc edilməsinə etiraz olaraq aksiya keçirilib.**

Musavat.com xəbər verir ki, aksiyada qəsəbə sakinləri ilə yanaşı, Bakının digər kəndlərinin də sakinləri iştirak ediblər. Ümumilikdə isə aksiyada 500 nəfərə yaxın şəxs iştirak edib.

Nardaran Ağsaqqallar Şurasının sədri Kərbəlayi Natiq Kərimov, Adil Əlizadə, Hacıağa Nuri, Mehrab Əlizadə, Mehman Məmmədov, Rövşən Əhmədli, Hikmət Vəliyev çıxış edərək, Peyğəmbərin karikaturasının dərcini, Qərb dövlətlərinin və ABŞ-ın müsəlmanlara qarşı yürütdüyü siyasəti pisləyiblər.

**Çıxış edənlər bildiriblər ki, müsəlmanlara qarşı haqsız münasibət davam etdikcə, kütləvi etiraz aksiyaları təşkil olunacaq:** “Biz heç kəsə imkan verməik ki, Peyğəmbərimizi təhqir etsin. Heç kimin ixtiyarı yoxdur ki, başqalarının inancını ələ salsın, təhqir etsin. Biz Peyğəmbərimiz uğrunda ölümə də hazırıq. Amerika, Fransa, Avropa əl-ələ verərək, İslama ləkə salmaq istəyirlər. Amma bu, onlarda alınmayacaq. Həmişə demokratiyadan, insan haqlarından danışanlar, indi demokratiya pərdəsi altında çirkli işlər görürlər. Bilin və agah olun ki, onlar nə qədər dinimizə sataşsalar da, biz İslamı, Peyğəmbərimizi sona qədər canımızla, qanımızla müdafiə edəcəyik. Hər bir müsəlman öz Peyğəmbərini müdafiə etməlidir. Nəinki müsəlmanlar, bütün digər dinlərin inanclıları da öz dinlərinə edilən təhqirə göz yummazlar”.

Aksiyada “Fransa İslamdan qorxur!”, “İslamçılar oyaqdır, Peyğəmbərə dayaqdır!”, “Zalımlara ölüm olsun!” “Fransaya ölüm”, “İslam sahibsiz deyil” və s. bu kimi şüarlar səsləndirilib. ABŞ, İsrail, Fransa və Ermənistan bayraqları yandırılıb.

**İslam Partiyası sədrinin müavini Hacı Rövşən Əhmədli deyib:** “Dünyanın bəzi lider ölkələri tərəfindən İslam adı ilə yaradılmış terror təşkilatları var. Bu təşkilatların əli ilə törətdikləri terrorlarla İslamı gözdən salmaq niyyətləri var. Dünyaya İslamı zorakı bir inancmış kimi göstərməyə çalışırlar. Təbii ki, bunların İslamla heç bir əlaqəsi yoxdur. Bunu sadəcə, müsəlmanlar yox, bütün dünyada savadlı, dərrakəli adamlar da dərk edirlər. Bu dövlətlər niyə İslamı terrorla eyniləşdirirlər. Dünyada islamafobiya yaratmağa çalışırlar. Amma İslam yarandığı gündən barışı, ədaləti, insan haqlarını təbliğ edib”.

Xatırladaq ki, yanvarın 7-də “Charlie Hebdo” jurnalının redaksiyasına silahlı hücum zamanı 12-si jurnalist olmaqla, 14 nəfər öldürülmüşdü. Qətliamı törədənlər özlərini islamçı adlandırmış və bu hücumun İslam Peyğəmbərinin təhqir edilməsinə cavab addımı olduğunu bəyan etmişdilər.

Bu hadisədən sonra dünyanın ayrı-ayrı region və ölkələrində müxtəlif motivlərlə etiraz aksiyaları keçirildi. Qərb ölkələrində keçirilən mitinq və yürüşlər islamçı terrorçulara qarşı idisə, Şərq ölkələrində keçirilən analoji aksiyalarda İslam Peyğəmbərinin təhqir olunmasına etiraz ifadə olunurdu.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015

# Umayra Tağıyevanın istefasının şok səbəbi - işçilər niyə ağladı?

## Tanınmış hidroloqu işdən könüllü getməyə vadar edən proqnozlardakı yanlışlıqlar olub

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Umayra Tağıyevanın vəzifəsindən azad edilməsi ötən həftənin əsas müzakirə mövzularından biri olsa da, istefanın motivləri barədə detallı açıqlama verilmədi.**



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova** istefa barədə məlumatı təsdiqləməklə kifayətləndi. Yanvarın 16-da öz ərizəsi ilə vəzifəsindən azad olunduğu bildirilən Umayra Tağıyeva isə müəmmalı istefanın səbəbləri barədə susmağa üstünlük verdi. İxtisasca fizik-riyaziyyatçı olan, 2009-cu ildən Proqnozlar Bürosunun direktoru vəzifəsini icra edən *(hazırda direktorun səlahiyyətlərini baş hidroloq Asif Verdiyev icra edir)* təcrübəli və proqnozlarına böyük etimad bəslənilən U.Tağıyevanın işdən uzaqlaşması təbii ki, suallar doğurmalıydı.

Keçmiş direktorun işdən uzaqlaşmasının səbəbləri ilə bağlı redaksiyamıza ilginc məlumatlar daxil olub. Adının çəkilməsini istəməyən mənbənin "Yeni Müsavat"a verdiyi məlumata görə, ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırov yanvarın ilk həftəsində U.Tağıyevanı qəbuluna çağırıb və hava proqnozlarının doğrulmadığını ona sərt şəkildə xatırladıb. Bildirildiyinə görə, proqnozun yanlışlığı səbəbindən nazir özü də "yuxarıların" irad və tənqidlərinə məruz qalıbmış. Hətta hava proqnozu ilə əlaqədar bir sıra ölkəiçi səfərlərin qrafikində dəyişiklik edildiyi də iddia olunur. Bu səbəbdən bir müddət əvvəl nazir U.Tağıyevaya töhmət də elan edib.

Lakin üstündən çox keçməyib ki, xanım Tağıyevanın rəhbərlik etdiyi qurumun işində növbəti dəfə "ÇP" aşkarlanıb. Məlumatlı mənbə iddia edir ki, bu dəfə Proqnozlar Bürosu nisbi rütubətə görə məlumatı səhv hazırlayaraq müvafiq qurumlara təqdim edib. Belə olduqda ötən həftənin cümə günü - 16 yanvarda - nazir U.Tağıyevanı yenidən qəbuluna çağırıb və yanlış məlumatların sayının artmasından bir daha narazılığını çatdırıb. H.Bağırov daha bu şəkildə işləməyin mümkün olmadığını desə də, təcrübəli işçisini itirmək istəməyərək ona nazirliyin ikinci qatında yerləşən şöbələrdən birində çalışmağı tövsiyə edib. Ancaq U.Tağıyeva təklifdən birmənalı şəkildə imtina edib. Qəbuldan çıxandan sonra isə kabinetinə gələrək işdən azad olunması xahişi ilə ərizə yazaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin direktoru Xəlil Ramazanova təqdim edib. İddialara görə, adətən şəxsi məsələlər barədə ətrafdakılarla hər hansı müzakirə aparmağı xoşlamayan U. Tağıyeva bu dəfə də baş verənlər haqda kimsəyə bir söz deməyib. O, hətta rəhbərlik etdiyi işçilərlə belə sağollaşmadan nazirliyi tərk edib.

Redaksiyamızın əldə etdiyi məlumata görə, U.Tağıyevanın işdən çıxdığını eşidən büro əməkdaşları hətta göz yaşlarını belə saxlaya bilməyib və nazirlikdə əksəriyyət ən yaxın insanını itiribmiş kimi üzgün hala düşüb. Xüsusilə də xanım direktorun tabeliyində çalışmış, 11 və 12-ci mərtəbədə əyləşən 40-dək işçi onun gedişindən sarsıldıqlarını deyiblər. Hətta bir sıra işçilər sosial şəbəkələrdə təəssüf dolu mesajlar da yazıblar. Mənbəmiz deyir ki, olduqca savadlı mütəxəssis olan U.Tağıyeva vaxtilə rus mütəxəssislərlə də birgə çalışıb, böyük təcrübəyə malikdir. Bu mənada onu əvəz edə bilən kadrın olmayacağı da danışılır.

Xatırladaq ki, bu, U.Tağıyeva ilə bağlı ilk qalmaqallı hadisə deyil. Hələ 2009-cu ildə prezidentin İsmayıllı səfəri öncəsi hava proqnozunun Prezident Administrasiyasına vaxtında təqdim olunmamasına görə nazir H.Bağırov U.Tağıyeva və digər rəhbər şəxslərdən biri, Milli Hidrometeorologiya və Proqnozlar Bürosunun direktor əvəzi İmran Məmmədovun vəzifələrini bir pillə aşağı salmışdı. O vaxt cəzalandırılması barədə qərar U.Tağıyevanın sərt etirazına səbəb olmuşdu və o, günahsızlığını əsas gətirərək hüquqlarının bərpasını tələb etmiş, daha sonra işdən getmişdi. U.Tağıyeva onu da demişdi ki, işıqlar söndüyündən məlumatın verilməsi 15-20 dəqiqə ləngiyib. Xanım direktorun işdən getməsi haqda xəbər o zaman rəsmən təsdiqlənməsə də, İ.Məmmədov "Yeni Müsavat"a "mən də, Umayra xanım da öz sənətimizi sevirik, yuxarıdan göstəriş verildi və vəzifələrimizdə dəyişiklik oldu" deməklə vəziyyətdən çıxmağa çalışmışdı. Bir müddət sonra U.Tağıyeva haqqını əldə etdi və işinə bərpa olundu. Bu dəfə eyni halın təkrarlanacağı müşkül görünür. Hesab olunur ki, artıq təcrübəli mütəxəssisin nazirliyə qayıdışı mümkünsüzdür.

**İddialarla bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, həmçinin U.Tağıyevanın mövqeyini dərc etməyə hazırıq.**

**❑ M.MEHDİ**

---

**"...Bağdadini də kafir sayanlar var"**

# Sələfilərin liderindən şok açıqlamalar

## Hacı Qamət: "Sələfilər cəbhədə baş verən son hadisələr ərəfəsində müharibəyə hazırlaşmışdılar"

**Azərbaycanda son aylar radikal dini təriqət üzvlərinin sayı artmaqdadır. Onların əvvəllər gizli təşkilatlanması açıq fazaya keçməkdədir. Dünənə qədər cəmiyyətdən özünü təcrid edən xəvaric, təkfirçi qruplar artıq sosial şəbəkələrdə fəallaşır, məscidlərdə çıxışlar edir, ərəb ölkələrinə tələbə göndərir, öz mövqelərini açıq şəkildə bəyan edirlər.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının həyəcanlı çıxışları, MTN-in əvvəlcə 26, daha sonra 10 İŞİD üzvünü həbs etməsi ölkədə radikallığın artdığını deməyə əsas verir. Müşfiqabad, Ləzgi məscidlərində keçirilən əməliyyatlar, Sumqayıtda evini məscid etmiş səlefi Zöhrab Şıxəliyevin həbsi vəziyyətin ciddiləşdiyini göstərir. Axar.az saytı isə yanvarın 21-də yazıb ki, "Ləzgi" məscidində Gürcüstan vətəndaşı olan Veysəl Orucov radikalizmi təbliğ edir, gizli şəkildə tələbələri ərəb ölkələrinə göndərir.

Eyni zamanda 20 Yanvar günü facebook şəbəkəsində xəvariclər şəhidlərin ruhunu təhqir edən yazılar paylaşıb, onları kafir adlandırıb. Bütün bu baş verən proseslərlə bağlı fəaliyyəti məhdudlaşdırılmış "Əbu-Bəkr" məscidinin imamı, sələfilərin lideri hesab olunan Hacı Qamət Süleymanov "Yeni Müsavat"ın suallarını cavablandırıb. O, həmçinin Qroznıda karikatura əleyhinə keçirilən nümayişdən danışıb:

*- Hacı, Qroznıda baş tutan mitinqə münasibətiniz necədir?*

- Əvvəla, biz peyğəmbərin karikaturasının çəkilməsini pisləyirik. Bu, yolverilməz haldır və insanların heysiyyətinə toxunmaq olmaz. Müsəlmanlar onların inancına toxunmursa, qarşılıqlı hörmət olmalıdır. Ümumiyyətlə, təkcə peyğəmbəri yox, insanı təhqir etmək düzgün deyil. İslamda karikatura haramdır. Parisdə çəkilən karikatura təxribatdır və radikallara fürsət verən hadisə olub. Məqsəd dünyada terroru İslamın ayağına yazmaq, gözdən salmaq, radikallara görə müsəlmanları təhqir etməkdir. Biz terroru da pisləmişik, karikaturanı da. Amma sələfilər nümayişlərin əleyhinədir. Biz hesab edirik ki, etiraz sözlə olmalıdır. Bir hadisəyə olan narazılıq məsul şəxslərə ünvanlanmalıdır. Ona görə də Qroznıda olan nümayişin tərəfdarı deyilik.

*- Sizcə, Parisdəki terror nəyə gətirib çıxara bilər?*

- Avropada müsəlmanların sayı artmaqdadır. Bu da bəzi dairələri narahat etməyə bilmir. Bu prosesin Qərb ölkələrində qarşısını almaq və müsəlmanları Avropada çıxarmaq üçün bu hadisə oldu. Məncə, bundan sonra Avropada terror çoxala bilər və bunu İslam dini ilə bağlamağa çalışacaqlar. İslam isə terrora qarşıdır. Radikallara isə sərf edən siyasətdir. Onlara bu imkanı vermək olmaz.

*- Azərbaycanda da radikalların sayının artdığını demək olarmı?*

- Azərbaycanda radikallar var və onların sıralarının çoxaldığını demək olmaz. Müəyyən səviyyədədirlər. Bu istiqamətdə kütləvilik görmürəm.

*- Onların arasında 20 Yanvar günü şəhidləri təhqir edənlər oldu, sələfilər necə, onları şəhid sayırmı?*

- Şəhidliyin bir neçə mərtəbəsi var və 20 Yanvarda həlak olanları da şəhid sayırıq, o mərtəbədən birindədirlər. Sələfilər vətən uğrunda ölənləri şəhid hesab edir. Hətta yadınızdadırsa, bir müddət əvvəl cəbhə xəttində döyüşlər getdi, şəhid verdik. O ərəfədə bizim sələfilər



**"Ləzgi məscidində ab-hava başqadır, məscidə axır vaxtlar radikal qruplar toplaşır, Veysəl Orucov isə..."**

müharibəyə hazırlıq görmüşdü. Onlar cəbhədə torpaqlarımız uğrunda savaşmağa hazır idilər, Ali Baş Komandanın əmrini gözləyirdilər. Radikallar isə özlərindən başqa kimsəni müsəlman görmürlər. Hamını kafir elan edirlər.

Hətta Suriyaya gedənlər arasında İŞİD üzvlərini öldürənlər, əl-Bağdadini də kafir elan edənlər var. Deyirlər ki, ancaq bizim kimi olanlar müsəlmandır. Onlar deyirlər ki, ümumiyyətlə dünyada hələ müsəlman ölkəsi, müsəlman hakimiyyəti yoxdur, hər yerdə kafirlikdir, yalnız bunların yaratdığı müsəlman dövləti olacaq. Əlbəttə ki, onların bu radikal mövqeyi 20 Yanvar şəhidləri haqda fikirlərlə də göstərilir.

*- Hacı, «Ləzgi» məscidində Veysəl Orucov haqda xəbərlər yayılıb ki, radikalizmi təbliğ edir, siz o adamı necə tanıyırsız?*

- Mən o məqalə ilə tanış oldum, orada yazılanlar həqiqətə uyğun deyil. Yeni Veysəl o səviyyədə adam deyil, məlumatlar şişirdilib. Azərbaycandan ərəb ölkələrinə tələbə göndərməyə ehtiyac yoxdur. Tələbə özü internetə daxil olub, qəbul şöbəsinə sənədlərini yazıb göndərir. Sadəcə, məlumatlar şişirdilib. Veysəl radikallığa qarşı olub. Ola bilsin ki, kiminsə şəxsi-qərəzliyi var, yaxud da yeni mövzu axtarışındadırlar.

**"Azərbaycanda Səudiyyə Ərəbistanından maliyyələşən qurum yoxdur"**

*- Siz «Ləzgi» məscidinə gedirsizmi?*

- Mən artıq çoxdandır ki, «Ləzgi» məscidinə getmirəm. Çünki orada ab-hava başqadır. Mənə gələn son məlumatlara görə, məscidə axır vaxtlar radikal qruplar toplaşır. Həm də o məscid balacadır, sıxlıq yaranır. Mənə elə gəlir ki, şəhərin mərkəzində yerləşir və radikalların ora getməsinin hüquq-mühafizə orqanları məlumatsız olmazlar. Ola bilsin, bir neçə qrupdur, bəlkə də Əlixan Musayevlə əlaqələri var. Sadəcə, həddini aşanlar var. Suriyaya gedib İŞİD üzvlərini öldürürlər, özləri bir-birini qəbul etmirlər, bayaq dediyim kimi, əl-Bağdadini kafir görürlər. Deyirlər ki, bizim kimi olmayan düşməndir.

*- Politoloq Qabil Hüseynli müsahibəsində Azərbaycanın Səudiyyə Ərəbistanı ilə əlaqələrinin zəiflədilməsini təklif etmişdi, onun fikrincə, vəhhabilik oradan bizə gəlir. Siz necə düşünürsüz?*

- Azərbaycanda Səudiyyə Ərəbistanından maliyyələşən qurum yoxdur. Bu iki ölkə arasında da həmişə yaxşı münasibətlər olub. Hətta Ermənistanın Səudiyyə Ərəbistanında səfirliyi yoxdur. Onlar özü də radikallardan, terrorizmdən əziyyət çəkir. Terrora qarşı mübarizəyə dəstək verir. Ola bilsin ki, həmin siyasətçi məlumatsızdır, ya da metroda bir-iki kitab oxuyub, nəsə eşidib.

**❑ Emil SALAMOĞLU**

YENİ MÜSAVAT
N 14 (6042) 22 yanvar 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ordumuz dünyanın ən güclü 50 ordusu sırasında

## Ermənistan bu siyahıda yer almadı, əvəzində Rusiya Gümrüdəki bazasını gücləndirir - Kremlin bölgədəki yeganə hərbi bazası 1 ilə sırf peşəkarlardan təşkil olunacaq; hərbi ekspert: "Azırbaycan daha da irəliləyəcək..."

**İşğalçı Ermənistanın Rusiya üçün ən böyük əhəmiyyəti şübhəsiz ki, ən əvvəl burada Gümrüdəki 102 saylı hərbi bazanın mövcudluğu ilə bağlıdır. Kreml Güney Qafqaz bölgəsində özünün yeganə (sonuncu) hərbi bazası kimi bu amilə xüsusi önəm verir. Dağlıq Qarabağ probleminin illərlə çözülməmiş qalmasının bir səbəbi də Rusiyanın regionda sonuncu hərbi dayağını itirə biləcəyindən yanadır. Bu əndişə əsaslıdır. Çünki Azərbaycanla Ermənistan arasında konflikt aradan qalxan Moskvanın bölgəmizdə hərbi mövcudluğuna lüzum qalmayacaq. Gümrüdəki bazada isə nə az, nə çox - 5 minə yaxın hərbçi var.**

Bu elə də balaca rəqəm deyil. Baza iki qarnizonda, 19 hərbi şəhərcikdə dislokasiya olunub. Ötən ilin dekabrında bazaya 2,5 min yeni əsgər gəlib. Fors-major vəziyyətlərdə təbii ki, Rusiya bu rəqəmi qısa müddətdə artıra bilər - hərgah Ermənistanla Rusiya arasında quru əlaqəsi yoxdur.

Bu arada bəlli olub ki, Rusiyanın Ermənistanın Gümrü şəhərində yerləşən 102 saylı hərbi baza gələn ildən müstəsna olaraq kontrakt əsasında xidmət edəcək hərbi qulluqçular (muzdlular) hesabına komplektləşdiriləcək. Musavat.com-un erməni KİV-ə istinadən verdiyi xəbərə görə, bu barədə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahından bildirilib.

"Sonuncu çağırışçı hərbi qulluqçu 102 saylı hərbi bazanı gələn ilin yazında tərk edəcək" - mənbə bildirib. Lakin Baş Qərargah təmsilçisi qərarın Gümrüdəki məlum qətl hadisəsi ilə bağlı olmadığını qeyd edib. Söhbət bazanın çağırışçı əsgəri Valeri Permyakovun 7 nəfərlik erməni ailəsini güllələməsindən gedir.

Doğrudur, Rusiyanın Tacikistandakı hərbi bazasının şəxsi heyəti də 2014-cü ilin dekabrından artıq yalnız kontrakt əsasında hərbi qulluqçulardan formalaşdırılır. Lakin Tacikistan öz strateji, geosiyasi önəminə görə Azərbaycanın da yerləşdiyi, NATO üzvü Türkiyə ilə həmsərhəd Güney Qafqazla müqayisəyə gələ bilməz.

O da doğrudur ki, son vaxtlar Moskva ilə Ankara arasında iqtisadi-ticari və energetik sferalarda xeyli dərəcədə yaxınlaşma müşahidə edilir, lakin hər nə qədər olmasa, Rusiya və Türkiyə hərbi alanda tərəfdaş deyillər və qardaş ölkənin NATO üzvü olması üzündən bu, heç mümkün də görünmür. Kremlin Ankaraya skeptik anlamda ehtiyatlı yanaşdığı dəqiqdir.

*****

Bəzi təhlilçilərə görə, muzdlu hərbçilərlə bağlı Rusiyanın son qərarı Cənubi Qafqazla bağlı yeni planın tərkib hissəsidir. Ehtimallara görə, Moskva Gürcüstanı bölərək Rusiyadan Ermənistana dəhliz açmaq istəyir. Gürcüstan sərhədinə yaxın ərazidə yerləşdiriləcək 5 min xüsusi təyinatlı isə bu məsələdə müstəsna rol oynaya bilər.

Ancaq bir məsələ var ki, Rusiyanın iqtisadiyyatı, büdcəsi beynəlxalq sanksiyalar ucbatından son aylar ciddi problemlərlə üzləşib. Bu isə istər-istəməz ordu quruculuğuna da öz neqativ təsirini göstərir və göstərəcək. Söhbət ilk növbədə maliyyə çatışmazlıqlarından gedir. Bunu iki gün öncə prezident Putin də doyasıyla etiraf elədi. Bildirdi ki, Rusiya Qərblə silahlanma yarışına girmək fikrində deyil, lakin ölkənin hərbi qüdrətinin lazımı səviyyədə qalması üçün mümkün hər şeyi edəcək.

Təsadüfi deyil ki, Rusiya müdafiə naziri Sergey Şoyqunun təzəcə başa çatan İran səfəri çərçivəsində Moskvanın Tehrana zenit-raket kompleksləri satması barədə Qərbi də narahat edən yeni anlaşma əldə edilib. Aydın məsələdir ki, Rusiyaya haradan olur-olsun pul lazımdır.

*****

Təbii ki, Azərbaycan və Türkiyə də sakitcə oturub ətrafdakı prosesləri seyr eləməklə məşğul deyil. Prezident İlham Əliyevin ötən həftə reallaşan Türkiyə səfəri həm də bu xüsusda iki qardaş ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın yüksək səviyyədə inkişaf etməsinin təsdiqlənməsi ilə əlamətdar oldu.

**Bunu Azərbaycanın dövlət başçısı Ankaradakı birgə mətbuat konfransında açıq şəkildə dilə də gətirdi. Müdafiə sahəsində əməkdaşlığa toxunan dövlət başçısı Azərbaycanın Türkiyədən xeyli silah aldığını söylədi. Sitat:** "Biz Azərbaycanda birgə hərbi məhsul istehsalı barədə də fikir mübadiləsi apardıq. Müdafiə sahəsində əməkdaşlığın dərinləşməsi üçün böyük planlar var. Keçən il Azərbaycanda birgə hərbi təlimlər keçirildi və bir neçə gün davam etdi. Belə hərbi təlimlər bundan sonra da mütəmadi keçiriləcək. Biz Türkiyənin böyük uğurlarına çox sevinirik, Türkiyə artıq güc mərkəzidir. Türkiyə nə qədər güclü olsa, Azərbaycan da o qədər güclü olacaq..."

Bundan əlavə, son vaxtlar cəbhə xəttindən düşmənin canlı itkiləri barədə daha tez-tez xəbərlər gəlməsi də ölkəmizin müdafiə-hücum sahəsində hazırlıqlarının daha yaxşı səviyyəyə qalxdığına dəlalət edir.

*****

Hərbi quruculuq sahəsində Azərbaycanın ciddi addımlar atdığını indi müvafiq beynəlxalq strukturlar və qurumlar da bilir və təsdiqləyir. Məsələn, ABŞ-ın "Global Firepower" qlobal araşdırma mərkəzi bugünlərdə dünyanın ən güclü ordularının siyahısını tərtib edib və həmin siyahıda Azərbaycan silahlı qüvvələri 106 ölkə içərisində 50-ci yerə qoyulub.



Siyahı hazırlanarkən orduların quruda, havada və dənizdə adi silahlardan istifadə imkanları, həmçinin ölkənin malik olduğu iqtisadi resurslar və coğrafi vəziyyət əsas götürülüb. Ümumilikdə, 50 amil əsasında tərtib olunan siyahıya ABŞ ordusu başçılıq edir. İkinci yerdə Rusiya, üçüncü yerdə Çin ordusudur. Birinci onluqdakı sonrakı yerləri Hindistan, Böyük Britaniya, Fransa, Almaniya, Türkiyə, Cənubi Koreya və Yaponiya tutur. Azərbaycan Rumınıya, Belarus, Gürcüstan, Qazaxıstan, Portuqaliya, Macarıstan, Kolumbiya, Yunanıstan kimi ölkələri geridə qoyub. Ermənistanın adı isə ümumiyyətlə siyahıya düşməyib.

**Hərbi ekspert Üzeyir Cəfərova görə, dünyanın ən güclü ordularının siyahısında Azərbaycanın ilk 50 ölkə arasında olması müsbət haldır:** "Bu, ordudakı inkişafı göstərir. Bu cür siyahıların tərtib edilməsində BMT-yə təqdim edilən hesabatların da böyük rolu var" (anspress).

**Onun sözlərinə görə, son illər Azərbaycanın silahlı qüvvələrində aparılmış işlər, hərbi texnikanın, silah-sursatın alınması da Azərbaycanın reytinqinin qalxmasına təsir edib:** "O ki qaldı Ermənistana, bu ölkə həm iqtisadi, həm də hərbi cəhətdən Rusiyadan tam asılı dövlətdir. Buna görə də Rusiyada olan çətinliklər Ermənistana da öz təsirini göstərir və Ermənistanın adının bu siyahıda olmaması tam normaldır".

**Hərbi ekspertin fikrincə, yaxın bir neçə ildə Azərbaycan ən güclü ordular siyahısında daha da irəliləyəcək.** "Mənim fikrimcə, 2015-ci ilin ikinci yarısında tərtib olunacaq reytinq siyahısında Azərbaycan daha yüksək pillələrə qalxacaq", - deyə o əlavə edib.

*****

Azərbaycanın əslində sırf peşəkar orduya keçmək imkanı və şansları da pis deyil. Əgər bu yöndə neftdən güclü asılı olan Rusiya ciddi addımlar ata, Tacikistandakı, Gümrüdəki hərbi bazaları muzdluların hesabına qura bilirsə, daha kiçik ordusu üçün Azərbaycan xeyli az xərclə bana nail ola bilər.

# Davudoğlundan ermənilərə barış mesajı

## "Biz səmimi şəkildə istəyirik ki, yaraları sağaldaq, ağrılara şərik çıxaq..."


Əhməd Davudoğlu

**Türkiyənin baş naziri Əhməd Davudoğlu Türkiyə ilə tarixi fikir ayrılıqlarını aradan qaldırmaq üçün birgə yollar axtarışına çağırıb. Musavat.com-un məlumatına görə, bu barədə "Hurriyet" nəşri yazıb.**

Baş nazirin sözlərinə görə, ermənilər və türklər "ortaq 800 illik tarixi nəzərə alaraq" insani münasibətləri inkişaf etdirməli, bir-birilərini yenidən tanımalıdırlar.

"Bu xalqlar bir-birini anlamaq və ortaq gələcək qurmaq üçün yetkinlik göstərməlidir. Ermənilər və türklər qonşular olaraq və ortaq tarixi bölüşənlər kimi öz problemlərini başa düşə və onların həll yolunu yalnız danışıqlarla tapa bilərlər. Bizim aramızda qarşılıqlı inam və əməkdaşlıq olmalıdır", - deyə Davudoğlunun yazılı bəyanatında qeyd edilir.

Baş nazir erməni həmkarlarını "qarşılıqlı iddiaların aradan qaldırılması" üçün tez-tez Türkiyəyə baş çəkməyə çağırıb. "Biz səmimi şəkildə istəyirik ki, yaraları sağaldaq, ağrılara şərik çıxaq və dostluğu bərqərar edək" - əlavə edib Davudoğlu.

# “Məni pis başa düşmə, dilənçi deyiləm, pul kisəmi itirmişəm...”

## Bakının qeyri-rəsmi dilənçiləri; onların ucbatından həqiqətən pul kisəsini itirib yolda qalanlara da şübhə ilə yanaşırsan...









**Bakı küçələrində müxtəlif üsullarla dilənənlərə gözümüz çoxdan öyrəşib. Əvvəllər onların yalvarışlarına, şikəst olduqlarına inanıb, qəpik-quruş verənlər daha çox idi. Ancaq bu şəxslərin fırıldaqları, yalançı şikəstlikləri ortaya çıxandan bəri onlara acıyanların, pul verənlərin də sayı azalıb.**

Buna görə də dilənçilərin bir çoxu artistlik və yalan danışmaq qabiliyyətindən istifadə edərək fərqli üsullarla dilənməyə başlayıblar. Belələri adətən normal geyim-kecimdə olur və özlərini dilənçi kimi yox, sadəcə, “pul kisəsi oğurlandığı” və ya “yadından çıxıb evdə qoyduğu üçün” əlacsız qalan, “evə getməyə yol pulu tapmayan” və məcburiyyətdən insanlara əl açan zavallı şəxs kimi təqdim edirlər.

Haqqında danışdığımız şəxslər əsasən metro çıxışlarında, gediş-gəlişin gur olduğu küçələrdə dayanırlar. Bu qeyri-rəsmi dilənçilər insanlara yaxınlaşaraq müxtəlif bəhanələrlə pul istəyir. Bu bəhanələr əsasən belə olur: “Pul kisəmi oğurlayıblar, yolda qalmışam. 20 qəpik verə bilərsənmi?”; “Səhv avtobusa minmişdim, cibimdəki son qəpiyi verdim, evə qayıtmaq üçün mənə 20-40 qəpik verə bilərsən?”, “Qardaş, məni pis başa düşmə, amma siqaret almaq üçün mənə pul verə bilərsən?” və sairə.

Polislər bu cür dilənçilərdən baş çıxara bilmir. Çünki onların geyim və səliqələrinə baxanda dilənçi olduğunu təxmin etmək çox çətindir. Elə bəlkə də buna görədir ki, onların sayı durmadan artır. Biz də dilənçilərin daha çox yığışdığı “Neftçilər” metrosu yaxınlığında müşahidə apardıq. Metronun girəcəyində dayanıb bir neçə şəxsə yaxınlaşan səliqəli geyimli orta yaşlı kişi diqqətimizi çəkdi. 20-25 dəqiqəlik müşahidəmizdən məlum oldu ki, bu yuxarıda söhbət açdığımız “qeyri-rəsmi dilənçi”lərdəndir.

Bu şəxs əsasən gənc oğlanlara yaxınlaşaraq pul kisəsinin oğurlandığını və naəlac qaldığını bildirərək, “çox yox, mənə yol getmək üçün 20 qəpik verə bilərsiniz?” deyirdi. Pulu alan bu orta yaşlı adam daha sonra avtobus dayanacağına doğru üz tutub, özünü elə göstərirdi ki, sanki indi avtobusa minəcək. Pul aldığı gəncin gözdən itdiyini görüncə yenə eyni metodla digər “seçdiyi şəxsə” yaxınlaşırdı. Qeyd edək ki, o, bu yolla 20-25 dəqiqə içərisində xeyli pul yığa bilmişdi.

Metro keçidlərində diqqətimizi daha bir gənc çəkdi. Bu gənc də səliqəli geyimdə əlində dini yazılar olan kağızlar və xalq arasında “Ətağa” adı ilə bilinən Ağa Seyidəli Mir Abutalıb oğlu Mirmövsümzadənin şəkillərini paylayaraq qazanc əldə edirdi. O, əvvəlcə şəkli yoldan keçənlərə uzadır, daha sonra “Allah rizası üçün nə verərsəniz verin” deyirlər. Onu da “qeyri-rəsmi dilənçilər” kateqoriyasına daxil etmək olar. Ona bunu satmağın günah olduğunu deyəndə isə əslində bu işi könüllü etdiyini, sadəcə, “evdə xəstəsi olduğu üçün” qarşılığında pul istədiyini söylədi. Bu qədər şəkli haradan əldə etdiyini soruşduqda gənc oğlan ona inanmadığımızı və pul verməyəcəyimizi anlayaraq sualımızı cavabsız qoyub digər şəxslərə doğru getdi. Buradan da aydın görünür ki, bu da dilənməyin artıq başqa bir üsuludur.

Daha sonra “Neftçilər” metrosu yaxınlığında 4-5 yaşlarında kiçik körpə uşağı yerdə oturdub qarşısına dəmir balaca qab qoyan qadına yaxınlaşdıq. Bizi görüb uşağı qoyub uzaqlaşan qadından niyə körpəyə belə zülm etdiyini soruşduq. Qadın qəddarcasına “uşaq mənimdi, mən bilərəm, kefimdən diləndirmirəm, ehtiyacım var, uşağı dünyaya elə dilənsin deyə gətirmişəm”- deyib uzaqlaşır.

**Bir az irəlidə daha bir neçə uşağa rast gəlirik. Adının Emin olduğunu deyən 8 yaşlı bu balacanı söhbətə tuta bilmək üçün pul verib, niyə diləndiyini və yığdığı pulları nə etdiyini soruşuruq. Balaca oğlan yığdığı pulları böyüyünə verdiyini deyir: “Mən yığdığım pulları heç nə etmirəm, böyüyümüzə veririk. Biz hamımız bir evdə qalırıq. Bir dəfə yığdığım puldan 2 manat özüm üçün gizlətdim. Onu da bilib əlimi yandırdılar”.**

Uşağın bizimlə söhbət etdiyini görən bir qadın uzaqdan uşağı çağırdı...

Qeyd edək ki, dilənçilərin bu cür fırıldaqlarla insanların səmimiyyətindən və saflığından istifadə edərək pul qazanması cəmiyyətdə insanların bir-birinə olan inamını, güvənini gündən-günə azaldır. Bu tip qeyri-rəsmi dilənçilərin ucbatından doğrudan da bir gün pul kisəsini itirib yolda qalan insanlara da artıq şübhə ilə yanaşırıq.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**



## «Azercell»in BölgəTələbə Proqramının qalibləri müəyyən edildi

**Azərbaycan gənclərinin inkişafına yönəlmiş layihələri dəstəkləyən və təhsillə bağlı bir sıra proqramlar həyata keçirən Azərbaycan rabitə bazarının lider şirkəti «Azercell Telekom»un reallaşdırdığı Bölgə Tələbə Proqramının qalibləri artıq müəyyən olunub. Bölgə Tələbə Proqramının mərhələli seçimləri nəticəsində «Azercell»in təqaüdçüsü adını qazanan beş tələbə ali təhsillərinin sonunadək şirkət tərəfindən 200 AZN məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsində biliklərini artırmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və şirkətdə təcrübə keçmək imkanını əldə edəcəklər. Proqramın qalibləri sırasında Lənkəran Dövlət Universitetinin 1, Mingəçevir Politexnik İnstitutunun və Naxçıvan Dövlət Universitetinin 2 tələbəsi yer alıb.**

**Məlumat üçün bildirək ki, «Azercell» 15 oktyabr 2014-cü il tarixində Bölgə Tələbə Proqramına başlayıb. «Azercell» Naxçıvan Dövlət Universitetində, Lənkəran Dövlət Universitetində və Mingəçevir Politexnik İnstitutunda təhsil alan tələbələrə Bölgə Tələbə Proqramına qatılmaq imkanını yaradıb. Bölgə Tələbə Proqramının məqsədi müvəffəqiyyətlə təhsil alan və akademik fərq yaradan tələbələrə xüsusi qayğı göstərmək, yüksək potensiallı tələbələrin gələcəkdə peşəkar kimi formalaşmasına dəstək olmaq və korporativ sosial məsuliyyətli fəaliyyətlər çərçivəsində cəmiyyətə töhfə verməkdir.**

**Seçimlər 2 mərhələdə baş tutub. Birinci seçim mərhələsi tələbələrin onlayn rejimdə təqdim etdikləri ərizələrin və sənədlərin dəyərləndirilməsindən ibarət olub. Birinci mərhələ ərəfəsində «Azercell»in İnsan Qaynaqları mütəxəssisləri Lənkəran Dövlət Universiteti, Mingəçevir Politexnik İnstitutu və Naxçıvan Dövlət Universitetində təqdimatlar keçirib. İkinci seçim mərhələsində iştirak edən tələbələrə məntiq məsələlərindən ibarət yazılı tapşırıqla yanaşı, müxtəlif mövzularda Azərbaycan dilində inşa yazmaq tapşırığı verilib. Bundan əlavə, tələbələr «Azercell»in mütəxəssisləri tərəfindən keçirilən üz-üzə müsahibələrdə iştirak ediblər.Tələbələr akademik bilikləri, dünyagörüşü, elmə və təhsilə həvəsi və s. meyarlar əsasında dəyərləndirilib.**

**Qeyd edək ki, Azərbaycanlı tələbələr tərəfindən çox maraqla qarşılanan Tələbə Proqramı 2008-ci ildən etibarən hər tədris ilində təqdim edilir. Onlar «Azercell»dən təqaüd almaqla yanaşı, həm də şirkətin mütəxəssislərinin dəstəyi ilə gələcək karyeraları üçün əvəzedilməz təcrübə qazanıblar. Məlumat üçün bildirək ki, «Azercell Telekom» fəaliyyətə başladığı gündən gənclərin elm və təhsilinin inkişafı üçün bir sıra uğurlu layihələr həyata keçirib. Bu layihələr sırasında ölkə universitetlərində 3G və 4G laboratoriyalarının təşkili, Barama İnnovasiya Mərkəzi nəzdində reallaşan saysız uğurlu layihələr, müxtəlif Tələbə Proqramlarını xüsusilə qeyd etmək olar.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell» Telekom MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell» Ekspres ofisləri, mobil elektron xidməti “Asan İmza” və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsil şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. «Azercell» dünyanın 17 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaçı olan «TeliaSonera» şirkətlər qrupunun bir hissəsidir.**

## “Nar Mobile”dan daha bir kampaniya

### Mobil operator “Irshad Electronics”lə birlikdə müştərək layihə başladı

**“Nar Mobile” öz tərəfdaşı olan “Irshad Electronics”lə birlikdə daha bir kampaniyaya start verdi. 15 yanvar 2015-ci ildən etibarən, “Irshad Electronics” mağazalarından “Nar” Sim-kartı ilə təmin edilmiş “FLY Tornado Slim” smartfonu alan hər bir kəs xüsusi güzəştlərdən yararlanır. Belə ki, istifadəçilər “Nar” nömrəsi ilə bərabər aldıqları smartfonun qiymətinin yarıdan çoxunu bonus şəklində geri qazanırlar. Bu məbləğ altı ay boyunca hissə-hissə abunəçinin balansına yüklənir (200 AZN dəyərindəki bonus hər ay 33,33 AZN olmaqla 6 ay ərzində abunəçiyə təqdim edilir).**

**Bundan başqa, abunəçilər aylıq 250 Mb həcmində İnternet-bonus da əldə edirlər. Bütün bonusları aktivləşdirmək üçün hər ay balansı ən az 5 AZN dəyərində artırmaq kifayət edir.**

**Daha ətraflı məlumatı bizim facebook səhifəmizdən əldə edə bilərsiniz:**

**https://www.facebook.com/narmobile?ref=br_tf**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan “Nar Mobile”, 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində “Nar Mobile” daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və abunəçilərin rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən internet paketləri və abunəçilərin hər zona üzrə bir qiymət ödədiyi sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır. “Nar Mobile” Bakı 2015 Avropa oyunlarının rəsmi mobil rabitə təminatçısıdır.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

# Hövsana məlum insidentdən sonra mülki geyimli şəxslər nəzarət edir

## Qəsəbə sakinləri valideynləri təhqir etdiyinə görə məktəb direktorunun cəzalanmasını istəyir; Suraxanı prokurorluğu məsələni araşdırır





Elmar



Qardaşxan Səlimov

**Yanvarın 19-da Hövsan qəsəbəsindəki 118 saylı orta məktəbin direktoru Qardaşxan Səlimovun bu məktəbdə təhsil alan şagirdləri təhqir etməsindən sonra baş verən kütləvi aksiya gündəmdən düşmür. Aksiya zamanı 21 yaşlı gəncin dünyasını dəyişməsi gərginliyi daha da artırdı.**

Hövsan qəsəbəsindəki hazırkı durumu öyrənmək üçün sakinlərlə əlaqə saxladıq. Sakinlərin sözlərinə görə, hazırda mərhum gəncin yas mərasimi ilə məşğuldurlar: "Dünən mərhumu dəfn etdik. Bu gün üç mərasimidir. Hamının başı ona qarışıb. Mərhum çox sayılan və hörmətli bir insan idi. Bütün qəsəbə onun yas mərasimindədir. Bu baxımdan, hələlik sakitlikdir. Məktəb direktoru isə məktəbdən uzaqlaşdırılıb və məktəbə buraxılmır".

**Adının çəkilməsini istəməyən qəsəbə sakininin sözlərinə görə, qəsəbəyə hüquq-mühafizə orqanlarının mülki geyimli şəxsləri nəzarət edir:** "Mülki geyimdə bir neçə nəfər var, sakitliyə nəzarət edirlər. Ancaq rəsmi formada polis işçiləri gözə dəymir".

**Hövsan sakini deyir ki, onlar mərhumun ölümündə məktəb direktorunu günahkar bilməsə də, baş verən hadisələrə və şagirdlərin təhqir olunmasına səbəb olduğuna görə onu məsul tuturlar:** "Ölüm hər yerdə ola bilər, bu evdə də baş verə bilərdi. Buna görə kimsəni günahlandırmırıq. Ancaq valideynləri təhqir etdiyinə görə məktəb direktorunun cəzalanmasını istəyirik".

**Hadisəyə hüquqi qiymət verən hüquqşünas Müzəffər Baxış bildirdi ki, əgər sakinlər məhkəməyə şikayət edərsə, məktəb direktoru məsuliyyətə cəlb oluna bilər:** "Əgər hadisə həqiqətən mətbuatda yazıldığı kimi baş veribsə və məktəb direktoru uşaqların yanında o ifadələri işlədibsə, bu, yalnız təhqir kimi qiymətləndirilə bilər. Burada məktəb direktoru şagirdləri çox nalayiq formada təhqir edib, onların şərəf və ləyaqətini alçaldıb. Bu, Azərbaycan qanunvericiliyində nəzərdə tutulduğu kimi, şəxsin şərəf və ləyaqətini alçaltma sayılır. Cinayət Məcəlləsinin 148-ci maddəsi təhqirə görə cinayət məsuliyyəti nəzərdə tutur. Ancaq Cinayət Prosessual Məcəlləsinə görə, bu əməllər xüsusi ittiham qaydasında təqib olunan əməllərdir. Yəni məktəb direktorunun CM-in 148-ci maddəsi ilə ittiham olunması üçün sakinlər tərəfindən məhkəməyə müraciət edilməlidir. Daha sonra məhkəmə araşdırmalıdır və həmin şəxsin əməllərində cinayət tərkibi varsa, həmin maddə ilə o şəxs məsuliyyətə cəlb olunur. Aksiya zamanı bir nəfər gəncin dünyasını dəyişməsinin məktəb direktorunun əməlləri ilə birbaşa bağlılığını iddia etmək hüquqi baxımdan mümkün deyil. Həmin şəxsin sağlamlıq problemləri ola bilər. Ölüm faktını həmin hadisələrlə əlaqələndirmək və kimisə ittiham etmək Azərbaycan qanunvericiliyinə görə qeyri-mümkündür".

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov musavat.com-a bildirdi ki, Suraxanı rayonundakı 118 saylı məktəbdə baş verən hadisə Suraxanı Rayon Prokurorluğu tərəfindən araşdırılır.

❑ **Nərgiz LİFTİYEVA**

# Əhalinin banklara 18 milyardlıq kredit borcu var

## Ekspertlərə görə, kreditlər insanların gəlir mənbəyinə və insanlar kreditlərin girovuna çevrilir...

**2014-cü ildə əhalinin gəlirləri əvvəlki illə müqayisədə 4,8 faiz artaraq 39,4 milyard manata çatıb. Dövlət Statistika Komitəsinin 2014-cü ildə ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri ilə bağlı xülasəsində bildirilir ki, əhalinin hər nəfərə düşən məbləği isə 3,5 faiz artaraq 4180,5 manata çatıb. Gəlirlərin 68,8 faizi son istehlaka, 8,7 faizi vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 20,0 faizi isə əmanətlərin və kapitalın artırılmasına sərf olunub.**



Əhalinin banklardakı əmanətləri 2014-cü ilin on bir ayının göstəriciləri ilə müqayisədə 10,4 faiz artaraq 7,1 milyard manata çatıb. Əmanətlərin 4,5 milyard manatını və ya 63,2 faizini milli valyuta, 2,6 milyard manatını isə xarici valyuta təşkil edib, vəsaitin 5,4 milyard manatı özəl banklara qoyulub.

Xülasədə diqqət çəkən maraqlı məqam yanvar-noyabr aylarında maliyyə-kredit təşkilatları tərəfindən ölkənin hüquqi və fiziki şəxslərinə verilmiş kreditlərin məbləği ilə bağlıdır. Bu məbləğ 19,1 faiz artaraq əvvəlki illərdə verilmiş kreditlər də nəzərə alınmaqla 18,2 milyard manata çatıb. Kreditlərin 79,5 faizi uzun müddətə verilib, 5,4 faizinin ödəmə vaxtı keçib.

Ekspert Samir Əliyevin sözlərinə görə, əhalinin gəlirlərinin ilbəil artmasına rəğmən, artım tempinin getdikcə azalması, xərclərin isə artması müşahidə edilir. "2012-ci ildə gəlirlərin artımı 13,8 faiz olduğu halda sonrakı illərdə azalaraq 2013-cü ildə 8 faiz, 2014-cü ildə 4,8 faiz təşkil edib. Gəlirlərin strukturuna diqqət yetirdikdə məlum olur ki, son istehlak xərclərinin artımı, yığım imkanlarının isə məhdudlaşması baş verir. 3 il öncə gəlirlərdə son istehlakın payı 61 faiz olduğu halda, ötən il onun payı artaraq 68,8 faizə yüksəlib. Əmanətlərin və kapitalın artırılmasına yönəldilən gəlirlər isə azalaraq 2012-ci ildəki 29,3 faizdən 20 faizə düşüb. Bütün bunlar xərclərin sürətlə artmasını göstərir. Bəs, bu xərclər nəyin hesabına artır? Əlbəttə ilk növbədə malların və xidmətlərin bahalaşmasını göstərmək olar. İkinci səbəb ki, əhalinin kütləvi şəkildə kreditləşməyə üz tutmasıdır. Hətta Mərkəzi Bankın istehlak kreditinə tətbiq etdiyi məhdudlaşdırıcı tədbirlər onun sürətli artmasının qarşısını ala bilmir. İstehlak kreditlərinin artım tempinin əhalinin gəlir tempini üstələməsi narahatçılıq doğurur,- deyə ekspert qeyd edib.

Onun sözlərinə görə, əhalinin gəlirləri ötən il cəmisi 4,8 faiz artdığı halda istehlak kreditlərinin artımı 23-24 faizə yaxın olub: "İnsanlar istehlak tələbatını faktiki olaraq kreditlər hesabına ödəyirlər. Ötən il əhali öz gəlirlərinin təxminən 20 faizi məbləğində borclanmaya gedib. Halbuki 2010-cu ildə borclanmanın həddi 10 faizdən bir qədər çox olmuşdu. Artıq bu hədd ciddi siqnaldır. Getdikcə kreditlər insanların gəlir mənbəyinə çevrilir. Bu kreditləri isə gəlir olmadan qaytarmaq mümkün olmur. Beləcə də insanlar kreditlərin girovuna çevrilir".

❑ **RÖYA**



# Müəllimlərin maaşı artdı, bəs həkimlər?

## Büdcədə artım nəzərdə tutulur, qalır onun nə vaxt reallaşacağı; dünyada həkimləri ən aşağı maaş alan ölkələr sırasında Azərbaycan da var...

**Azərbaycanda ən önəmli peşənin sahibləri ən az maaş alanlar sırasındadır. Bunlar müəllimlər və həkimlərdir. Hazırda 150 min müəllimdən 30 mininin də olsa maaşı iki dəfə artdı. Bəs həkimlərinki necə, artacaqmı?**

Dünya ölkələrinə nəzər salsaq, ən kasıb ölkələrin belə həkimlərinin Azərbaycan həkimlərindən çox maaş aldığını görərik. Ekspertlərin fikrincə, Azərbaycanda əmək haqları köhnə sovet sisteminə uyğun hesablanır. Belə ki, Əmək Məcəlləsinə görə, həftəlik normal iş vaxtının müddəti 40 saatdan artıq müəyyən edilə bilməz. Minimum əmək haqqı isə saata görə deyil, aylıq hesablanır. Beynəlxalq praktikada minimum əmək haqqı saata görə götürülür. Saata görə minimum əmək haqqı Rusiyada 1 dollar, Fransada 12 dollar, Almaniyada 11 dollar, ABŞ-da 7,5 dollar, İsveçrədə 57 dollardır.

Azərbaycanda minimum əmək haqqını aylıq 160 saat iş müddətinə görə hesablasaq, günə 0.82 ABŞ dolları düşür. Onu günlük səkkiz saata böldükdə, minimum 0.12 dollara işlədiyimizi görərik. Azərbaycan yuxarıda adını çəkdiyimiz ölkələrə nisbətən kasıb ola bilər. Amma paytaxt Bakının bahalığı elə bu dövlətlərin şəhərləri ilə eyni sırada durur. Təsadüfi deyil ki, Bakı dünyanın ən bahalı 20 şəhəri sırasındadır. Məvacibə gəldikdə isə dünyanın kasıb ölkələri sırasında qərarlaşırıq. Həkimlərə gəlincə, daha populyar olan terapevtlərin qazancı ilə müqayisə aparaq: Rusiyada hər 100 min insana 512 həkim-terapevt düşür. Onların məvacibləri isə ortalama 782 dollardır. Fransada hər 100 min vətəndaşa 338 terapevt düşür. Həkim-terapevtlərin əmək haqları 6000 dollar civarındadır. Almaniyada bu göstərici 313-dür. Onların qazancı isə 7 min dollardır. ABŞ-da hər yüz min insana 273 həkim-terapevt xidmət göstərir. Onların əmək haqqı isə 13 min dollardır.

Dünyanın ən kasıb ölkələrindən sayılan Anqolada da həkimin maaşı Azərbaycan həkiminin maaşından dəfələrlə çoxdur. Belə ki, onların maaşı 2500 dollardır. Liviyada həkimlər təxminən 2 min, Tunisdə 1200, Yəməndə 1500-3000 dollar əmək haqqı alırlar. Digər ölkələrdə həkimlərin nə qədər maaş aldığını öyrənmək üçün internet üzərindən kiçik bir araşdırma apardıq. Böyük Britaniyada 7 min avro (8 min manata yaxın), İsraildə 7,5 min dollara yaxın (təxminən 5 min manatdan yuxarı), Niderlandda 6,3 min dollar (5 min manata yaxın), Sinqapurda 6 min dollar, İtaliyada 5,2 min avro, İspaniyada 5 min avro, Danimarkada 4,6 min avro, Finlandiya və Portuqaliyada 2,5 min avro, Çexiyada 1,6 min, Polşada 1,5 min avro, Rumıniyada 650 avro, Küveytdə 2,1 min dollar, Çində 350 dollar, Yaponiya və Tayvanda 5,5 min dollar təşkil edir. Belarus həkimləri də azərbaycanlı həmkarlarından çox maaş alır. Bu ölkədə tibb işçilərinin minimum əmək haqqı 340 dollardır. Qazaxıstanda bu göstərici 300-800 dollar arası, Ukrayna və Gürcüstanda isə 300 dollardır. Türkmənistanda büdcə təşkilatlarında çalışanların orta aylıq əmək haqqı 180-200 dollardır. Ancaq bu pula 1128 kiloqram çörək, yaxud 65 kiloqram ət, 270 kiloqram qənd, 49 kiloqram yağ almaq olar. Ortaya çıxan rəqəmlərdən də aydın görünür ki, Azərbaycan həkiminin aldığı maaş bu ölkələrin həkimlərinin aldığı maaşın yanında qəpik-quruş kimi qalır.

**Ancaq müəllimlərdən sonra həkimlərin də maaşlarının artırılacağı ilə bağlı bir sıra müzakirələr gedir ki, bu da həkimlərin yüksək maaşa olan ümidini artırır. Milli Məclisin deputatı Vahid Əhmədov mətbuata açıqlamasında müəllimlərdən sonra həkimlərin də maaşlarının artacağını bildirib. Onun sözlərinə görə, dövlət büdcəsində maaşların artırılması ilə əlaqədar vəsait nəzərdə tutulub:** "Büdcə müzakirə olunan zaman və ondan əvvəl də qeyd etmişəm ki, həkimlərin, müəllimlərin maaşlarının artırılmasına böyük ehtiyac var. Onların maaşları orta aylıq əmək haqqından təxminən iki dəfə aşağıdır. Cənab prezident sərəncam imzaladı və müəllimlərin maaşı 2 dəfə, dərs yükləri 1,5 dəfə artırıldı. Bunun ardınca da həkimlərin maaşlarına baxmağa çox böyük ehtiyac var. Dövlət büdcəsində bununla əlaqədar vəsait nəzərdə tutulub".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 14 (6042) 22 yanvar 2015



## Döyülən uşaqda astma, xərçəng və ürək xəstəliyi yaranır

**Əgər uşaq döyülərsə, gələcəkdə onda xərçəng, ürək və astma xəstəliklərinin inkişaf edəcəyi istisna edilmir. Böyük Britaniyanın Plimut Universitetinin bir qrup alimi bu fikirdədir.**

"AzərTAc" xəbər verir ki, ekspertlərin fikrincə, fiziki təsir və ya qışqırmaq nəticəsində yaranan güclü stress uşağı xəstəliklərə meylli edə bilər. Həmçinin uşaqlıqda fiziki və ya seksual zorakılığa məruz qalmağın xroniki xəstəliklərə səbəb olduğunu güman etməyə əsas var.

Ekspertlər Səudiyyə Ərəbistanında sağlamlığından şikayəti olmayan 250 nəfər yaşlı şəxs arasında sorğu aparıblar. Alimlər onların uşaqlıq illəri ilə maraqlanıblar. Habelə 150 ürək, 150 xərçəng və 150 astma xəstəsi arasında sorğu aparıblar. Tədqiqatçılar könüllülərin uşaq yaşlarında nə qədər tez-tez döyülmələri və ya təhqir olunmaları ilə maraqlanıblar. Məlum olub ki, xərçəng xəstəsi olan şəxs uşaqlıqda 70 faiz daha çox zorakılığa məruz qalıb. Ürək xəstəlikləri bu ehtimalın 30 faiz artımına, astma isə 60 faiz uyğun gəlib. Universitetin psixologiya məktəbinin professoru Maykl Hiland əmindir ki, gənc yaşda alınan belə mənəvi zədələr insanın həyatında həmişəlik iz qoyur. Beləliklə, tədqiqat döyməyin tərbiyə üsulu kimi işə yaramadığını göstərib.

## İnsanları 120 il yaşadacaq dərman tapıldı

**Rusiyalı alimlər hazırladıqları bir dərmanın hesabına insanların 120 yaşadək yaşamasının mümkün olduğunu açıqlayıblar. Türkiyənin "Hürriyet" qəzeti yazıb ki, Moskva Dövlət Universitetindən doktor Maksim Skulaçev və heyəti yeni bir antioksidant növündən istifadə edərək hazırladıqları həb sayəsində insan ömrünün uzanacağını iddia edib.**




Alimlər bildiriblər ki, bu antioksidantın əsas vəzifəsi bioloji enerjinin təmin edilməsi, infarkt və Alsheymer (yaddaşsızlıq) xəstəliyi ilə bağlı mikroelementlərə müsbət təsir göstərməkdir. Qocalma müddətini yavaşlatdığı iddia edilən bu formul siçanlar, balıqlar və itlər üzərində də sınaqdan keçirilib. Skulaçev deyib ki, formul sayəsində heyvanlarda yaşlılıqla bağlı bir çox xəstəlik çox yavaş ortaya çıxır. Alim deyib ki, başqa araşdırmalar da müsbət nəticə verərsə, "yaşlılıq təxirə salınacaq".

Amma Skulaçev insanın 800 il yaşamasının mümkün ola biləcəyinə inanmadığını, böyük ehtimalla, gələcəkdə yeni xəstəliklərin ortaya çıxacağını deyib.

## Əri vasiyyət edib: "Mən öləndən sonra bir yerdə dayanma!.."

**Amerikalı Li Voçtstetter adlıq qadın ərinin ölümündən sonra 7 ilini kruizdə keçirib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir.**

Qadın 1997-ci ildə ərinin ölümündən sonra Floridadakı evini satıb, mərhumun "heç vaxt kruizi dayandırma" vəsiyyətindən sonra hər il səyahətə 160 min dollar sərf edir. Səyahət zamanı qadın 100-dən çox kruizdə olub. 86 yaşlı qadın deyib ki, onu daha çox Asiya ölkələri cəlb edir. Çünki ordakı həyat ABŞ-dakından qat-qat yaxşıdır. Qadının ən çox sevdiyi ölkə isə Türkiyə olub. O, hər dəfə İstanbula gedəndə "Qapalı çarşı"ya baş çəkib maraqlı geyimlər alır. Dediyinə görə, geyim məsələsində hər zaman özünə qırmızı işıq yandırır. Çünki çox paltar alarsa, kayutda onu saxlamağa yeri olmur. 86 yaşlı qadın bu səyahətlər zamanı daha çox nəvələri və üç uşağından ötrü darıxır. O, əzizləri ilə internet vasitəsilə əlaqə saxlayır.





## Hər kəs bu qadının bədənində adını yazdıra bilər

**Cəmi 10 dollar ödəməklə hər kəs öz adını bu qadının bədəninə yazdıra bilər. Milli.az bildirir ki, ABŞ-ın Los-Anceles şəhərində yaşayan 22 yaşlı İllma Qorçox ekstravaqant, qəribə bir layihəni həyata keçirməyə hazırlaşır.**

O, bədəninə 2500 adamın adını tatuaj etdirmək niyyətindədir.

Adının və ya ləqəbinin İllmanın bədəninə döymə formasında yazılmasını istəyən şəxs bunun üçün 10 dollar ödəməlidir. Naxış və ya vizual konstruksiyanı tatuaj formasında İllmanın bədənində görmək istəyənlər isə 80 dollar verməlidirlər.

Kickstarter portalında layihəsi ilə bağlı elan verərək "işi reallaşdırmaq üçün 6 min dollar gərəkdir" yazmış İllmanın layihəsinə artıq 469 nəfər pul ayırıb və bu minvalla 11072 dollar toplanıb.

## Qoroskop




**QOÇ** - Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə vaxt itirməyin. Yalnız böyük ideyalarınız barədə düşünün. Bunu bacarsanız, saat 15-dən o tərəfə uğurlar sizi müşayiət edəcək.

**BUĞA** - Çalışın ki, fəaliyyət və qarşılıqlı münasibətlərdə yanlışlığa yol verməyəsiniz. Əks təqdirdə, ciddi problemlərlə rastlaşa bilərsiniz. Bu gün mənəvi dəyərlərə və hörmət qazanmağa daha çox üstünlük verin.

**ƏKİZLƏR** - Əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, gələcək perspektivlərinizə yol açılsın. Ulduzlar təvəqqe edir ki, bu gün heç kimə yalan vədlər verməyəsiniz və təşəbbüskarlığı əldə saxlayasınız.

**XƏRÇƏNG** - Bu təqvimdə gücünüz artdığından bütün vacib planlarınızı yavaş-yavaş həyata keçirməlisiniz. Yalnız maliyyə məsələləri ilə bağlı ehtiyatlı olun. Nahardan sonra uzaq səfərə çıxmaq planlarınızı gerçəkləşdirin.

**ŞİR** - Dəyişkən fikirli insanlarla hər hansı bir işbirliyinə getməyin. Özünüzü qiymətli tutun. Saat 10-11 və 17-19 aralığında ağlınız kəsməyən bütün müzakirələrdən vaz keçin. Axşam gəzintisi yaxşı olar.

**QIZ** - Ürəyinizdən Tanrı eşqini çıxarmayın, müqəddəs yerlərə baş çəkin, ətrafınızda olan hər kəsə xeyirxahlıq göstərin. Yalnız bu halda uğurlarınız arta bilər. Bu gün uzaq səfərləri mümkün qədər təxirə salın.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu günü çox rahat şəkildə başa vuracaqsınız. Maddi müstəvidə qazanmaq imkanlarınız da var. Ən başlıcası, ulduzlar aldığınız bütün təkliflərə razılıq verməyinizi təvəqqe edir.

**ƏQRƏB** - Astroloji göstəricilər əsəblərinizin xeyli sakitləşdiyindən xəbər verir. Bu isə böyük işlər görməyinizə stimul verəcək. Odur ki, proqnozumuzdan xəbər tutan dəqiqədən hərəkətə keçin. Riskdən qorxmayın.

**OXATAN** - İstənilən situasiyada reallığa uyğun addım atın. Hər hansı qərəz nümayişi yolverilməzdir. Bu gün üzərinizə ağır öhdəliklər də götürməyin ki, dostlar yanında nüfuzdan düşməyəsiniz.

**OĞLAQ** - Artıq dağı dağ üstünə qoymağa zəmin yaranıb. İnandığınız adamların köməyilə öz hədəfinizə çatmaqda çətinliyiniz olmayacaq. Xüsusən də saat 13-17 aralığı sizin üçün çox düçərli olmalıdır.

**SUTÖKƏN** - Bürcünüzün Zodiakda möhkəmlənməsi sizə əlavə stimul verəcək. Amma gərək riskli addımlardan çəkinəsiniz. Saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Qidanıza fikir verin.

**BALIQLAR** - Qarşınızda neytral bir gün durur. Hər hansı sürpriz və ya uğursuzluq gözlənilmir. Yaxşı olar ki, gün ərzində yalnız adi işlərin həlli ilə məşğul olasınız. Yaxın məsafəyə səfər etmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Komada olan insanla danışdlar



**Kanadalı neyrobioloqlar komada olan insanla ünsiyyət qura biliblər. Rusiya mətbuatının xəbərinə görə, Ontario İnstitutunun alimləri 12 il bundan əvvəl koma vəziyyətinə düşmüş 29 yaşlı Skott Rautlinin beynini ən kiçik impulsları belə təyin edə biləcək yeni skanerlərlə müayinə ediblər. Bu zaman xəstəyə ən adi, "tennis oynaya bilirsən?", "hə" - "yox" cavabı alına biləcək elementar suallar verilib. Nəticədə onun "hə" və ya "yox" cavabı verməsindən asılı olaraq, impulsların da müxtəlif olduğu üzə çıxıb. Bununla da xəstənin əqli fəaliyyətinin aktiv olduğu sübut edilib. Beləliklə, alimlər bundan sonra vegetativ vəziyyətdə olan insanla əlaqə qurmaq imkanı əldə ediblər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300